RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 40 (8633) BAZAR, 21 fevral 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Azərbaycana böyük zəfər yaşadan Qalib Sərkərdə

## 44 günlük savaş 2 əsrlik münaqişəyə və 32 illik müharibəyə son qoydu

**1988-ci il fevralın 22-dən başlayan Qarabağ müharibəsi son 32 il ərzində ilk dəfədir ki, tamamilə fərqli ovqatla xatırlanır. Qələbə ruhu ilə qeyd edilir. Ötən ilə qədər ağrı ilə bəhs etdiyimiz bu problemə 44 günlük Vətən savaşında birdəfəlik son qoyuldu.**



Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 32 illik müharibəni Qələbə ilə başa çatdırmaqla, həm də tarixi 2 əsr əvvələ uzanan ədalətsizliyi aradan qaldırdı.

### Heydər Əliyev ermənilərin planlarının qarşısını qətiyyətlə almışdı

1988-ci il fevralın 22-dən - Əli Hacıyevin və Bəxtiyar Quliyevin Əsgəranda şəhid olduqları gündən bütün dünyanın gözü qarşısında cəlb edildiyimiz ədalətsiz savaş başladı. Bu məkrli ssenarini düşmən çoxdan həyata keçirməyə çalışırdı. Lakin xalqımızın böyük oğlu Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə və daha sonra SSRİ rəhbərliyində təmsil olunarkən Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış etməsinə imkan verməmiş, erməni separatizminin qarşısını qətiyyətlə almışdı.

Xatırladaq ki, hələ ötən əsrin 40-cı illərində Ermənistanda gizli "Qarabağ komitəsi" yaradılmışdı. SSRİ rəhbərliyinə hər vasitə ilə təsir etməyə çalışan ermənilər 1945-ci ilin payızında Dağlıq Qarabağı Ermənistana birləşdirmək məsələsini sovet rəhbərliyi qarşısında qaldırmışdı. Həmin ilin noyabrında Moskvadan M.Bağırova göndərilən məktubda bu məsələyə onun rəyi istənilmişdi. Bu iddiaların heç bir elmi və tarixi əsasının olmadığını bildirən M.Bağırov əhalisinin əksəriyyəti azərbaycanlılardan ibarət olan Şuşa rayonundan başqa, Qarabağın dağlıq hissəsinin Ermənistana verilməsinə o şərtlə razılığını vermişdi ki, müxtəlif dövrlərdə Ermənistana və digər respublikalara verilmiş tarixi Azərbaycan torpaqları geri qaytarılsın. Nə sovet rəhbərliyi, nə də ermənilər buna razı olmuşdu.

Ötən əsrin 50-ci illərinin ortalarında Dağlıq Qarabağın Ermənistana verilməsi məsələsi bir daha qaldırıldı, Ermənistanda anti-Azərbaycan təbliğatı yenidən qızışdırıldı. Lakin ölkədə 30-dan çox milli münaqişə ocağının olduğunu nəzərə alan sovet rəhbərliyi bu məsələnin arzuolunmaz nəticələr verəcəyini başa düşərək problemi Azərbaycanın xeyrinə həll etdi.

Ardı 8-ci səh.

# Ali dəyərlərin daşıyıcısı

## Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva xalqımızın qürur duyduğu şəxsiyyətdir

**Hazırda biz özümüz də hiss etmədən Azərbaycan xalqının tarixində parlaq bir mərhələni yaşayırıq: bu, XXI əsrdə Azərbaycanın yeniləşməsi, möcüzə kimi davam edən intibah dövrüdür!**

Prezident İlham Əliyevin yüksək iradəsi, qətiyyəti, idarəçilik məharəti sayəsində respublikamız son 17 ildə böyük nailiyyətlər əldə edib. Bir çox taleyüklü məsələnin həllinə nail olub. 44 günlük Vətən müharibəsindəki möhtəşəm Zəfərimizlə bütün dünyanı heyrətdə qoyub. Bu günlərin hər biri dövlətçilik tariximizi şərəfləndirir. Uğurlarımıza, keçib gəldiyimiz sınaqlara bələdçilik edir.

Ölkə başçımız bir zamanlar bizə xəyal kimi görünən uzaq arzuları həyata keçirir. Real əmələ, parlaq nəticələrə əsaslanan fəaliyyətlə keçmişin möhkəm təməlləri üzərində Azərbaycanın bugününü və gələcəyini yaradır. Xalq Prezident İlham Əliyevi, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanı öz sevgisi ilə əhatə edir. Əslində belə bir ucalıq çox az siyasət adamlarına nəsib olur.

Mehriban xanım Əliyeva xalqımızın qürur duyduğu şəxsiyyətdir, millətin tərəqqisi üçün yeniləşən ideyalar sahibidir. Azərbaycanın Birinci vitse-prezidentinin inkişafa doğru hər addımı sosial reallığı dəyişən, daha gözəl, daha sağlam, hər kəs tərəfindən məmnunluqla qarşılanan yaradıcılıq məzmunu təqdim edir. Cəmiyyətin firavanlığına bu proseslərin əsas məqsədi kimi yanaşır, insanı müasir həyatımızın ən qiymətli dəyəri kimi qəbul edir. Bu baxımdan Mehriban xanımın fəaliyyətində məsuliyyət yükü ağır və şərəflidir. Çünki onun həyata keçirdiyi ali məqsədlərdir, yüksək amallardır. Bunlar o dəyərlərdir ki, tarixin heç bir dönəmində başqalaşmır, məzmununa xələl gətirmir. Dünyanı yaşadan, gələcəyə ümidi, inamı sarsılmaz edən belə dəyərli insanların haqq yolunda apardıqları qətiyyətli fəaliyyəti və hər addımda ümumxalq dəstəyi ilə əhatə olunmasıdır.

### Milli dövlətçilik tariximizdə bir ilk

Qadınların ictimai həyatda aktiv iştirakı məsələsi zaman keçdikcə daha da aktuallaşır. İslam dünyasının elm, təhsil və mədəniyyət təşkilatı olan ISESCO 2021-ci ili islam aləmində "Qadın ili" elan edib. Bu, həmin qurumun 2020-2030-cu illərdə strateji planının tərkib hissəsidir. Belə bir qərarda əsas məqsəd isə islam dünyasında sosial, iqtisadi və mədəni həyatda qadınların rolunu gücləndirmək, gənc qızların müasir standartlara uyğun daha mükəmməl təhsil almasını təmin etməkdən ibarətdir.

Ardı 3-cü səh.

# Azərbaycana həsr edilən şərəfli missiya

## Mehriban Əliyevanın Birinci vitse-prezident kimi 4 illik nümunəvi fəaliyyəti dünyada uğurlu model kimi qəbul edilir



Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti Azərbaycan xalqının və dövlətinin mənafeyinə xidmət edir. Azərbaycanın Birinci vitse-prezidenti ayrı-ayrı sahələrdə qarşıya qoyulmuş məqsədlərin gerçəkləşdirilməsinə, milli maraqlardan irəli gələn strateji əhəmiyyətli vəzifələrin reallaşdırılmasına xidmət edən səmərəli fəaliyyəti ilə xalqımızın dərin rəğbətini və sevgisini qazanıb. Azərbaycan qadını ölkənin birinci xanımı Mehriban Əliyevanın şəxsində özünə həmişə etibarlı dayaq, əqidə və ideya dostu tapıb.

Onun nəinki ölkəmizdəki, hətta bütün dünyadakı siyasi və ictimai fəallığı Azərbaycan qadınına örnəkdir. Bir sözlə, Mehriban xanım Əliyevanın Birinci vitse-prezident kimi dördillik fəaliyyəti təkcə Azərbaycan üçün deyil, dünya miqyasında model olaraq qəbul və təqdir edilir. Bütün bu uğurların mərkəzində isə xalqın sevgisi, inamı dayanır.

Bax: səh. 6

# Mehriban xanımın mənəvi övladları Vətən savaşının da qəhrəmanları oldu

## Birinci xanımın şəfqəti, qayğısı ilə yeni həyat qazanan, ailə quran, ev sahibi olan İbrahim Abzatov Vətən müharibəsində böyük şücaətlərə imza atdı



...Mehriban xanımın bizim uşaq evinə ilk dəfə gəldiyi vaxtdan xeyli zaman ötüb, amma o gün indiki kimi yadımdadı. Mehriban xanım gəlişi ilə valideyn həsrətimizə son qoydu, kimsəsizliyimizi unutdurdu. Elə bil nağıl dünyasına düşmüşdük, o qədər sovqat, oyuncaq gətirmişdi ki...

Birlikdə oturub çay içir, söhbət edir, bir valideyn kimi bizimlə maraqlanırdı. Bəzən hətta unudurduq ki, valideynimiz yoxdur... Sanki biz Mehriban xanımın övladlarıydıq.

O özü bizə deyirdi ki, mən sizin ananızam. Biləsiniz ki, bu söz idi bizi yaşadan, bizə ruh verən, həyata bağlayan...

Mehriban xanım bizə ana qayğısı göstərdi, öz övladları kimi qəbul etdi. Bu günə qədər də özümü tək, atılmış hiss etməmişəm...

Elə buna görə də düşünmədən könüllü müharibəyə yola düşdüm, gözüm arxada qalmadı. Əmin idim ki, şəhid olsam belə ailəm, qızım köməksiz, dayaqsız qalmayacaq, daim dövlətimizin himayəsində, Mehriban xanımın diqqətində olacaq. Bax bu güvəndən, bu etimaddan güc alaraq mən də Vətən qarşısında borcumu yerinə yetirməyə tələsdim, düşməndən qisas almağa yollandım. Və bu uğurda bir damla da mənim köməyim oldusa, deməli, dünyanın ən xoşbəxt insanıyam...

Bax: səh. 6

# Azərbaycan naminə

Birinci vitse-prezident Mehriban Əliyeva həmişə xalqla bir yerdədir, onun qayğılarına diqqətlə yanaşır, problemlərini həll edir. O, xeyirxahlıq ünvanına çevrilmişdir. Hər bir Azərbaycan vətəndaşının rahat, təhlükəsiz, xoşbəxt yaşaması üçün böyük işlər görür.

Mehriban Əliyeva Birinci vitse-prezident kimi müxtəlif xarici ölkələrə də səfərlər edib. Bu səfərlərdə Azərbaycanın taleyüklü məsələləri ilə bağlı danışıqlar aparmış, onların hamısının nəticəsi müsbət olmuş və bunlar dövlətlər arasında imzalanan sazişlərdə də öz əksini tapmışdır. O, dövlətimizin və xalqımızın maraqlarını hər şeydən üstün tutur.

Bir sözlə, Mehriban Əliyeva Birinci vitse-prezident kimi Azərbaycanın maraqlarını tam qoruyur, xalqın gözləntilərini doğruldur və bu gün ölkədəki sürətli inkişafın, islahatların həyata keçirilməsində Prezident İlham Əliyevin ən etibarlı, fədakar silahdaşı kimi cəmiyyətdə sonsuz hörmət, sarsılmaz inam və etimad qazanmışdır.

Bax: səh. 5



# "Bizi Mehriban xanım xilas etdi"

## Azərbaycanın Birinci vitse-prezidenti humanizmə çağırışı, şəfqət və mərhəməti ilə minlərlə xəstəyə həyat bəxş edir



Talassemiya və digər irsi qan xəstəliyi olan insanlara göstərilən diqqət, qayğı, görülən bütün işlər ölkə rəhbərliyinin və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın birbaşa dəstəyi ilə həyata keçirilir.

Bu işdə Mehriban xanımın rolu əvəzsiz və danılmazdır. Səhiyyə və sosial məsələlər Heydər Əliyev Fondunun fəaliyyətində prioritet təşkil edir. Bu baxımdan Mehriban xanım talassemiyalı xəstələrin müalicəsinə, xəstəliyin profilaktikası üzrə maarifləndirmə ilə bağlı dövlət səviyyəsində aparılan işlərə öz dəstəyini əsirgəmir.

Mehriban xanım, eləcə də fondun vitse-prezidenti Leyla Əliyeva mütəmadi olaraq Talassemiya Mərkəzini ziyarət edir, fəaliyyəti üçün ən üst səviyyədə dəstək və diqqət göstərirlər. Mehriban xanım daim yeni müalicə metodları ilə tanış olur, tövsiyələrini verir, fikirlərini bölüşür. Burada müalicə olunan uşaqlarla maraqlanır, səmimi söhbət edir, onlarla qayğıkeş davranır, xəstələrin müalicəsinin gedişi ilə maraqlanır.

Bax: səh. 4

# Milli Məclisin Gənclər və idman komitəsində Vətən müharibəsinin iştirakçısı olan gənclərlə görüş keçirilib




Fevralın 20-də Milli Məclisin Gənclər və idman komitəsində şəhid ailəsi, Vətən müharibəsinin iştirakçıları və arxa cəbhədə xidmət göstərən gənclərlə xüsusi karantin rejiminin tələblərinə uyğun olaraq növbəti görüş keçirilib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Milli Məclis sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev Vətən müharibəsinin Azərbaycan tarixinin ən şanlı səhifələrindən biri olduğunu vurğulayıb. Bildirib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qüdrətli Ordumuz 44 günlük Vətən müharibəsi zamanı şücaət göstərərək öz xilaskarlıq missiyasını şərəflə yerinə yetirib. 30 il müddətində Ermənistan işğalı altında olan əbədi və əzəli torpaqlarımız düşmən tapdağından azad edilib, tarixi ədalət bərpa olunub. Qələbəmiz sayəsində Ermənistanın illərlə yürütdüyü işğalçılıq və təcavüzkarlıq siyasətinə birdəfəlik son qoyulub.

Sədr müavini qeyd edib ki, Vətən müharibəsi zamanı bütün Azərbaycan xalqı dövlətimizin başçısının "Biz birlikdə güclüyük" şüarını rəhbər tutaraq Prezidentimizin ətrafında yumruq kimi birləşib, düşmənə həm döyüş meydanında, həm arxa cəbhədə layiqli zərbələr endirərək Zəfər əldə edib. Hərbi qulluqçularımızın, vətəndaşlarımızın öz üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməsi xalqımızın qüdrətini bir daha dünyaya nümayiş etdirib. Vətən müharibəsi zamanı gənclərimizin cəbhəyə dəstək aksiyalarında iştirakı, sosial şəbəkələrdə ölkə həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində uğurlu fəaliyyətləri xüsusi qeyd edilib.

Söhbət zamanı gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsi, milli-mənəvi dəyərlərə uyğun yetişdirilməsi, onların zərərli vərdişlərdən uzaqlaşdırılmasında idmanın əhəmiyyətli rolundan danışılıb.

Sonda görüşdə iştirak edən Vətən müharibəsinin iştirakçılarına və arxa cəbhədə xidmət göstərən vətəndaşlarımızın bir qisminə Milli Məclisin Gənclər və idman komitəsinin fəxri fərmanı təqdim olunub.

# Qarabağın işğaldan azad edilmiş torpaqlarına qayıtmaq istəyən rus ailələrindən Milli Məclisə ərizələr daxil olur

Azərbaycan Milli Məclisinin deputatı, Azərbaycan Rus İcmasının sədri Mixail Zabelin bu barədə Rusiyanın "Nasionalnaya slujba novostey" informasiya agentliyinin mətbuat mərkəzində keçirilən "Rusiya parlamentarilərinin Dağlıq Qarabağa ilk səfəri" mövzusunda Moskva-Bakı telekörpüsündə məlumat verib.



Deputatın sözlərinə görə, Qarabağın işğaldan azad edilmiş ərazilərində yerləşən evlərinə qayıtmağı arzu edən rus ailələri bu barədə ona müraciət edirlər. Məsələn, Krasnodar diyarından olan iki molokan ailəsi və Azərbaycanın Russkiye Borisı kəndindən olan daha iki ailə əvvəllər yaşadıqları Tərtər rayonuna qayıtmaq arzusunu bildirib. M.Zabelin təəssüf hissi ilə qeyd edib ki, həmin ailələr Tərtər rayonunda əvvəllər yaşadıqları kənddən erməni silahlı dəstələri tərəfindən qovulub, kənd özü isə işğal dövründə tamamilə dağıdılıb.

Deputat bildirib ki, azərbaycanlılar erməni silahlı qüvvələri tərəfindən işğal edilmiş ərazilərin Azərbaycana qaytarılacağı günü 30 il gözləyiblər. O xatırladıb ki, yüzlərlə rus gənc Azərbaycan Ordusunun tərkibində öz torpaqlarının azad edilməsi uğrunda vuruşub. Onların arasında həlak olanlar da var. Biz bu gəncləri ehtiramla yad edirik.

M.Zabelin deyib: "Bizim Prezident dəfələrlə vurğulayıb ki, biz bu münaqişənin sülh yolu ilə həll edilməsini istərdik. İndi Dağlıq Qarabağ zonasında çox mürəkkəb vəziyyət yaranıb, ona görə ki, insanlar doğma yurdlarına qayıtmaq istəyir, lakin orada ərazilərin minalardan təmizlənməsi prosesi getdiyi üçün vəziyyət mürəkkəbdir. Minalardan təmizlənmə prosesində insanlar həlak olur. Təəssüf ki, erməni tərəfi şəhərlərin və qəsəbələrin minalanmasının xəritələrini bizə vermir. Bu onu göstərir ki, onlar həmin əraziləri xaotik şəkildə minalayıblar".

Milli Məclisin deputatı onu da vurğulayıb ki, İkinci Qarabağ müharibəsindən sonra ermənilər işğal etdikləri yerləri tərk edərkən əksəriyyəti vaxtilə azərbaycanlılara məxsus olmuş evləri yandırıb və dağıdıblar. Azərbaycan parlamentinin üzvü deyib: "Ermənilər bu evləri dağıdır, meşələri qırır, qalan oduncağı Ermənistana daşıyıb aparırdılar. Azərbaycan Prezidenti dəfələrlə bəyan edib ki, biz Dağlıq Qarabağ ərazisini son vaxtlarda tərk etmiş bütün erməni qaçqınları qəbul etməyə hazırıq və onlar həmin ərazilərdə azərbaycanlı əhali ilə birlikdə dinc yanaşı yaşaya bilərlər. Lakin təəssüf ki, erməni tərəfi buna hazır olmadığını bildirir".

Deputat bəzi erməni siyasətçilərin qisasçılıq barədə aqressiv bəyanatları mövzusuna toxunaraq belə meyillərin aradan qaldırılmasında Rusiyanın mühüm rol oynaya biləcəyini qeyd edib.

**AZƏRTAC**

# Fransanın "France Culture" radiosunda Qarabağ müharibəsində Azərbaycanın qələbəsi barədə veriliş yayımlanıb

Fransanın "France Culture" radiosunda Qarabağ müharibəsində Azərbaycanın qələbəsi barədə veriliş yayımlanıb. Verilişdə İkinci Qarabağ müharibəsinin nəticələrindən bəhs olunub. Azərbaycanın yeddi rayonunu azad etdiyi qeyd edilib. Bildirilib ki, 90-cı illərdə doğma yurdlarından qovulmuş yüz minlərlə azərbaycanlı evlərinə qayıtmağı gözləyirlər.







Fransız jurnalist Zəngilan rayonundan olan məcburi köçkün ailəsi ilə görüşüb və onların 90-cı illərdə yaşadığı faciələrlə bağlı xatirələrini dinləyib. Qeyd edilib ki, erməni silahlı qüvvələri tərəfindən evlərindən didərgin salınmış bu ailə yaşadıqları dəhşətləri unuda bilmir. Bu ailə üçün 44 günlük müharibə nəticəsində ədalət bərpa edilib. "Sadəcə, bizə məxsus olanı qaytarmağı tələb edirdik. Ədalət uğrunda mübarizə apardıq və şükürlər olsun ki, haqqımız olanı əldə etdik" deyə Rəsul adlı şəxs bildirir.

Jurnalist ermənilərin "Qafqazın Xirosiması"na çevirdikləri Ağdamdan da yazıb. Ağdam sakini yaşadıqları dəhşətlərdən söz açaraq erməni silahlı qüvvələri tərəfindən qovulanda onun hamilə olduğunu və həmin vaxt ərini itirdiyini bildirib. "Ermənilər etiraf etməlidirlər ki, Azərbaycan uzun illər danışıqlar təklif etdi. Nə oldu? Onlar danışıqlara razı olmadılar. Nəticədə xalqımız ona məxsus olanı geri qaytardı. Müharibə etmək məcburiyyətində qaldıq" deyə Arzu adlı şəxs qeyd edib.

"Biz düşmənçilik istəmirik. Ermənistan ilə normal münasibətlərdə yaşamaq istəyirik. Düzdür, bu asan olmayacaq, bilirik, amma səmimi münasibətlər qurmaq və inamı artırmaq istəyirik. Biz BMT Təhlükəsizlik Şurasının qətnaməsinin yerinə yetirilməsini təmin etdik. Əməliyyatlar Azərbaycan ərazisində aparıldı, Ermənistan da daxil olmaqla başqa bir ölkənin ərazisinə heç bir iddiamız yoxdur, Ermənistanın sərhədlərinə hörmətlə yanaşırıq. Ermənistan da Azərbaycanın sərhədlərinə hörmət etməlidir. Bu əsasda normal, dinc münasibətlər qura bilərik. Ermənistan və erməni xalqı bu münasibətlərdən bəhrələnə bilər" deyə Prezidentin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev qeyd edib.

"Mədəniyyət Nazirliyi artıq bütün tarixi və mədəni irsin inventarlaşdırılması işlərinə başlayıb. Bu irsi bəşəriyyətin mirası kimi təsnif etmək üçün UNESCO ilə birlikdə çalışacağıq. Ola bilsin ki, bu, hər iki icmanın nümayəndələrinin barışına xidmət edəcəkdir. Məqsədimiz ərazilərimizi erməni separatçılarından təmizləmək idi, ancaq bu ərazilərdə azərbaycanlı icmanın nümayəndələri ilə birgə yaşayacaq erməni icmasının üzvləri ilə heç bir problemimiz yoxdur". Bu sözləri isə mədəniyyət naziri Anar Kərimov bildirib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva deyib ki, hərbi əməliyyatlar bitib. Biz ərazilərimizi azad etmişik. Bizim üçün status məsələsi tarixin yaddaşından silinib. O, həmçinin "Dağlıq Qarabağ respublikası" deyilən bir anlayışın olmadığını, bunun Azərbaycan ərazilərində yaradılmış qanunsuz bir qurum olduğunu qeyd edib.

**AZƏRTAC**




# Milli Məclisin Estoniya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupu estoniyalı həmkarlarına təşəkkür məktubu ünvanlayıb

Milli Məclisin Azərbaycan-Estoniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Estoniya-Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Sven Sesterə və qrupun üzvlərinə təşəkkür məktubu göndərib.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə şöbəsindən AZƏRTAC-a bildirilib ki, məktubda Estoniya-Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun Xocalı soyqırımının 29-cu ildönümü ilə bağlı Estoniya parlamentinin (Riyqikoq) rəsmi saytında yerləşdirilmiş bəyanatı yüksək qiymətləndirilib, Azərbaycan xalqının kədərini bölüşən bu dəstəyə görə dostluq qrupu adından minnətdarlıq bildirilib.

Qeyd edilib ki, Azərbaycan Estoniya ilə əməkdaşlığa böyük əhəmiyyət verir. Məktubda iki ölkə arasında parlamentlərarası əməkdaşlığın bundan sonra da inkişaf edəcəyinə və parlament diplomatiyasının xalqlarımızın rifahının daha da yüksəlməsinə və əlaqələrinin möhkəmlənməsinə xidmət edəcəyinə əminlik ifadə olunub.

Xatırladaq ki, Estoniya parlamentinin Azərbaycanla əlaqələr üzrə işçi qrupu Xocalı soyqırımının 29-cu ildönümü ilə əlaqədar bəyanat yayıb. Bəyanatda Ermənistanın 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycanın mülki əhalisinə qarşı törətdiyi insanlığa qarşı cinayəti qınanılır, bu kütləvi qətli törədənlərin məsuliyyətə cəlb edilməsinin vacibliyi vurğulanır.

# Qazi Murad Həsənov da yüksək texnologiyalı protezlə təmin edilir

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Vətən müharibəsinin qazisi Həsənov Murad Teyyub oğlunun da yüksək texnologiyalı protezlə təmin edilməsi işlərinə başlanılıb.



Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildirilib ki, Murad Həsənov nazirliyin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzinə dəvət edilib. Burada onun müayinəsi aparılıb, müvafiq ölçülər götürülərək təlimatlar verilib. Protezləşməyə hazırlıq mərhələsi bitdikdən sonra o, yüksək texnologiyalı protezlə təmin olunacaq.

Qaziyə ölkəmizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlillik və bununla bağlı olaraq aylıq sosial ödənişlərin təyinatı da həyata keçirilib. O, həmçinin bu kateqoriyadan olan əlilliyi olan şəxslər üçün nəzərdə tutulmuş güzəşt və imtiyazlardan da yararlana biləcək.

# Gəncədə gənclər üçün yeni imkanlar yaradılır

Gənclərin İnkişaf və Karyera Mərkəzinin (GİKM) növbəti nümayəndəliyi Gəncə şəhərindəki Heydər Əliyev Mərkəzində fəaliyyətə başlayıb.

GİKM-dən AZƏRTAC-a bildiriblər ki, açılış mərasimində şəhər icra hakimiyyətinin rəhbərliyi, Gənclər Fondunun icraçı direktoru, deputatlar, Gənclərin İnkişaf və Karyera Mərkəzinin nümayəndələri və gəncəli gənclər iştirak ediblər. Həmçinin 300-ə yaxın gənc isə açılış tədbirini onlayn izləyib.

Gənclərlə söhbət və mərkəzlə tanışlıqdan sonra tədbir iştirakçılarına GİKM haqqında təqdimat keçirilib. Açılış tədbirində çıxış edənlər Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu dövlət gənclər siyasətindən, ölkəmizdə gənclər üçün yaradılan şəraitdən danışıb, gəncləri bu imkanlardan yararlanmağa dəvət ediblər.

Bildirilib ki, Prezident İlham Əliyevin sərəncamına əsasən yaradılan GİKM-lərin fəaliyyəti gənclərin hərtərəfli inkişafının təmin olunması, habelə Ümummilli Lider Heydər Əliyevin dövlətçilik fəlsəfəsini, azərbaycançılıq məfkurəsini gənc nəslin daha dərindən mənimsəməsi işinə töhfə verməkdən ibarətdir. Yeni yaradılan nümayəndəliklərdə gənclərin əlavə bilik və bacarıqlara yiyələnməsi üçün müxtəlif peşə təlimləri və ustad dərsləri, təhsil və təcrübə proqramları, görüşlər, seminarlar, intellektual oyunlar və digər tədbirlər təşkil olunacaq. Nümayəndəliklər vasitəsilə regionda yaşayan gənclər dövlət tərəfindən onlar üçün yaradılan imkanlar barədə məlumat və məsləhət almaq, həmçinin müxtəlif proqramlara müraciət və onlarda iştirak etmək imkanı qazanacaqlar.

Daha sonra Gənclər Fondunun icraçı direktoru, gənc deputatlar tədbir iştirakçıları ilə ünsiyyətdə olub, onları maraqlandıran suallara cavab veriblər. Tədbir istedadlı yerli gənclər tərəfindən musiqili-əyləncəli proqram və təlim xarakterli oyunlarla davam etdirilib.

Gəncə gəncləri, həmçinin "Gənc könüllü" proqramına qoşulmağa dəvət olunublar.

Artıq 33 şəhər və rayonda Gənclərin İnkişaf və Karyera Mərkəzinin nümayəndəlikləri fəaliyyətə başlayıb. Bu il ölkənin bütün şəhər və rayonlarında mövcud Heydər Əliyev mərkəzlərində Gənclərin İnkişaf və Karyera Mərkəzinin nümayəndəlikləri yaradılacaq.

# Artilleriya, reaktiv və tank əleyhinə batareyaların zabitlərinin iştirakı ilə ixtisas hazırlığı məşğələləri keçirilir











Əlahiddə Ümumqoşun Orduda artilleriya, reaktiv və tank əleyhinə batareyaların zabitlərinin iştirakı ilə ixtisas hazırlığı məşğələləri keçirilir.

Ordunun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Qarnizonunun Simulyasiya Mərkəzində keçirilən məşğələlərdə əsas diqqət artilleriya, reaktiv və tank əleyhinə batareyaların döyüş qabiliyyətinin artırılmasına, zabitlərin nəzəri və praktiki vərdişlərinin təkmilləşdirilməsinə yönəldilib.

Virtual təlim meydançasında döyüş sursatı və yanacaq sərf etmədən müxtəlif şəraitdə atış və atışın idarəolunması həyata keçirilir. Xüsusi proqram təminatına malik kompüterlər və məşq qurğularının tətbiqi ilə komandirlərin real döyüş şəraitində bölmələri və silahları idarəetmə bacarıq və vərdişləri yoxlanılır. Məşğələlərin sonunda atəş göstəricilərinin dəqiqliyi müqayisə edilir, şəxsi heyətin bilik səviyyəsini müəyyən edən qiymətləndirmə aparılır.

Bundan əvvəl keçirilmiş məşğələ və təlimlərin uğurlu nəticəsi Əlahiddə Ümumqoşun Ordunun Vətən müharibəsində iştirak etmiş tankəleyhinə bölmələrinin heyətlərinin düşmən üzərində qazandıqları inamlı qələbədə özünü aydın şəkildə göstərib.

# Müdafiə Nazirliyi Qubadlı rayonunun Həmzəli kəndinin görüntülərini paylaşıb

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Qubadlı rayonunun Həmzəli kəndinin görüntülərini yayıb. AZƏRTAC Müdafiə Nazirliyinin Mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Həkəri çayının sahilində yerləşən Həmzəli kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Vətən müharibəsində Ermənistan silahlı qüvvələrinə sarsıdıcı zərbə vuran Azərbaycan Ordusu noyabrın 9-da kəndi işğalçılardan azad edib.



# Ali dəyərlərin daşıyıcısı

## Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva xalqımızın qürur duyduğu şəxsiyyətdir

*Əvvəli 1-ci səh.*

ISESCO-nun bu qərarı Azərbaycan üçün xüsusilə müstəsna əhəmiyyət daşıyır. Çünki Azərbaycan islam aləminin bir hissəsi kimi həmin mütərəqqi məqsədləri hələ ötən əsrin əvvəllərindən həyata keçirərək bütün müsəlman dövlətləri üçün xoş bir nümunə yaradan ölkələrdəndir. Azərbaycanda qadın fəallığının çox zəngin tarixi ənənələri var. Ölkəmizin Birinci vitse-prezidenti, UNESKO və ISESCO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın ötən əsrin 90-cı illərinin ortalarından başlayan ictimai-siyasi fəaliyyəti isə bu ənənələrdə yeni tarixi səhifə açdı. Mehriban xanım öz parlaq şəxsiyyəti ilə Azərbaycan qadınını dünyaya yenidən təqdim etdi. Onun şərəfli adını layiq olduğu ən yüksək zirvələrə ucaltdı. Tarixən böyük fədakarlıqlar göstərən, vəfası, əhdinə sadiqliyi, qayğıkeşliyi, zəhmətsevərliyi ilə qürur yerimiz olan, milli-mənəvi dəyərlərə sahib çıxan, evin, ocağın, yurdun bütövlüyünü qoruyan, vətən üçün layiqli övladlar yetişdirən Azərbaycan qadınını dünya bir daha Mehriban xanımın timsalında görüb tanıdı. Onun şəxsiyyətinə, zəkasına, amallarına, mənəvi keyfiyyətlərinə heyran qaldı.



Təkcə bir faktı xatırladaq ki, Mehriban xanım Əliyeva eyni zamanda həm Qərb dünyasına aid UNESKO-nun, həm də islam dünyasının dəyərlərini təmsil edən ISESCO-nun xoşməramlı səfiri missiyasını daşıyan yeganə şəxsiyyətdir. Müasir dünyamızda iki dünyagörüşünü, sivilizasiyanı şəxsiyyətində bir araya gətirən və fəaliyyəti ilə hər iki qurumun ali məqsədlərinə xidmət edərək öz missiyasının icrasında böyük uğurlar qazanan ikinci bir ictimai-siyasi xadim yoxdur. Qərb və Şərq, iki mədəniyyət, onların fərqli dəyərləri, baxışları, bəşəriyyətə faydalı olmaq niyyətləri Mehriban xanım Əliyevanın həyata keçirdiyi real işlərdə bir araya gəlir.

Bu günlərdə Mehriban Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse- prezidenti kimi fəaliyyətinin dördüncü ildönümü tamam olur. Prezident İlham Əliyev 2017-ci ilin 21 fevralında Mehriban xanımı belə yüksək, məsuliyyətli vəzifəyə təyin edərkən əslində xalqımızın sosial sifarişini yerinə yetirmişdi. Ölkənin birinci xanımı bu illər ərzində öz fəaliyyəti ilə milli dövlətçilik tariximizdə daha bir ilkin əsasını qoymuş oldu, müstəsna xidmətləri ilə bu tarixin yeni ənənələrini formalaşdırdı. Azərbaycanda birinci xanım institutunun fəaliyyəti, Heydər Əliyev Fondu kimi ölkə miqyasından kənarda da böyük nüfuza malik olan qurumun uğurları, milli mədəniyyətimizin dünyada təbliği ilə bağlı effektiv həllər, mədəniyyət diplomatiyasının nailiyyətləri bilavasitə bu şəxsiyyətin adı ilə bağlıdır. Azərbaycanda Birinci vitse-prezidentlik institutunun ən gözəl fəaliyyət örnəyini də məhz Mehriban xanım Əliyeva yaratdı.

### İnam və güvən mənbəyi

Nəcib əməllərinə, Azərbaycana xidmətlərinə görə vətəndaşlarımızın, ümumən bütün dünya azərbaycanlılarının böyük sevgi və ehtiramını qazanan ölkəmizin Birinci vitse-prezidenti çətin sınaq günlərində cəmiyyətimizdə milli həmrəyliyin əldə olunmasında xüsusi xidmətlər göstərdi. Müzəffər Ordumuzun hər şanlı qələbəsindən sonra Mehriban xanımın müxtəlif sosial şəbəkələr üzərindən xalqımıza ünvanladığı təbrik sözləri, sevinc, qürur və ümid dolu kəlmələri insanlar arasında qələbə əzmini daha da gücləndirdi. Onları vahid amala, milli hədəflərə doğru səfərbər etdi.

Azərbaycanın informasiya müharibəsindəki qələbələrində də Mehriban xanım Əliyevanın rolu çox böyükdür. Məlumdur ki, müharibə təkcə səngərlərdə, döyüş meydanlarında aparılmır. Müasir dünyamızda öz həqiqətlərini beynəlxalq aləmə düzgün çatdıra bilməyin, düşmənin informasiya təxribatlarının qarşısını almağın və bu sahədə də işğalçılara qalib gələ bilməyin ciddi önəmi var.

Ali Baş Komandan İlham Əliyev mahir sərkərdə və diplomat kimi ordumuzu düşmən üzərinə səfərbər edərək, eyni zamanda müxtəlif müsahibələri vasitəsilə Azərbaycanın mövqeyini dünyanın siyasi dairələrinə, güc mərkəzlərinə, beynəlxalq ictimaiyyətə çatdırdığı kimi Mehriban xanım Əliyeva da öz çağırışları, bəyanatları, tövsiyələri ilə hər bir cəmiyyət üzvünü, hər bir vətəndaşı düşmənlə informasiya savaşına səfərbər etməyə, haqq davamızda insanlarımızın öz imkanlarını birləşdirməsinə çalışırdı.

Hələ hərbi əməliyyatların ilk günlərindən "hamımız əsgərik" deyən Mehriban xanım "Instagram" səhifəsində paylaşım edərək yazmışdı: "Əziz həmvətənlər! Rəşadətli Ordumuz əzəli Azərbaycan torpaqlarını erməni işğalından azad etmək üçün uğurlu əks-hücum əməliyyatı apardığı bir vaxtda düşmən öz məkrli niyyətlərini göstərməkdən əl çəkmir. Qızğın döyüşlərin davam etdiyi bütün həftə ərzində Ermənistan vicdansızcasına feyk xəbərlər tirajlayır. Bu şiddətli hücumda beynəlxalq birliyi fəal surətdə yanlış məlumatlandıran erməni diasporu xüsusi rol oynayır. Bu gün biz hamımız həqiqətən tarixi hadisələrin şahidləriyik! Lakin biz baş verənləri, sadəcə, kənardan müşahidə edə bilmərik. Bizim hər birimiz Böyük Qələbə anını yaxınlaşdırmaq üçün əlimizdən gələni etməyə borcluyuq. Deməli, biz hamımız erməni yalanını ifşa etmək üçün maksimum səy göstərməyə borclu olan əsgərlərik".

Mehriban xanım dövlətimizi Azərbaycan insanına doğmalaşdıran bir şəxsiyyətdir. O, vətəndaşların sevgi ünvanı, inam və güvən mənbəyidir. Buna böyük Zəfərimizlə nəticələnən 44 günlük Vətən savaşında hər birimiz şahid olduq. 30 illik işğaldan sonra torpaqlarımızın addım-addım düşməndən təmizləndiyi o qürur dolu günlərdə Birinci vitse-prezident öz qəhrəman övladlarının igidliyi ilə öyünən, nisgilli yurdlarımızın azadlığına sevinib fərəhlənən, amma eyni zamanda həm də döyüş meydanındakı övladlarımızın taleyinə görə həssas ana qəlbi ilə həyəcan keçirən, onların bu haqq savaşını sağ-salamat başa çatdırıb Zəfərlə geri dönməsini arzulayan, şəhid məzarları önündə, yaralanmış oğullarımızın mətinliyi, iradəsi qarşısında göz yaşlarını boğa bilməyən Azərbaycan analarının ümumi obrazı idi.

Azərbaycan Respublikasının Prezidenti özünün idarə etdiyi avtomobildə Mehriban xanım Əliyeva ilə birgə artıq azad olan yurdlarımıza səfər edir, yolboyu bu səfərlərdən sosial şəbəkələrdə çox maraqlı videogörüntülər paylaşır. Onu sevgi ilə izləyənləri "Sizin Mehriban" kəlmələri ilə salamlayır və onun cəmiyyətimizə müraciətləri bu iki kəlmə ilə tamamlanır. Mehriban xanımın nəcib əməlləri kimi, bu təqdimat tərzi də insanlarımız üçün artıq doğmalaşıb.

### Əməllər və həqiqətlər

Mehriban xanım dörd ildir ki, Azərbaycanın Birinci vitse-prezidenti kimi məsuliyyətli bir vəzifəni yerinə yetirir. Ölkəmiz möhkəm daxili sabitlik, həmrəylik şəraitində özünün inamlı gələcəyini qurur. Bu, tərəqqinin ardıcıllığını təmin edən Prezident İlham Əliyevin məharətlə həyata keçirdiyi xəttdir. Ölkəmiz artıq 2030-cu ilə qədər öz milli inkişaf prioritetlərini elan edib. Onların sayı beşdir: dayanıqlı şəkildə artan rəqabətqabiliyyətli iqtisadiyyat; dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət; rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı; işğaldan azad olunmuş ərazilərə böyük qayıdış; təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi.

Bütün bu strateji hədəflərə çatmaq müasir üsullarla çalışan çevik, effektiv idarəetmə sistemi tələb edir. Ötən dörd il ərzində Mehriban xanım Birinci vitse-prezidentlik institutunu dövlətimiz və xalqımız üçün faydalı bir təsisat kimi tam formalaşdırıb.

Mehriban xanımın təşəbbüsü ilə inşa olunmuş səhiyyə müəssisələri minlərlə insana həyat bəxş edib. Onun bütün ölkə boyu tikdirdiyi məktəblər düşüncələrdə maarif nurunu daha da gücləndirib. Mehriban xanım Əliyeva kimsəsizlərin himayədarı olub, ata-anasız körpələrə analıq edib, əzizlərindən naxələflik görmüş valideynlər onun timsalında ən qayğıkeş övladın varlığına seviniblər. O, yurdunun insanlarına ən doğma adamları kimi sahib çıxıb.

Birinci vitse-prezident hər zaman hər kəsə vətəndaş olmağın meyarlarını anladır. İnsanlara vətəndaş məsuliyyəti aşılayır. Ona olan ümumxalq sevgisi bu vətəndaşlıq dərslərinin, dövlətçilik tərbiyəsinin təsir gücünü təmin edir. İnsanlarımız öz davranışlarında onun tövsiyələrini nəzərə alırlar. Çünki ona inanırlar. Bilirlər ki, əgər bunu Mehriban xanım deyirsə, deməli, insanların faydasınadır. Koronavirus pandemiyasına qarşı karantin tədbirlərinin həyata keçirildiyi vaxt bunun Birinci xanımın cəmiyyətimizə ardıcıl müraciətlərində, vətəndaşların həmin müraciətləri sevgi və anlayışla, əsl dost tövsiyələri kimi qarşılamalarında da şahidi olduq.

Pandemiyanın ən şiddətli, ağır zamanında Mehriban xanım insanlara müraciətlərində o qədər sadə və səmimi idi ki, sözlərini ayrı-ayrı fərdlərə ünvanlayarkən uzun müddət evdən çıxmamağın, doğmalardan ayrı qalmağın çətinliklərini də unutmurdu. Amma bu məhdudiyyəti də məhz əzizlərimizin, özümüzün taleyimizi düşünərək qəbul etməli olduğumuzu böyük səmimiyyət hissi ilə anladırdı. Birinci xanımın müraciətlərində insanın qəlbini ovunduran bir məqam da vardı. Bu, gələcəyə böyük bir ümidlə, xalqımıza, ölkəmizə dua və sevgilərlə tamamlanan hər bir müraciətin yenə də "Sizin MEHRİBAN" imzası ilə bitməsidir.

Bəli, o bütün Azərbaycanındır. İllərdir ki, qəlbinin sevgisi, şəfqəti, həsrəti ilə xidmətində dayandığı xalqın, məmləkətin, ümumilikdə isə sülh səfiri kimi ən ali insani dəyərlərin dörd bir qütbünə yayılması üçün zəhmət çəkdiyi, əmək sərf etdiyi, nəcib əməlləri ilə işıq saldığı bütün dünyanındır!

### "Qadınlar və qızlar elmdə"

Mehriban xanım Əliyeva Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin acı nəticələrini "Qadınlar ili"nin ilk tədbirlərindən biri kimi fevralın 11-də ISESCO-nun təşkilatçılığı ilə "Qadınlar və qızlar elmdə" Beynəlxalq Günü münasibətilə keçirilmiş videokonfransdakı çıxışında da diqqətə çatdırdı. Bu tədbirdə fəxri qonaq qismində çıxış edən Mehriban xanım 44 günlük Vətən müharibəsi zamanı Azərbaycana göstərdiyi dəyərli dəstəyinə görə ISESCO-ya, onun Baş direktoru doktor Salim əl-Malikə dərin minnətdarlığını ifadə etdi.

Bir ay bundan əvvəl Azərbaycan Prezidentinin dəvəti ilə Baş direktorun rəhbərliyi altında ISESCO-nun nümayəndə heyətinin Azərbaycanda səfərdə olduğunu xatırlatdı. Onların işğaldan azad olunmuş bəzi ərazilərimizə səfər edərək məscidlərimizin təhqir olunması və tarixi abidələrimizin məhv edilməsi də daxil olmaqla, ümumi dağıntı və vandalizmin miqyasına şahidi olduqlarını yada saldı.

Mehriban xanım onu da nəzərə çatdırdı ki, hazırda dövlətimizin qarşısında işğaldan azad olunmuş ərazilərin canlandırılması və azərbaycanlı məcburi köçkünlərin doğma yurdlarına təhlükəsiz qayıdışının təmin edilməsi kimi nəhəng vəzifə dayanır: "Biz bunun öhdəsindən gələcəyik. Biz dağıdılmış şəhərləri və kəndləri bərpa edəcəyik. Biz orada məktəblər tikəcəyik. Biz yalnız müsəlmanlara deyil, bütün dinlərə məxsus mədəni irsi bərpa edəcəyik". Çıxışda işğal zamanı zərər görmüş mədəni irs abidələrinin vəziyyətinin qiymətləndirilməsində ISESCO-nun Azərbaycan hökuməti ilə birgə çalışmağa hazır olduğu yüksək qiymətləndirildi. Eyni zamanda ISESCO-nun Azərbaycanda regional nümayəndəlik təsis etməsi imkanının nəzərdən keçirilməsinə görə dövlətimiz adından xüsusi minnətdarlıq bildirildi. Mehriban xanımın fikrincə, həmin nümayəndəlik digər sahələrlə yanaşı, qadınların və qızların elmdə rolunun artırılmasına konkret diqqət yetirməklə elm sahəsində əməkdaşlığı gücləndirə bilər.

### "Mən yalnız onunla fəxr etmirəm ki…"

Mehriban xanım Əliyevanın fəxri qonaq qismində bu tədbirdəki çıxışı həm də Azərbaycan qadınının ucalığının daha bir təcəssümü idi.

Onu da xatırladaq ki, 11 fevral tarixini "Qadınlar və qızlar elmdə" Beynəlxalq Günü elan edən qətnamə BMT Baş Assambleyası tərəfindən qəbul olunub. Mehriban xanım öz çıxışında qadınlar üçün gələcək inkişafın başlıca yollarını göstərdi. Qlobal çağırışlara cavab vermək niyyəti ilə elm, texnologiya və innovasiyaların həyatımızda artıq bir zərurətə çevrildiyini qeyd edərək bildirdi ki, elm və gender bərabərliyi "Davamlı İnkişaf üzrə 2030 Gündəliyi" daxil olmaqla, beynəlxalq inkişaf məqsədlərinə nail olunması üçün mühüm əhəmiyyətə malikdir.

Onun fikrincə, ISESCO-nun 2021-ci ili "Qadınlar ili" elan etməsi ilə bağlı təşəbbüsü yalnız təşkilat tərəfindən qadınların cəmiyyətimizdəki roluna verilən əhəmiyyətin təzahürü deyil. Bu, həmçinin onların daha firavan və təhlükəsiz dünya naminə misilsiz töhfəsinin təsdiqidir. Mehriban xanım onu da vurğuladı ki, biz bu gün COVID-19 ilə mübarizənin ön cəbhəsində dayanan qadın alim, həkim və səhiyyə işçilərinə ehtiramımızı ifadə etməliyik. Mehriban xanım dedi: "Mən yalnız onunla fəxr etmirəm ki, dünyada ilk dəfə, - bir əsrdən öncə, - sənaye üsulu ilə neft quyusunun qazıldığı, Şərqdə ilk operanın açıldığı və ən vacib olan, müsəlman dünyasında ilk demokratik respublikanın yaranmasına görə tanınan ölkədənəm. Azərbaycan həm də 1918-ci ildə qadınlara seçmək və seçilmək hüququnu verən ilk ölkələrdən biri olaraq tarixə düşmüşdür. Qızların təhsilinə gəldikdə isə, müsəlman Şərqində ilk dünyəvi qızlar məktəbi azərbaycanlı xeyriyyəçi Zeynalabdin Tağıyev tərəfindən 1901-ci ildə mənim doğulduğum Bakı şəhərində yaradılmışdır".

Azərbaycanın Birinci vitse-prezidenti ölkəmizdə qadınların elmi fəallığı ilə bağlı maraqlı göstəriciləri iştirakçıların diqqətinə çatdırdı. Hazırda Azərbaycanda savadlılıq səviyyəsinin 100 faizə yaxın olduğunu, qadınların elmə böyük töhfələr verdiyini xatırlatdı: "Bununla yanaşı, sürətlə dəyişən dünyamızda qızların təhsili və onların elm sahəsində iştirakı yeni çağırışlara müvafiq olmalıdır. Dünyada elm, texnologiya, mühəndislik və riyaziyyat fənləri üzrə təhsil alanların 35 faizi qızlardır. Bizim ölkədə bu rəqəm 40 faizdir, yəni orta dünya göstəricisindən artıqdır.

Qeyd etdiyim kimi, bir çox azərbaycanlı qadın elmə böyük töhfələr verib və onlar elm sahəsi ilə məşğul olan qızlar və gənc xanımlar üçün əsl ilham mənbəyidir. Lakin bu gün ən vacib məsələ qızlar və gənc xanımların iştirak səviyyəsinin yaxşılaşdırılması üçün münbit şəraitin yaradılmasının davam etdirilməsi və elm sahəsində gender boşluğunun doldurulmasıdır".

Bu gün Mehriban Əliyeva təkcə Azərbaycanda deyil, ümumiyyətlə, bütün dünyada layiq olduğu şöhrətə, ucalığa yüksəlib. XXI əsrin məşhur, görkəmli qadınları sırasında onun adı, pozulmaz dəstxəti var. Ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın şəxsində Azərbaycan qadınının qazandığı nailiyyətlər hazırda qadın fəallığı ənənələrinə yeni nəfəs verir, indiki və gələcək nəsillər üçün davamlı inkişafa yol açır.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***



# Azərbaycan qadınlarının layiqli təmsilçisi

Bu gün cəmiyyətimizdə Azərbaycan qadınlarının mövqeyi yüksəkdir. Ölkəmizin ictimai-siyasi həyatında, dövlət idarəçiliyində və bir çox sahədə qadınlarımız fəal təmsil olunurlar. Bu baxımdan Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESKO və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın fəaliyyəti xüsusi qeyd olunmalıdır.

Deyə bilərik ki, yalnız bu gün deyil, bütün tarixi dövrlərdə Azərbaycan qadınları cəmiyyətin inkişafında fəallıq göstəriblər. Dünya elm və mədəniyyəti tarixində, inkişafında özünəməxsus yeri, xidmətləri olan xalqımızın parlaq, qürurverici nailiyyətlər qazanmasında qadınlarımızın böyük rolu olub. Zaman-zaman Azərbaycan qadınının cəmiyyətə xidmətləri yalnız ləyaqətli, mərd, istedadlı övladlar yetişdirməklə yekunlaşmayıb. Tarixdən məlumdur ki, Azərbaycan qadını yeri gələndə silaha sarılıb düşmənə ağır zərbələr endirib, dövlətin idarəçiliyində iştirak edib, elm xadimi olub, müxtəlif sənət sahələrində uğur qazanıb.

Tarixin müxtəlif dönəmlərində örnək kimi qəbul etdiyimiz qadınlar olub və indi də var. Hazırda müstəqil Azərbaycan dövləti iqtisadi, mədəni tərəqqisi ilə dünyanın inkişaf etmiş ölkələri sırasındadır. Əldə olunan nailiyyətlərdə qadınlarımızın rolu təriflayiqdir.

Mehriban Əliyeva da müasir dövrdə ictimai-siyasi fəaliyyəti, vətəndaş-ziyalı mövqeyi ilə Azərbaycan qadınlarına nümunədir. O, dövlətimizin tərəqqisi naminə müasir Azərbaycan qadın hərəkatının lideri kimi geniş fəaliyyət göstərir. Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətində ənənəviliklə müasirlik, tarixi köklərə bağlılıqla dünyəvilik xüsusilə nəzərə çarpır.

Bu gün hər bir millətin, dövlətin öz varlığını qoruyub saxlamaq və digərlərinə tanıtdırmaq üçün müxtəlif mədəni-kütləvi, ictimai, sosial layihələr həyata keçirmək qloballaşma şəraitinin tələblərindən biridir. Təbii ki, Azərbaycan da öz tarixini, mədəniyyətini, adət və ənənələrini dünya ictimaiyyətinə çatdırır. Bu proses böyük əzmkarlıq, səbir və iradə tələb edir. Mehriban xanım Əliyeva Azərbaycanın milli-mədəni irsinin qorunub saxlanılması, inkişaf etdirilməsi və dünyada təbliğ olunması, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmləndirilməsi üçün davamlı iş aparır, səy göstərir. ISESCO-nun və UNESKO-nun xoşməramlı səfiri kimi, müstəqil Azərbaycanın nailiyyətlərini, ölkəmizdə hökm sürən tolerantlığı təbliğ edən, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun bərqərar olması üçün çalışan Mehriban Əliyevanın səsi yüksək beynəlxalq kürsülərdən gəlir.

Fevralın 11-də ISESCO tərəfindən elan olunan "Qadınlar ili" çərçivəsində "Qadınlar və qızlar elmdə" Beynəlxalq Gün münasibətilə videokonfrans formatında keçirilən tədbirdəki çıxışında da Azərbaycanın Birinci vitse-prezidenti, UNESKO və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva olduqca aktual məsələlərdən söz açdı. O, qlobal çağırışlara cavab vermək üçün elm, texnologiya və innovasiyanın zərurətə çevrildiyini vurğuladı. Mehriban Əliyeva çıxışında diqqətə çatdırdı ki, elm və gender bərabərliyi "Davamlı İnkişaf üzrə 2030 Gündəliyi" daxil olmaqla, beynəlxalq inkişaf məqsədlərinə nail olunması üçün mühüm əhəmiyyətə malikdir. "ICESCO-nun 2021-ci ilin "Qadınlar ili" elan etməsi ilə bağlı təşəbbüsünə görə təbrik etmək istəyirəm. Bu, yalnız təşkilat tərəfindən qadınların cəmiyyətimizdəki roluna verilən əhəmiyyətin təzahürü deyil. Bu, həmçinin onların daha firavan və təhlükəsiz dünya naminə misilsiz töhfəsinin təsdiqidir", - Birinci vitse-prezident Mehriban Əliyeva belə deyib.

Ötən il martın 11-də Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən pandemiya elan edilən COVID-19 bəlası dünyamızın qlobal bəlasına çevrildiyi günlərdə də qadınları mübarizənin ön sıralarında görürük. Birinci vitse-prezident Mehriban Əliyeva bildirib: "COVID-19 ilə mübarizənin ön cəbhəsində dayanan qadın alim, həkim və səhiyyə işçilərinə ehtiramımızı ifadə etməliyik. Biz test üsullarının təkmilləşdirilməsindən tutmuş vaksinlərin hazırlanmasına qədər COVID-19 ilə mübarizənin müxtəlif mərhələlərində həlledici rol oynayan tədqiqatçı qadınlarımızla fərəhlənə bilərik".

Azərbaycan tarixin müxtəlif dönəmlərində çox böyük sınaqlarla üzləşib. Torpağının altı da, üstü də zəngin sərvət mənbəyi olan bu məmləkət işğalçı dövlətlərin diqqət mərkəzində olub. Yağı düşmənə qarşı amansız olan xalqımız zaman-zaman öz hüququ, vətəninin müstəqilliyi uğrunda mübarizə aparıb. Bəzən düşməninin amansızlığı nəticəsində Azərbaycan torpaqları işğala məruz qalıb. İşğalçı dövlətlər maddi sərvətlərini daşıyıb aparıblar. Ziyalılarımız əsrlər boyu səhiyyə, təhsil ocaqlarının açılması, soydaşlarımızın sağlam yaşamaları, təhsil alması, savadlanması uğrunda mübarizələrini davam etdiriblər. Tariximizin ən çətin dönəmlərində belə Azərbaycan xalqının qabaqcıl nümayəndələri öz parlaq istedadları ilə dünyanı heyran qoyublar. Bir faktı qeyd edək. XX əsrin əvvəllərində çar Rusiyası müstəmləkəsi altında olan Azərbaycanın inkişafını əngəlləmək üçün hər vasitəyə əl atdığı, məktəblərin məhdud sayda olduğu bir zamanda Bakıda qızlar məktəbi açılıb. Bu, müsəlman Şərqində ilk dünyəvi məktəb idi.

Tarixin ayrı-ayrı dönəmlərində xalqımızın öz zəkası, bacarığı, istedadı ilə imzasını atdığı birinciliklər hər birimizin qürurudur. Birinci vitse-prezident Mehriban Əliyeva çıxışında bu hissləri dilə gətirib: "Mən yalnız onunla fəxr etmirəm ki, dünyada ilk dəfə, - bir əsrdən öncə, - sənaye üsulu ilə neft quyusunun qazıldığı, Şərqdə ilk operanın açıldığı və ən vacib olan, müsəlman dünyasında ilk demokratik respublikanın yaranmasına görə tanınan ölkədənəm. Azərbaycan həm də 1918-ci ildə qadınlara seçmək və seçilmək hüququnu verən ilk ölkələrdən biri olaraq tarixə düşmüşdür. Qızların təhsilinə gəldikdə isə, müsəlman Şərqində ilk dünyəvi qızlar məktəbi azərbaycanlı xeyriyyəçi Zeynalabdin Tağıyev tərəfindən 1901-ci ildə mənim doğulduğum Bakı şəhərində yaradılmışdır".

Qloballaşma, sürətli inkişaf dünyada təhsilin, savadın əhəmiyyətini daha aydın göstərir. Belə bir zamanda qızların təhsili, onların elm sahəsində iştirakı daha da aktuallaşır. Azərbaycanın Birinci vitse-prezidenti bu gün ölkədə savadlılıq səviyyəsinin 100 faizə yaxın olduğunu qeyd edib. Dünyada elm, texnologiya, mühəndislik və riyaziyyat fənləri üzrə təhsil alanların 35 faizi qızlardır. Mehriban Əliyeva bizim ölkədə bu rəqəmin 40 faiz, yəni orta dünya göstəricisindən yüksək olduğunu açıqlayıb. Bildirib ki, qadınların ölkəmizdə ali təhsil ocaqlarında magistrlərin 54, fəlsəfə doktorlarının 51, elmlər doktoru dərəcəsinə malik olanların 46 və elmi tədqiqatçıların 56 faizini təşkil etməsi bu nailiyyətlərin parlaq nümunələridir. Azərbaycan Milli Elmlər Akademiyasının ümumi kollektivinin 59 faizinin qadınlardan ibarət olması da diqqətçəkən faktlardan biridir.

Biz tarixi nailiyyətlərimizlə yalnız fəxr etmirik. Həm də o uğurları bizə bəxş edənlərdən nümunə götürür, onların yolunu davam etdiririk. Birinci vitse-prezidentin diqqətə çatdırdığı kimi, bir çox azərbaycanlı qadın elmə böyük töhfələr verib və onlar elm sahəsi ilə məşğul olan qızlar və gənc xanımlar üçün əsl ilham mənbəyidir. Lakin bu gün ən vacib məsələnin qızlar və gənc xanımların iştirak səviyyəsinin yaxşılaşdırılması üçün münbit şəraitin yaradılmasının davam etdirilməsi və elm sahəsində gender boşluğunun doldurulması olduğunu vurğulayan Mehriban Əliyeva bildirib: "Bir nümunə olaraq bu yaxınlarda BMT-nin İnkişaf Proqramı ilə bərabər başladığımız "Qadınlar elm, texnologiya, mühəndislik və riyaziyyatda" adlı mentorluq proqramını qeyd edə bilərəm ki, burada məqsəd tələbə və gənc xanımların həmin sahədə uğur qazanmış nümunəvi şəxslərlə təmas yaratması və onlara təhsil və karyera sahəsində çağırışların öhdəsindən gəlmək üçün məsləhətlərin verilməsidir".

Elm, texnologiya və innovasiya dünyada cəmiyyətlərin sosial-iqtisadi inkişafının aparıcı qüvvəsinə çevrildiyi bir vaxtda Mehriban Əliyeva ICESCO-nun xoşməramlı səfiri qismində bütün üzv dövlətlərə bu sahələrə daha çox sərmayə yatırmağa, habelə zəruri siyasət və birgə fəaliyyət planları işləyib hazırlamağa dair çağırış edib. O, deyib: "Biz qadınlar və qızların sabahın əmək bazarına lazımi bacarıqlara yiyələnmələri üçün innovativ maliyyə mexanizmləri yaratmalıyıq. Azərbaycan bu mənada öz töhfəsini verməyə hazırdır".

Azərbaycanın Birinci vitse-prezidenti Ermənistanın işğal etdiyi ərazilərimizin 30 ildən sonra Azərbaycan tərəfindən azad olunması və tarixi ədalətin bərpası ilə nəticələnən ötənilki 44 günlük Vətən müharibəsi zamanı dəyərli dəstəyinə görə ICESCO-ya, şəxsən onun Baş direktoru doktor Salim əl -Malikiyə dərin minnətdarlığını ifadə edib. Bildirib ki, hazırda dövlət qarşısında azad olunmuş ərazilərin canlandırılması və azərbaycanlı məcburi köçkünlərin doğma yurdlarına təhlükəsiz qayıdışının təmin edilməsi kimi nəhəng vəzifə dayanır.

Azərbaycan dövləti, xalqı öz tarixi torpaqlarını erməni işğalçılarından azad etməyə qadir olduğu kimi, düşmənin viran qoyduğu həmin əraziləri gülüstana çevirmək iqtidarındadır. Ermənistan silahlı qüvvələrini qovduğumuz yurd yerlərimiz yenidən abad ediləcək. Orada məktəblər tikiləcək. Biz tarixi, milli-mədəni dəyərləri olan, humanist xalqıq. Və öz dəyərlərimizdən heç zaman, heç bir şəraitdə, istər ağır, istərsə də xoş günlərimizdə vaz keçmirik. Bütün xalqlara - dinindən, dilindən, irqindən asılı olmayaraq ədalət və humanizm nöqeyi-nəzərindən yanaşırıq. Erməni işğalından azad etdiyimiz ərazilərimizdə də yalnız müsəlmanlara deyil, bütün dinlərə məxsus mədəni irsi bərpa edəcəyik. Ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyeva deyib: "Biz işğal zamanı zərər görmüş mədəni irs abidələrinin vəziyyətinin qiymətləndirilməsində ICESCO-nun Azərbaycan hökuməti ilə birgə çalışmağa hazır olduğunu yüksək qiymətləndiririk. Eyni zamanda, ICESCO-nun Azərbaycanda regional nümayəndəlik təsis etməsi imkanının nəzərdən keçirilməsinə görə xüsusi minnətdarlığımızı bildiririk. Həmin nümayəndəlik digər sahələrlə yanaşı, qadınlar və qızların elmdə rolunun artırılmasına konkret diqqət yetirməklə elm sahəsində əməkdaşlığımızı gücləndirə bilər".

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***



# "Bizi Mehriban xanım xilas etdi"

## Azərbaycanın Birinci vitse-prezidenti humanizmə çağırışı, şəfqət və mərhəməti ilə minlərlə xəstəyə həyat bəxş edir





*"Talassemiyadan ən çox uşaqlar əzab çəkir. Xəstəlik böyük-kiçik tanımasa da, uşaqların əzabı daha ağrıdıcıdır. Amma dünyada bu xəstəlikdən tamamilə sağalan insanlar var. Ona görə çox böyük iş görmək lazımdır və bunun öhdəsindən yalnız birlikdə gəlmək olar. Həm dövlət, həm də ictimaiyyət, fondlar, imkanlı insanlar birlikdə bu bəlanın qarşısını ala bilərlər. Heydər Əliyev Fondu üçün isə əsas məsələ ixtisaslaşdırılmış mərkəzin və qan bankının yaradılmasıdır. Beləliklə, biz bu gün bu problemin həlli yolunda birinci addımı birlikdə atdıq. Heydər Əliyev Fondu bu istiqamətdə hər bir yardımı dəstəkləyir və təklifləri gözləyir".*

Bu fikirləri Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva 2005-ci il fevralın 8-də fondun təşəbbüsü ilə talassemiya problemlərinə həsr olunmuş "Talassemiyasız həyat naminə" devizi altında keçirilən tədbirdə səsləndirmişdi. Məhz bu "dəyirmi masa" ölkəmizdə talassemiya probleminin həlli istiqamətində atılan mühüm addımların başlanğıcı oldu. Həmin gün Heydər Əliyev Fondu tərəfindən ixtisaslaşdırılmış mərkəzin və qan bankının yaradılması haqqında qərar qəbul edildi. Və çox keçmədi ki, o tədbirdə qarşıya qoyulan xeyli hədəflərə çatıldı, bu xəstəliyin artmasının qarşısının alınması istiqamətində uğurlu işlər həyata keçirildi.

### Talassemiyalı xəstələrin bütün müayinə və müalicələri dövlət hesabına həyata keçirilir

Elə həmin ilin mayında dövlət başçısı İlham Əliyev tərəfindən "Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında" qanun qəbul edildi. O zamandan etibarən Azərbaycanda talassemiyalı xəstələrin bütün müasir laborator müayinə və müalicə üsulları, dərman preparatları, qan transfuziyası tam dövlət hesabına həyata keçirilməyə başlandı.

2006-cı ildə talassemiyalı pasiyentlərə xidmət göstərən Talassemiya Mərkəzinin tikintisinə start verildi. Ümumi dəyəri 18 milyon ABŞ dollarlıq layihə 3 ilə hazır oldu. Beləliklə, Heydər Əliyev Fondunun bu istiqamətdə həyata keçirdiyi ardıcıl işlərin nəticəsi olaraq 2009-cu ildə talassemiya xəstələri və onların yaxınları üçün ümid yeri sayılan Talassemiya Mərkəzi açıldı. Açılış mərasimində Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva iştirak etdilər.

Mərkəzin yaradılmasında əsas məqsəd ixtisaslaşdırılımış tibb ocağının və qan bankının təşkili, yüksəkixtisaslı kadrların hazırlanması, talassemiyadan əziyyət çəkən uşaqların təhlükəsiz və keyfiyyətli qan komponentləri, eləcə də tibbi xidmətlə təmin olunmasıdır. Talassemiya ilə doğulanların sayının artmaması üçün əhalinin maarifləndirilməsi, bu sahədə elmi tədqiqatların aparılması, həmçinin beynəlxalq təcrübənin öyrənilməsi mərkəzin fəaliyyətinin əsas istiqamətlərindəndir.

Heydər Əliyev Fondunun "Talassemiyasız həyat naminə" proqramı çərçivəsində inşa olunmuş Talassemiya Mərkəzinin binası zirzəmidən, beş mərtəbədən və mansard hissədən ibarətdir. Ümumi sahəsi 7720 kvadratmetr olan bina tam hermetikdir, xarici divarları isti və soyuğa qarşı izolə edilib. Binanın interyerinə və dizaynına xüsusi diqqət yetirilib, həkimlərin, memarların, dizaynerlərin və psixoloqların məsləhətləri nəzərə alınıb. Mərkəz üçün seçilən antibakterioloji ləvazimat xəstələrin yaşı nəzərə alınmaqla əlvan rəngli və müsbət enerji verən dizayna uyğunlaşdırılıb.

Tibb işçilərinin rahat və yüksək səviyyədə xidmət göstərmələri, xəstələrin müayinə və müalicəsinin aparılması ardıcıllığı nəzərə alınaraq otaqların təyinatına, həmçinin mərtəbələr üzrə bölüşdürülməsinə xüsusi diqqət yetirilib. Birinci mərtəbədə qeydiyyat şöbəsi, donor mərkəzi, həkim otağı, ultrasəs müayinəsi və köməkçi otaqlar, laboratoriya var. Laboratoriyada qan qrupunu avtomatik təyin edən aparat və digər lazımi avadanlıq quraşdırılıb.

İkinci mərtəbə poliklinikadır. Burada baş həkimin otağı, iki hissədən ibarət transfuziya zalı, on iki otağı olan klinika, ümumi laboratoriya, manipulyasiya və şüa diaqnostikası otaqları fəaliyyət göstərir.

Sahəsi 1280 kvadratmetr olan üçüncü mərtəbədə iliyin köçürülməsi üçün əməliyyat otağı, hərəsi bir nəfərlik beş reanimasiya palatası, iki manipulyasiya otağı, sterilləşdirmə mərkəzi, molekulyar diaqnostika laboratoriyası yerləşir. Reanimasiya palatalarının və əməliyyat otağının yerləşdiyi hissəni laminar hava ilə təmin etmək üçün xüsusi havalandırma sistemi quraşdırılıb.

Mərkəzin dördüncü mərtəbəsində hər biri iki nəfərlik on üç palata, hərəsi bir nəfərlik dörd palata, uşaqlar üçün oyun otağı var. Beşinci mərtəbədə kafe, yeməkxana, kitabxana, internet mərkəzi, 110 nəfərlik konfrans salonu fəaliyyət göstərir. Sahəsi 1080 kvadratmetr olan mansarda Almaniyada istehsal olunmuş havalandırma sistemi quraşdırılıb. Zirzəmidə havalandırma və qaz şəbəkəsinin qurğuları, izolyator zalı, rabitə və mərkəzi kompüter sistemi, camaşırxana və sterilləşdirmə otağı yerləşir. Binanın xüsusi yanğın təhlükəsizliyi sistemi var.

### Mehriban Əliyevanın əhalinin sağlamlığının qorunması işinə töhfəsi

Profilinə görə regionda yeganə olan, ən müasir avadanlığın quraşdırıldığı mərkəzin istifadəyə verilməsi ilə Azərbaycanda ixtisaslaşdırılmış tibb ocağının və qan bankının yaradılmasına, talassemiyadan əziyyət çəkən uşaqların təhlükəsiz və keyfiyyətli qanla təminatı üçün könüllü donor xidmətinin inkişaf etdirilməsinə, talassemiyanın yayılmasının qarşısını almaqdan ötrü əhalinin maarifləndirilməsi və talassemiya ilə mübarizə aparan bir sıra dövlətlərlə əməkdaşlığın genişləndirilməsinə, ölkəmizdə yüksəkixtisaslı kadrların hazırlanmasına nail olunub. Burada quraşdırılan avadanlıq müalicənin ən yüksək səviyyədə aparılmasına şərait yaradır.

2013-cü ildən etibarən isə mərkəzdə talassemiya xəstəliyinin radikal müalicəsi olan sümük iliyi transplantasiyası uğurla həyata keçirilir. Bu günə qədər 110 pasiyent üzərində bu əməliyyat icra edilib və onlar tam sağalıb. Mərkəz fəaliyyətə başlayan gündən bu günə kimi talassemiyadan əziyyət çəkən insanların müayinə və müalicəsini əhatə edən bütün xidmətlər, sümük iliyi transplantasiyası da daxil olmaqla dövlət hesabına həyata keçirilir. Belə bir mərkəzin fəaliyyət göstərməsi Heydər Əliyev Fondunun və birbaşa Mehriban Əliyevanın əhalinin sağlamlığının qorunması işinə ən dəyərli töhfələrdən biridir.

Qeyd edək ki, Prezident İlham Əliyev 23 dekabr 2019-cu ildə ölkədə qan, qan komponentlərinin donorluğu və qan xidməti sahəsində dövlət fəaliyyətinin səmərəliliyini daha da artırmaq və sistemliliyini təmin etmək, əhalinin qan, qan komponentlərinə olan tələbatını ödəmək, habelə qanın, qan komponentlərinin tədarükü, emalı, saxlanması və bölüşdürülməsi zamanı beynəlxalq standartların tətbiq edilməsi məqsədilə Talassemiya Mərkəzinin və B.Ə.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunun birləşmə formasında yenidən təşkili yolu ilə publik hüquqi şəxs statuslu Milli Hematologiya və Transfuziologiya Mərkəzinin yaradılması haqqında fərman imzaladı.

### "Qısa müddətdə bu problemi minimuma endirə bilərik"

Mərkəzin icraçı direktoru Valeh Hüseynov deyir ki, hər iki səhiyyə ocağının əsas fəaliyyəti oxşar olduğu, müəssisələrdə eyni laborator müayinələr aparıldığı üçün bu qurumların vahid mərkəzdən idarə olunması qərarı daha səmərəli fəaliyyətə, əhaliyə tibbi, hematoloji xidmətin səviyyəsinin yüksəlməsinə, keyfiyyətli qan təminatının həyata keçirilməsinə hədəflənib: "Milli Hematologiya və Transfuziologiya Mərkəzi ölkəmizdə qan xəstəliklərini müalicə edən ən böyük qurumdur. Bütün bölgə xəstəxanalarının qan və qan komponentləri ilə təminatını həyata keçirir. Mərkəzdə bu sahənin çoxsaylı mütəxəssisləri işləyir. Həmçinin 2015-ci ildən etibarən Prezidentin sərəncamı ilə nikaha daxil olan cütlüklərin irsi qan xəstəliklərinə görə müayinəsi bu mərkəzdə icra olunur. Məqsəd bir tərəfdən mövcud xəstələrin keyfiyyətli müalicə almasını təşkil etmək, digər tərəfdən isə talassemiyalı xəstə doğulmasının qarşısını almaqdır. Cütlüyün hər ikisi daşıyıcı çıxarsa, onlarda prenatal diaqnostika aparılır və xəstə uşaqların doğulmasının qarşısı alınır. Bu işdə xüsusilə də nikaha daxil olacaq gənclərin maarifləndirilməsi və daşıyıcıların müəyyən olunması vacibdir. Artıq nikahöncəsi müayinələr və hamiləlik zamanı aparılan testlərlə talassemiyalı uşağın doğulmasının qarşısı tamamilə alına bilir. Əgər daşıyıcılar ailə qurublarsa, onların uşaq planlamaları üçün genetik konsultasiyalar aparılmalıdır. Bu zaman sağlam doğulacaq uşağın planlaşdırılması aparılır və həmin ailənin də sağlam uşaqları dünyaya gəlir. Əgər profilaktik tədbirlərin aparılmasını düzgün təşkil edə bilsək, qısa müddətdə ölkəmizdə bu problemi minimuma endirə və gələcəkdə tam həll edə bilərik. Sevindirici haldır ki, görülən tədbirlər öz bəhrəsini verməyə başlayıb. Əvvəllər illik təxminən 200-300-ə yaxın yeni talassemiya xəstələri qeydə alınırdısa, bir neçə ildir ki, o rəqəmlərdə 30-40 faiz azalma müşahidə edilir".

Hazırda Milli Hematologiya və Transfuziologiya Mərkəzinin bölməsi kimi fəaliyyət göstərən Talassemiya Mərkəzində genetik müayinələrin aparılması üçün yeni nəsil sekvenləşdirmə cihazları ilə təchiz olunmuş genetik laboratoriya fəaliyyət göstərir. Bu, ölkəmizdə bütün onkoloji, ginekoloji, irsi xəstəliklərin diaqnozunun qoyulmasında yeganə ən müasir laboratoriyadır. Onun qurulması üçün 2017-ci ildə dövlət başçısının sərəncamı ilə 1 milyon 800 min manat vəsait ayrılıb.

V.Hüseynovun sözlərinə görə, bu müasir genetik laboratoriyanın faydası koronavirus pandemiyası zamanı da özünü göstərdi: "Qürurla qeyd edə bilərik ki, pandemiya başlayandan koronavirus müayinələrini edən ilk tibb ocağı bu mərkəz oldu. Bundan başqa, konvalesent immun plazma, yəni virus infeksiyası keçirmiş və sağalmış insanlardan toplanan plazmalarla kritik ağır xəstələrin müalicəsinə başladıq. Bu günə qədər 200-dən çox COVID xəstəsinə ağır dönəmlərdə bu immun plazma ilə kömək edə bildik. Proses hələ də davam edir. Eyni zamanda laboratoriyamızda koronavirusun yeni mutasiyaları və onların RNT ardıcıllığı öyrənilir. Araşdırmalarımızın nəticələrini artıq beynəlxalq təşkilatlara da göndərmişik".

### Xəstələrin xilası olan çağırış

Koronavirus pandemiyası ilə əlaqədar xüsusi karantin rejiminin tətbiq olunduğu müddətdə bütün dünyada olduğu kimi, Azərbaycanda da talassemiya və hemofiliya, eləcə də leykoz xəstəliyindən əziyyət çəkən insanlar üçün qan ehtiyatı azalmışdı. Bu çətin dönəmdə ilk və ən böyük dəstək yenə də ölkənin Birinci vitse-prezidenti Mehriban Əliyevadan gəldi. Ötən il aprelin 11-də Heydər Əliyev Fondu və Heydər Əliyev Mərkəzinin əməkdaşları qanvermə aksiyası keçirdilər. Mehriban xanım bununla bağlı "Facebook" səhifəsində insanlara çağırış etdi: "Şəfqət, mərhəmət, humanizm, səxavət, xoş əməllər etmək, köməyə ehtiyacı olanın yanında olmaq kimi keyfiyyətlər həmişə bizim ən mühüm həyati dəyərlərimiz olmuşdur və bu gün də belədir. Bütün dünyanı sarsıtmış koronavirus pandemiyası ilə bağlı ölkəmizdə xüsusi karantin rejiminin tətbiq edildiyi bir vaxtda xalqımızın həmrəy olmaq, insansevərlik nümayiş etdirmək, diqqət və qayğı göstərmək bacarığı hər birimizə ancaq qürur hissi yaşadır. İrsi qan xəstəliklərindən, xüsusilə də talassemiyadan əziyyət çəkən insanlara dəstək məqsədilə Milli Hematologiya və Transfuziologiya Mərkəzinin Qan Bankı tərəfindən keçirilmiş qanvermə aksiyasında könüllü olaraq iştirak edən Heydər Əliyev Fondunun və Heydər Əliyev Mərkəzinin əməkdaşlarına təşəkkürümü bildirirəm. Siz bu nəcib əməlinizlə bir insan həyatının xilaskarı olursunuz. Bu, ən yüksək qiymətə layiqdir! Əminəm ki, sizin təşəbbüsünüz bu məsələyə laqeyd yanaşmayan və ölkəmizin yaxşılıq etməyə hazır olan bütün vətəndaşları tərəfindən dəstəklənəcəkdir! Çox sağ olun!"

Bu çağırışdan dərhal sonra Heydər Əliyev Fondu tərəfindən başlanılmış qanvermə aksiyasına könüllü olaraq çoxsaylı vətəndaşlar, təşkilatlar, dövlət qurumları da qoşuldu: "Mehriban xanımın çağırışı ölkədə qan ehtiyatının çoxalmasına bir vəsilə oldu. Qan banklarına elə bir axın yarandı ki, məcburən növbəli sistemə keçdik. Çünki qan ehtiyatı çox artarsa, onun istifadəsində problem olur. Bu axın Vətən müharibəsi zamanı da müşahidə edildi. Qürur və fəxrlə qeyd etmək istəyirəm ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Şanlı Ordumuzun qazandığı tarixi qələbədə az da olsa bizim mərkəzin payı var. Çünki bütün hospitalların qan təminatı hərbi müəssisələrin və bizim müəssisənin rəhbərliyi altında həyata keçirilirdi. Cəbhə bölgəsindəki regional qan mərkəzlərimizlə birlikdə fasiləsiz şəkildə 24 saat fəaliyyət göstərdik. Çalışdıq qan təminatında heç bir nöqsan, problem olmasın. Çox şükür, dünyaya səs salan tarixi zəfər çaldıq. Bu qələbəni qanları ilə yazan bütün şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa diləyirəm".

### "Gələcəkdə bizim də sümük iliyi donor bankımız olacaq"

İcraçı direktor bildirdi ki, ümumilikdə irsi qan xəstəlikləri üzrə 3500-dən çox xəstə qeydiyyatdadır. Onlardan 1300 nəfəri mütəmadi qan transfuziyası olunan pasiyentlərdir. Əksəriyyəti Bakı və ətraf bölgələrdə yaşayır. Bölgələrdə yaşayan xəstələr isə müvafiq qurumun regional qan mərkəzlərində müalicələrini davam etdirirlər: "Pandemiya dövründə rayon və şəhərlərarası gediş-gəliş bağlı olduğu üçün bir çox pasiyentlər müalicələrini, qan transfuziyalarını ən yüksək səviyyədə bölgələrdə aldı. Bakıya yalnız 3-6 aydan bir tam müayinə üçün gəldilər. Hazırda qarşımızda duran əsas vəzifələrdən biri bölgələrimizdəki qan mərkəzlərini daha da müasirləşdirmək, laborator sistemi tam avtomatlaşdırmaq, qan təminatını yaxşılaşdırmaqdır. Hər şey mükəmməldir demək doğru olmaz. Nailiyyətlərimizlə yanaşı, problemlər, çatışmazlıqlar üzərində də çalışırıq. İstəyirik daha yüksəkixtisaslı kadrlar yetişdirək, işçiləri xaricdə təhsilə yönləndirək, tibbi xidmətin keyfiyyətini yüksəldək. Dünyada bu sahədə yeni nə varsa tətbiq etməyə çalışırıq. İnanıram ki, mərkəz gələcəkdə daha böyük elmi işlərə imza ataraq regionun ən böyük mərkəzlərindən biri olacaq".

O ki qaldı talassemiyalı xəstələrin probleminə, V.Hüseynovun sözlərinə görə, bütün dünyada bu insanların ən böyük problemi donor çatışmazlığıdır. Məlumdur ki, sümük iliyi transplantasiyası üçün tam toxuma uyğunluğu olan donor lazımdır. Lakin ailə içində donorun tapılma şansı az olur. Ona görə də mərkəzin hədəflədiyi məqsədlərdən biri də bu problemi həll etməkdir: "Hazırda sümük iliyi transplantasiyasında vacib əhəmiyyət kəsb edən donor probleminin həll olunması ilə bağlı HLA registrin qurulması və dünya donor bankına inteqrasiya üçün hazırlıq işləri görülür. Mərkəzə müraciət edən insanların toxuma analizlərini götürürük. Analizlər toplandıqca müəyyən saya çatandan sonra beynəlxalq donor registrlərinə qoşula biləcəyik. Bir də hüquqi tənzimləmə metodları var. Sümük iliyinin, alınmış kök hüceyrələrinin daşınması xüsusi qaydalar tələb edir. Ona görə də bu müəyyən zaman alan prosedurdur. Düşünürəm ki, gələcəkdə bizim də sümük iliyi donor bankımız olacaq. Ondan sonra bu sahədə beynəlxalq qurumlarla mütəmadi əməkdaşlıq edə biləcək, pasiyentlərimizə daha faydalı olacağıq. Əsas hədəfimiz "Talassemiyasız həyat naminə" şüarını əsas götürərək respublikamızda bir talassemiya xəstəsinin belə doğulmamasına nail olmaq, beynəlxalq aləmdə tibbin əldə etdiyi ən yüksək səviyyəli metodları təqib və tətbiq etmək, bu fəaliyyəti akademik şəraitdə davam etdirməkdir".

### Bütün işlər Mehriban Əliyevanın tapşırığı və şəxsi nəzarəti altında görülür

Təbii ki, sadalanan nailiyyətlərin hamısı məhz dövlətin yüksək qayğısı nəticəsində əldə olunub. Talassemiya və digər irsi qan xəstəliyi olan insanlara göstərilən diqqət, qayğı, görülən bütün işlər ölkə başçısının və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın birbaşa dəstəyi ilə həyata keçirilir. Bu işdə Mehriban xanımın rolu əvəzsiz və danılmazdır. Səhiyyə və sosial məsələlər Heydər Əliyev Fondunun fəaliyyətində prioritet təşkil edir. Bu baxımdan Mehriban xanım talassemiyalı xəstələrin müalicəsinə, xəstəliyin profilaktikası üzrə maarifləndirmə ilə bağlı dövlət səviyyəsində aparılan işlərə öz dəstəyini əsirgəmir.

Mehriban xanım, eləcə də fondun vitse-prezidenti Leyla Əliyeva mütəmadi olaraq Talassemiya Mərkəzini ziyarət edir, fəaliyyəti üçün ən üst səviyyədə dəstək və diqqət göstərirlər. Mehriban xanım daim yeni müalicə metodları ilə tanış olur, tövsiyələrini verir, fikirlərini bölüşür. Burada müalicə olunan uşaqlarla maraqlanır, səmimi söhbət edir, onlarla qayğıkeş davranır, xəstələrin müalicəsinin gedişi ilə maraqlanır. Onların sağlıqla yanaşı, digər problemlərinin həlli istiqamətindəki işlərin həyata keçirilməsinə də kömək göstərir. Bütün əlamətdar günlərdə, bayramlarda daim mərkəzdəki uşaqlara xüsusi diqqət yetirir.

*Gələcəyimizin bu xəstəlikdən xilas edilməsi üçün Mehriban Əliyevanın tapşırığı və şəxsi nəzarəti altında talassemiyasız həyat naminə görülən işlər xüsusi əhəmiyyət daşıyır. İldən-ilə bu sahədə qazanılan uğurlar, əldə olunan nailiyyətlər isə onu deməyə əsas verir ki, Azərbaycanda talassemiyasız həyat mümkündür və buna az qalıb...*

**Xəyalə MURADLI,**
**"Azərbaycan"**







# Azərbaycan naminə

**Mehriban Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti təyin edilməsinin dördüncü ili tamam olur. Bu dövr ərzində Mehriban Əliyeva həyata keçirdiyi fəaliyyətlə dövlət siyasətinin daha böyük uğurlar qazanmasına, Azərbaycanın milli maraqlarının beynəlxalq səviyyədə təmin edilməsinə layiqli töhfələr verib.**
**Milli Məclisin komitə sədrləri və deputatları bu barədə fikirlərini qəzetimizə bildirdilər.**









## Prezidentin ən etibarlı, fədakar silahdaşı

***Bəxtiyar ƏLİYEV,***
*Milli Məclisin Elm və təhsil komitəsinin sədri, AMEA-nın müxbir üzvü:*

- Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanda son illər sürətli iqtisadi inkişafla yanaşı, həm də davamlı inkişafı təmin edən ardıcıl struktur islahatları həyata keçirilir. Bununla bağlı çox böyük işlər görülüb. 2016-cı ildə keçirilən ümumxalq referendumu, 2018-ci ildə prezident, 2020-ci ildə isə parlament seçkiləri bu islahatların tərkib hissəsi sayıla bilər.

Bu islahatların müəllifi dünyada gedən siyasi prosesləri düzgün dəyərləndirərək milli maraqlarımız naminə tam müstəqil siyasət yürüdən, Azərbaycanı Avratlantika geosiyasi arealında öz sözü və mövqeyi olan dövlətə çevirən Prezident İlham Əliyevdir. Məhz Prezidentin təşəbbüsü ilə keçirilən ümumxalq referendumunda və növbədənkənar prezident seçkilərində seçicilərin 90 faizlik etimadı xalqın dövlət başçısına inamının əyani göstəricisi idi. Yəni xalq İlham Əliyevin elan etdiyi islahatlar konsepsiyasına birmənalı dəstəyini nümayiş etdirdi.

Ümumxalq referendumu ilə ölkə Konstitusiyasına dəyişikliklər edildi və həmçinin Azərbaycanda yeni vitse-prezidentlik institutu yaradıldı. Eyni zamanda daha çevik idarəetmə mexanizmlərinin hüquqi bazası formalaşdırıldı. Yeni siyasi və iqtisadi islahatlar kursunun tərkib hissəsi olan dəyişikliklərin əsas mahiyyətini inzibati-hüquqi, ictimai-siyasi və sosial-iqtisadi sahələrdə keyfiyyət üstünlüyünü artırmaq, idarəçilik sistemini müasir çağırışlara cavab verən yönümdə təkmilləşdirmək təşkil edirdi. Vitse-prezidentlik vəzifəsinin təsis edilməsinin məqsədi dövlət strukturlarının fəaliyyətində səmərəliliyin və çevikliyin yüksəldilməsini, vətəndaşlar qarşısında öhdəliyin daha keyfiyyətli icrasına nail olunmasını, məmur məsuliyyətinin gücləndirilməsini təmin etmək idi. Bu baxımdan cənab Prezident tərəfindən vitse-prezidentlik institutunun yaradılması təklifinin ciddi əsasları var idi.

Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyevanın çox peşəkar, təcrübəli, bilikli, prinsipial, çox xeyirxah bir insan kimi həm də Azərbaycan xalqının ona böyük rəğbət və sevgi ilə yanaşdığını nəzərə alan dövlətimizin başçısı yeni çevik və səmərəli idarəetməni təmin etmək məqsədilə onu Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin etdi.

Bu, təsadüfi deyildi. Çünki Mehriban Əliyeva həm Milli Məclisin deputatı kimi, həm də Heydər Əliyev Fondunun rəhbəri olaraq ölkə daxilində və beynəlxalq arenada mühüm layihələr həyata keçirir, Azərbaycanın ictimai-siyasi, mədəni həyatında fəal rol oynayır. Təhsil, səhiyyə, mədəniyyət, incəsənət sahəsində həyata keçirdiyi layihələr bu sahələrin inkişafına əvəzsiz töhfə verir. Azərbaycan həqiqətlərinin, mədəniyyətinin dünyaya tanıdılması istiqamətində gördüyü işlər beynəlxalq aləmdə böyük əks-səda doğurur. Bu layihələr eyni zamanda Azərbaycanın dünyadakı mövqeyini daha da möhkəmləndirir, ölkəmizin qədim mədəni-tarixi köklərə malik olduğunu sübuta yetirir.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, “bizim milli sərvətimiz olan muğam sənətinin yenidən inkişafı və beynəlxalq arenaya çıxarılması məhz Heydər Əliyev Fondunun və Mehriban Əliyevanın şəxsi təşəbbüsü nəticəsində mümkün olmuşdur”. Mehriban xanım Əliyeva unudulmaqda olan Azərbaycan muğamına yeni həyat qazandırmaqla dünyaya bəyan etdi ki, muğamın beşiyi, mərkəzi Azərbaycandır. Bu həm də dolayısı ilə o demək idi ki, Azərbaycan qədim tarixi ənənələrə, qədim dövlətçiliyə, mədəniyyətə sahib bir dövlətdir.

Məhz bu geniş ictimai-siyasi və beynəlxalq fəailiyyəti ilə Mehriban Əliyeva həm ölkə daxilində, həm də onun hüdudlarından kənarda böyük nüfuz və rəğbət qazanıb. Bu baxımdan Mehriban Əliyevanın Birinci vitse-prezident vəzifəsinə təyinatı cəmiyyətin sosial sifarişi olmaqla yanaşı, xalqımızın və dövlətimizin xoşbəxt gələcək naminə uğurlu seçimi, əsrin əvvəllərində Şərqdə qadınlara ilk siyasi hüquqlar tanıyan Azərbaycan demokratiyasının müasir inkişaf və təkamülünün bariz təzahürü idi.

Dörd il öncə Mehriban Əliyevanın missiyasında yeni dövr başladı. Elə Birinci vitse-prezident kimi keçirdiyi ilk müşavirə də bir daha təsdiqlədi ki, özünün dediyi kimi, əsas diqqəti sosial problemlərin həllinə cəmləşdirir. İlk müşavirəsi qaçqın və məcburi köçkünlərin problemlərinin həlli ilə bağlı oldu. Bakı şəhəri və ətraf qəsəbələrdə ağır şəraitdə yaşayan soydaşlarımızın sosial şəraitinin yaxşılaşdırılmasına həsr edilən müşavirədən sonra müvafiq dövlət proqramları qəbul edildi və qısa zamanda yeni, müasir şəhər tipli qəsəbələr salındı, fərdi evlər tikildi.

Xüsusi olaraq vurğulamaq olar ki, həmin şəhərciklərin açılış mərasimləri zamanı həm Prezident İlham Əliyev, həm də Mehriban Əliyeva bəyan edirdilər ki, məcburi köçkünlərimiz burada müvəqqəti məskunlaşırlar. Tezliklə işğal altında olan torpaqlarımız azad ediləcək və orada bundan da möhtəşəm şəhərlər, qəsəbələr, kəndlər salınacaq.

Çox keçmədi ki, Prezidentin bu istiqamətdə apardığı uğurlu siyasət tarixi qələbə ilə başa çatdı. Böyük fərəh, fəxarət hissi ilə demək istərdik ki, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusu işğal altında olan torpaqlarımızı azad etdi.

Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva işğaldan azad olunmuş torpaqlarımıza mütəmadi səfərlər edir, hər bir şəhərimizdə Azərbaycan bayrağını ucaldır, məscidlərimizə Məkkədən gətirdikləri “Qurani-kərim”i bağışlayır və orada dualar edirlər.

Bütün bunlar onu göstərir ki, Birinci vitse-prezident Mehriban Əliyeva həmişə xalqla bir yerdədir, onun qayğılarına diqqətlə yanaşır, problemlərini həll edir. O, xeyirxahlıq ünvanına çevrilmişdir. Hər bir Azərbaycan vətəndaşının rahat, təhlükəsiz, xoşbəxt yaşaması üçün böyük işlər görür.

Mehriban Əliyeva Birinci vitse-prezident kimi müxtəlif xarici ölkələrə də səfərlər edib. Bu səfərlərdə Azərbaycanın taleyüklü məsələləri ilə bağlı danışıqlar aparmış, onların hamısının nəticəsi müsbət olmuş və bunlar dövlətlər arasında imzalanan sazişlərdə də öz əksini tapmışdır. O, dövlətimizin və xalqımızın maraqlarını hər şeydən üstün tutur.

Bir sözlə, Mehriban Əliyeva Birinci vitse-prezident kimi Azərbaycanın maraqlarını tam qoruyur, xalqın gözləntilərini doğruldur və bu gün ölkədəki sürətli inkişafın, islahatların həyata keçirilməsində Prezident İlham Əliyevin ən etibarlı, fədakar silahdaşı kimi cəmiyyətdə sonsuz hörmət, sarsılmaz inam və etimad qazanmışdır. Ona bu şərəfli fəaliyyətində yeni uğurlar arzulayırıq!

## Xeyirxahlıq mücəssəməsi

***Hicran HÜSEYNOVA,***
*Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, professor:*

- Azərbaycan qadını həm ailənin, həm də cəmiyyətin bərabərhüquqlu üzvü olmaqla, ölkəmizin qazandığı çoxsaylı uğurlarda xüsusi yer tutur. Milli dövlətçilik anlayışının keşiyində duran qadınlarımız həmişə dövlətçiliyə, milli məfkurəyə bağlı olub, onun üçün mübarizə aparıblar. Prezident İlham Əliyevin sözləri ilə desək, “tariximizin hər bir dövründə qadınlarımız cəmiyyətin sarsılmaz mənəvi dayağı olmuş, ölkəmizin bugünkü simasının müəyyənləşməsi üçün böyük fədakarlıqlar göstərmişlər”. Bu gün də qadınlarımız dövlət quruculuğunda iştirak etmək ənənəsini, missiyasını çox uğurla daşıyırlar. Bunun ən bariz nümunəsi Birinci vitse-prezident Mehriban xanım Əliyevadır.

Zəngin fəaliyyəti ilə təkcə ölkəmizdə deyil, bütün dünyada yüksək nüfuz və hörmət qazanan Mehriban xanım həm vətəndaş, həm şəxsiyyət kimi Azərbaycanın ictimai-siyasi həyatında mühüm rol oynayır, ölkənin inkişafına öz layiqli töhfələrini verir. Müasir tariximizə, müstəqil dövlət qurucusu Ulu Öndər Heydər Əliyevin xatirəsinə xalqımızın ehtiramını ifadə etmək istəyindən yaranan fondun fəaliyyəti ölkə və dünya ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılanır. Onun rəhbərliyi ilə Heydər Əliyev Fondu tərəfindən təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə həyata keçirilən böyük layihələr bunun bariz nümunəsidir. İnsanların sağlamlığı, gənc nəslin təlim-tərbiyəsi, məktəbəqədər yaşlı və valideyn himayəsindən məhrum olan uşaqların sosial şəraitinin yaxşılaşdırılması, ekoloji mühitin təmiz saxlanılması fondun diqqət mərkəzində saxladığı məsələlər sırasındadır.

Mehriban xanım ölkədə ailə, qadın və uşaq problemlərinin həllinə böyük dəstək verir. Gender bərabərsizliyinin, qadınlara qarşı bütün zorakılıqların, ənənəvi ailə dəyərlərinə zidd olan stereotiplərin aradan qaldırılmasına xüsusi diqqət yetirir. Eyni zamanda valideyn qayğısından və himayəsindən məhrum olunmuş, eləcə də sağlamlıq imkanları məhdud uşaqlarla bağlı hər bir problemə həssaslıqla yanaşır, onları qayğı ilə əhatə edir. Onun şəxsi dəstəyi və köməyi nəticəsində reallaşan genişmiqyaslı tədbirlər ana və uşaq ölümünün qarşısının alınması, hemofiliya, talassemiya və şəkərli diabet xəstəliklərinin azalması istiqamətində profilaktik və müalicəvi işlərin aparılmasına müsbət təsir göstərir.

Respublikanın Birinci vitse-prezidentinin bütün çıxışlarının əsasını Azərbaycan, azərbaycançılıq məfkurəsi təşkil edir. Mehriban Əliyeva Şərq ölkələrində siyasətin yalnız kişilərin işi olması barədə stereotipləri uğurla təkzib edərək dövlətimizin möhkəmlənməsi yolunda apardığı ideoloji mübarizəyə öz bəhrəsini verməkdədir. Bu illər ərzində Mehriban xanımın rəhbərliyi ilə ayrı-ayrı ölkələrdə həyata keçirilən xeyriyyə layihələri Vətən müharibəsi zamanı bizə bir çox dövlətin dost münasibət göstərməsinə səbəb olmuşdur. Eyni zamanda Heydər Əliyev Fondu, onun prezidenti, Birinci vitse-prezident Mehriban Əliyevanın, eləcə də fondun vitse-prezidenti Leyla Əliyevanın Azərbaycanın ən ağrılı problemi olan Qarabağ münaqişəsinin, azərbaycanlılara qarşı edilən genosidin dünyaya yayılmasında və təbliğində böyük rolu var.

Ötən il bütün dünyada, eləcə də Azərbaycanda COVID-19 pandemiyası bəşəriyyəti yeni çağırışlar qarşısında qoydu. Bununla yanaşı, Azərbaycan 44 günlük Vətən müharibəsi apararaq xalqımızn 30 illik Qarabağ həsrətini sona çatdırdı. Mehriban Əliyevanın koronavirus pandemiyası ilə bağlı xalqa müraciəti, “Instagram” səhifəsində etdiyi səmimi paylaşımlar mənəvi dəstəyin parlaq nümunələridir. Eləcə də onun ermənilərin Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində törətdiyi hərbi təxribatlarla bağlı xalqımıza etdiyi müraciət bir daha göstərdi ki, biz bir-birimiz üçün məsuliyyət daşıyırıq. Mehriban Əliyeva tarixi Qələbə münasibətilə rəsmi “Instagram” səhifəsində paylaşımında xalqımızı, dünya azərbaycanlılarını təbrik edərək, bildirdi ki, “Vətənimizi müdafiə edən, onu dirçəldən nəslin işıqlı xatirəsi, bu nəslə hörmət və ona görə səmimi qürur hissi hər bir azərbaycanlının qəlbində həmişəlik qalacaq”. Mehriban xanım bir ictimai xadim və dövlət məmuru kimi daim həlak olanların ailələrinə lazımi köməyi göstərir. Yaralı əsgərlərin sağalması və normal həyata qayıtması üçün nə mümkündürsə edir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva bir çox ali mükafata, orden və medallara layiq görülüb. Lakin onun “Heydər Əliyev” ordeni ilə təltif edilməsi xüsusi önəm daşıyır.

Milli-tarixi köklərimizə, bəşəri keyfiyyətlərə daim sadiq qalan respublikanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın vətənimizin və xalqımızın taleyində bundan sonra da misilsiz rolu olacağına, ölkəmizin inkişafına yeni və davamlı töhfələr verəcəyinə inamımız böyükdür. Bu inamı yaradan başlıca səbəb isə onun hər zaman dövlətçiliyimizə, xalqımıza xidmət etmək istəyi, arzusudur. Biz bu yolda ona uzun ömür, can sağlığı və böyük uğurlar arzulayırıq.

## Dövlət və xalq üçün layiqli xidmət nümunəsi

***Novruzəli ASLANOV,***
*Milli Məclisin deputatı, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti:*

- 2016-cı ilin Konstitusiya islahatlarından sonra hüquqi normaya çevrilən birinci vitse-prezident vəzifəsinə Mehriban Əliyevanın təyin olunması bütün Azərbaycan xalqının ürəyindən xəbər verən bir siyasi qərar kimi tarixə düşdü. Ölkə vətəndaşlarının böyük rəğbətlə qarşıladıqları bu təyinat respublikamızda aparılan islahatların məntiqi davamı olmaqla ölkədə yeni bir tarixi reallığın başlanğıcını qoydu.

Bu reallığın xarakterini və Azərbaycanın gələcəyi üçün yaratdığı möhtəşəm perspektivləri isə təbii ki, Mehriban Əliyevanın mənəvi keyfiyyətləri, Azərbaycan xalqına və dövlətinə olan sevgisi, indiyə qədər daşıdığı bütün vəzifələrdə cəmiyyətimizə, bəşəriyyətə qazandırdığı nailiyyətlər təyin edirdi. Hər şeydən öncə, Azərbaycan və eləcə də dünya ictimaiyyəti Mehriban Əliyevanı böyük xeyriyyəçi kimi tanıyır. Hələ 2004-cü ildə Heydər Əliyev Fondu yaranarkən insanlara qayğı və təmənnasız xidmət amalını prioritet elan edən Mehriban Əliyeva öz səylərini əhalinin aztəminatlı təbəqələrinə, xəstə və valideyn himayəsindən məhrum olunmuş uşaqlara, qocalara kömək göstərilməsinə yönəltdi. Eyni zamanda respublikamızda geniş vüsət almış məktəb və xəstəxana tikintisində, uşaq evlərinin və bağçalarının, internat məktəblərinin yenidən qurulmasında, tarixi və dini abidələrin bərpasında Mehriban Əliyevanın əzmkarlığına, onun İlham Əliyevin sosial siyasətinin daha böyük uğur qazanmasına xidmət edən əsl vətəndaşlıq missiyasına xalqımız şahidlik etdi.

Bu sırada 2005-ci, 2010-cu və 2015-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilən Mehriban Əliyevanın fəaliyyəti vətəndaş etimadına layiq olmağın bariz nümunəsidir. Seçicilərə diqqət və qayğı göstərən, təmsil etdiyi ərazilərin sosial problemlərinin həlli yönündə gördüyü misilsiz işlərlə əsl millət vəkilliyinin nümunəsini yaradan Mehriban Əliyeva həmçinin Milli Məclisin müzakirələrinə təqdim etdiyi layihələrlə qanunvericiliyimizin təkmilləşməsinə böyük töhfələr verdi. Mehriban Əliyevanı xarakterizə edən digər mühüm göstəricilərdən biri milli-mənəvi dəyərlərimizin qorunmasına və dünyada təbliğinə böyük önəm verməsidir.

Azərbaycan Gimnastika Federasiyasının prezidenti, Milli Olimpiya Komitəsinin və İcraiyyə Komitəsinin üzvü kimi Mehriban xanım Əliyevanın Azərbaycan idmanının inkişafında da böyük rolu var. 2012-ci ildə “Eurovision” mahnı müsabiqəsinin, 2015-ci ildə I Avropa Oyunlarının ölkəmizdə yüksək səviyyədə keçirilməsi bu mühüm tədbirlərin Təşkilat Komitəsinin rəhbəri kimi Mehriban Əliyevanın gərgin zəhmətinin, yüksək təşkilatçılıq qabiliyyətinin, ölkə başçısının böyük əminliklə ona həvalə etdiyi mühüm vəzifəni qısa müddətdə layiqincə yerinə yetirməsinin nəticəsi idi. O, 2017-ci ildə ölkəmizdə keçirilən IV İslam Həmrəyliyi Oyunlarının təşkilinə hazırlıq işlərini də eyni məsuliyyətlə yüksək səviyyədə həyata keçirərək ideal təşkilatçılıq nümunəsini ortaya qoydu.

4 il əvvəl Mehriban Əliyevanın Birinci vitse-prezident vəzifəsinə təyinatı ümumxalq rəğbətindən, cəmiyyətin sosial sifarişindən irəli gələn bir qərar idi. Bu təyinat eyni zamanda islahatlar prosesinə böyük dəstək ola biləcək Mehriban xanımın peşəkar imkanlarından dövlət idarəçiliyində də istifadə zərurətindən irəli gəlirdi. Aradan ötən illər göstərir ki, Mehriban Əliyeva bu missiyanı uğurla, inamla və layiqincə daşıyır, gördüyü işlərlə Heydər Əliyev ideyalarının həyata vəsiqə almasına, İlham Əliyevin siyasi kursunun zəfər çalmasına ən layiqli töhfələri verir.

4 il əslində o qədər də böyük zaman kəsiyi deyil. Amma 4 ildə Mehriban Əliyevanın Birinci-vitse prezident kimi gördüyü işlər olduqca çoxşaxəlidir. Bu vəzifədə də Mehriban Əliyeva diqqətini hər şeydən əvvəl vətəndaşların az təminatlı hissəsinə, o cümlədən Ermənistanın işğalı nəticəsində vaxtilə torpaqlarından məcburi köçkün düşmüş vətəndaşların yaşayış şəraitinin yaxşılaşdırılmasına yönəltdi. 4 ildə Mehriban Əliyeva xarici ölkələrə səfərləri, keçirdiyi görüşlər və beynəlxalq təşkilatların tədbirlərində iştirakı zamanı Azərbaycanın milli və dövlət maraqlarını layiqincə təmin etdi.

Ötən ilin ən böyük hadisəsi olan 44 günlük Vətən müharibəsində Azərbaycan xalqı İlham Əliyevin rəhbərliyi ilə işğal altındakı torpaqlarını azad etdi. Hazırda dövlət başçısının qarşıya qoyduğu əsas vəzifə Qarabağ torpaqlarının dirçəldilməsidir. Fərəhli haldır ki, xalqımız bu məsələdə də Mehriban Əliyevanın əsl vətəndaşlıq missiyasını görməkdədir. Hələ ötən ilin dekabrında Mehriban Əliyeva Heydər Əliyev Fondunun Qarabağ torpağında dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başladığını qürur hissi ilə bəyan etdi. Bir zamanlar ermənilərin vəhşicəsinə dağıtdığı müqəddəs dini məkanlarımız Heydər Əliyev Fondu tərəfindən qısa müddətdə yenidən bərpa ediləcək.

Onu da qeyd edim ki, kimsəsizlərin, ahılların, xüsusi həssas əhali qruplarından işlər ictimaiyyətə yaxşı tanış idi. 2004-cü ildə yaradılan və həyata keçirdiyi proqramlarla qısa müddətdə respublikamızı dünyada tanıdan, Azərbaycan həqiqətlərini inamla beynəlxalq ictimaiyyətə çatdıran, milli mədəniyyətimizin təbliğinə layiqincə xidmətlər göstərən, insanların ümid yerinə çevrilən Heydər Əliyev Fondunun geniş spektri əhatə edən fəaliyyətinin əsasında məhz Mehriban Əliyevanın əzmkarlığı, təşəbbüskarlığı dayanır. Gördüyü işlərlə Ulu Öndər Heydər Əliyevin ideyalarının həyata vəsiqə almasına vəsilə olan fond məhz Mehriban Əliyevanın sayəsində insanlara kömək etməyi, problemlərinin həllində dəstək olmağı özünün başlıca fəaliyyət prioritetinə çevirib. Xeyriyyəçiliyi, uşaqlara, tənha və yaşlılara, həssas qruplara qayğı və köməyi, müxtəlif sosial və humanitar aksiyalar keçirməyi fond öz fəaliyyətinin prioritet istiqamətləri hesab edir.

Təsadüfi deyil ki, ötən ilin fevral-mart aylarında Azərbaycanda koronavirus infeksiyasının qeydə alınmasından sonra ilk sosial layihələr Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilmişdi. Məlum olduğu kimi, sərt karantin dövründə bir sıra məhdudiyyətlər tətbiq olunmuş, xüsusi risk qrupuna daxil olan vətəndaşların evdən çıxmaları qadağan olunmuşdu. Həmin günlərdə yaşlı və tənha vətəndaşların köməyinə ilk olaraq Heydər Əliyev Fondu gəldi. Mehriban Əliyevanın göstərişləri ilə Heydər Əliyev Fondu tərəfindən on minlərlə ailəyə ərzaq bağlamaları göndərildi.

Mehriban Əliyevanın Birinci vitse-prezident kimi ilk vaxtlardan ortaya qoyduğu fəaliyyət sosial məsələləri əhatə etmişdi. Birinci vitse-prezident xanım Mehriban Əliyevanın sədrliyi ilə keçirilən müşavirə Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış məcburi köçkün ailələrinin yeni mənzillərə köçürülməsinə həsr olunmuşdu. Qısa müddətdə “Qəzalı vəziyyətdə olan binalarda məskunlaşmış məcburi köçkün ailələrinin yeni mənzillərlə təmin olunması” layihəsi çərçivəsində minlərlə məcburi köçkün ailəsi yeni mənzillərlə təmin edilmişdi.

Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilən başqa bir sosial layihə 2016-cı ilin Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi ilə bağlı idi. Layihə çərçivəsində Aprel döyüşlərində sağlamlıqlarını itirmiş hərbçilərimiz yüksək texnologiyalara əsaslanan protezlərlə təmin olundular. Ən mühümü odur ki, bu zaman əlil olmuş hərbçilərimiz üçün protezlər onların hər birinə fərdi yanaşma əsasında hazırlanmışdı.

2020-ci il Azərbaycan üçün tarixi dövr oldu. Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə qəhrəman Ordumuz torpaqlarımızı işğaldan azad edərək dövlətçilik tariximizin şərəfli səhifəsini yazdı. Azərbaycan xalqı 44 günlük müharibədə öz Prezidentinin qətiyyətini, yenilməzliyini gördü. Elə bu amil bizi sürətlə böyük Qələbəyə apardı. Eyni zamanda Azərbaycan xalqı müharibə günlərində və Qələbədən sonrakı dövrdə bir daha Birinci vitse-prezident Mehriban Əliyevanın yüksək vətənpərvərlik hisslərinin və daşıdığı dövlətçilik ideallarının şahidi oldu. Şəhər və rayonlarımızın azad olunduğu günlərdə xalqa təbrikləri, o cümlədən Prezident İlham Əliyevlə birlikdə azad olunmuş rayonlarımıza səfərlər etməsi Mehriban Əliyevanın vətən sevgisinin göstəriciləridir. Mehriban Əliyevanın təşəbbüsləri ilə Heydər Əliyev fondu bu gün Qarabağın yenidən qurulmasında da fəaliyyətə başlayıb. Artıq Fond tərəfindən azad olunmuş ərazilərdəki tarixi və dini abidələrimizin bərpası üzrə layihəyə start verilib. Şuşa şəhərində və Ağdam rayonunda dağıntılara məruz qalmış dini ibadət yerlərinin bərpası üzrə müvafiq işlərə artıq başlanılıb.

Eyni zamanda Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu bu gün Vətən müharibəsində iştirak edənlərə dövlət qayğısı siyasətinə dəstək missiyasını da davam etdirir. Bu günlərdə bir neçə müharibə qazisinin müalicədən ötrü Türkiyəyə göndərilməsi qəhrəman hərbçilərimizin normal həyata qayıdışı üçün Mehriban Əliyevanın göstərdiyi həssas münasibətin təsdiqi oldu.

Azərbaycan öz inkişafının yeni mərhələsinə qədəm qoyur. Bu inkişafı şərtləndirən amillər Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsi və pandemiyanın öz sonuna yaxınlaşmasıdır. Prezident İlham Əliyev növbəti 10 ili əhatə edən milli prioritetləri də təsdiq edib. Bu mənada qarşıda bizi həm məsuliyyətli, həm də şərəfli bir dövr gözləyir. Şübhə yoxdur ki, Birinci vitse-prezident Mehriban Əliyeva öz missiyası ilə bu dövrün inkişaf proseslərinə özünün layiqli töhfələrini verəcək.

Vitse-prezidentlik institutu Azərbaycan üçün yeni bir təcrübə olsa da, Mehriban Əliyeva ilk gündən bu vəzifəni layiqincə yerinə yetirir. Gördüyü işlərlə, həyata keçirdiyi sosial layihələrlə o, idarəçilikdə daha səmərəli fəaliyyət üsullarının tətbiqi, vətəndaşlar qarşısında dövlətin öhdəliklərinin keyfiyyətli və çevik icrasının yeni mexanizminin qurulması baxımından vitse-prezidentlik institutunun effektivliyini təsdiq etdi.

## Mehriban Əliyeva vitse-prezidentlik institutunun effektivliyini təsdiq etdi

***Nəsib MƏHƏMƏLİYEV,***
*Milli Məclisin deputatı:*

- 2017-ci il fevral aynın 21-də Prezident İlham Əliyevin sərəncamı ilə Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban Əliyevanın respublikamızın Birinci vitse-prezidenti təyin edilməsi Azərbaycan ictimaiyyətini sevindirən bir hadisə oldu. Bu, ictimaiyyət tərəfindən təqdir olundu və hər bir vətəndaşımız əmin idi ki, Mehriban Əliyeva tarixin, zamanın, dövlətimizin onun üzərinə qoyduğu bu məsul vəzifəni də layiqincə və böyük nailiyyətlərlə həyata keçirəcək.

Mehriban Əliyevanın buna qədər Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun rəhbəri kimi gördüyü olan hər kəsin güvənc yeridir Mehriban xanım. İnsanlar ona inanır, hər hansı problemləri ilə bağlı ünvanına ürəklə, ümidlə üz tuturlar. Mehriban xanımın xeyirxah, humanist obrazı xalqımız tərəfindən yüksək qiymətləndirilir, o cümlədən bu misilsiz fəaliyyət sənət adamlarının yaradıcılıq nümunələrində əksini tapır. Yüz minlərlə insanın bu böyük şəxsiyyətə rəğbətini, ehtiramını mən də hələ 2004-cü ildə sözləri Gülnur Aslana məxsus “Mehriban insan” əsərini bəstələməklə ifadə etmişəm.

Mehriban Əliyeva Prezident İlham Əliyevin ölkəmizin yüksəlişi üçün qarşıya qoyduğu strateji hədəflərin əldə olunmasına bundan sonra da böyük töhfələr verəcək. Bu yolda Mehriban Əliyevaya uğurlar arzulayıram.

## Fəal dövlətçilik və əsl vətəndaşlıq mövqeyinə söykənən missiya

***Müşfiq MƏMMƏDLİ,***
*Milli Məclisin deputatı:*

- Azərbaycanın yüksəlişi, dünya birliyində layiqli yer tutması, Cənubi Qafqazın lider dövlətinə çevrilməsi Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin uğurlu nəticələridir. Bu siyasətin ən böyük uğuru 44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi, Azərbaycanın ərazi bütövlüyünün bərpası oldu.

Bu uğurlar hər birimizi sevindirir və qürurlandırır. İndi onun davamlı olmasını arzulayırıq. Ona görə hər kəsin qarşısında dayanan mənəvi öhdəliklərdən biri respublikamızın yüksəlişini təmin edən siyasi kursa dəstək verməkdir. Bu şərəfli vəzifələr naminə çalışmaq, əlindən gələni etmək hər birimizin vətəndaşlıq borcudur. Bu baxımdan öz əməlləri ilə xalqımızın dərin etimadını qazanmış Birinci vitse-prezident xanım Mehriban Əliyevanın gördüyü işlər hər birimiz üçün nümunədir.

Fevralın 21-də Mehriban Əliyevanın Birinci vitse-prezident kimi fəaliyyətə başlamasının 4-cü ili tamam olur. 2017-ci ildə bu vəzifənin icrasına başlayarkən hər kəs əmin idi ki, Mehriban Əliyeva yeni missiyasında da dövlətimizə və vətəndaşlarımıza layiqli xidmətin nümunələrini yaradacaq. Çünki ona qədər Azərbaycan ictimaiyyəti Mehriban Əliyevanı məhz vətəndaşların yanında, onların əhatəsində görmüşdü. Həm Heydər Əliyev Fondunun Prezidenti, həm də Milli Məclisin deputatı kimi Mehriban Əliyeva öz fəaliyyətini ilk növbədə ehtiyacı olanlara, müxtəlif xəstəliklərdən əziyyət çəkənlərə, tənha və yaşlılara kömək etməyə, onlara qayğı göstərməyə, xeyriyyəçiliyə həsr etmişdi.

Ən əsası odur ki, Mehriban Əliyevanın fəaliyyəti hər bir məqamı ilə Prezident İlham Əliyevin sosial siyasət xəttinə böyük dəstək verir. 2004-cü ildən sonra Mehriban Əliyevanın prezidenti olduğu Heydər Əliyev Fondunun xətti ilə xəstəxanaların, müxtəlif təyinatlı tibb ocaqlarının, orta məktəblərin, uşaq bağçalarının inşası ölkəmizdə sosial siyasətin qarşısında duran vəzifələrin daha sürətlə yerinə yetirilməsinə böyük töhfədir.

Birinci vitse-prezident kimi Mehriban Əliyeva diqqətini ilk növbədə qayğıya ehtiyacı olan əhali qruplarının sosial problemlərinin həllinə yönəltdi. Bakıda və Sumqayıtda məskunlaşmış xeyli sayda məcburi köçkün ailəsi məhz Mehriban Əliyevanın təşəbbüsü və dəstəyi ilə yeni mənzillərlə təmin olundular. Ümumiyyətlə, ötən 4 il ərzində ölkə ictimaiyyəti Mehriban Əliyevanı mütəmadi olaraq həssas əhali qruplarının yanında gördü.

Dövlətimiz və xalqımız bir çox tarixi sınaqdan çıxıb. Bir ildir davam edən koronavirus pandemiyasına dövlətimizin həyata keçirdiyi məqsədyönlü tədbirlər sayəsində tezliklə son qoyulacaq. Azərbaycan ictimaiyyəti koronavirusla mübarizə tədbirlərinin önündə ilk gündən Prezident İlham Əliyevlə yanaşı, Mehriban Əliyevanı da gördü. Xaricdə təhsil alan azərbaycanlı həkimlərin mübarizə tədbirlərinə cəlb olunmasında, eləcə də xarici həkimlərin Azərbaycana dəvət edilməsində, respublikamıza süni nəfəs aparatlarının, təcili tibbi yardım avtomobillərinin alınıb gətirilməsində, həmçinin Cənubi Qafqazda ilk olaraq vaksinasiyanın məhz Azərbaycanda tətbiqində Mehriban Əliyevanın rəhbəri olduğu Heydər Əliyev Fondunun xidmətləri əvəzsizdir.

Vətən müharibəsi günlərində isə xalqımız Mehriban Əliyevanın fəal və əsl vətəndaşlıq mövqeyinin şahidi oldu. Bu tarixi sınaqların hər biri göstərdi ki, respublikamızın Birinci vitse-prezidenti Mehriban Əliyevanın məramı dövlətə və xalqa layiqincə xidmət etrməkdir.

İndi Azərbaycan öz inkişafının yeni mərhələsinə qədəm qoyur və qarşıda bizi möhtəşəm uğurlar gözləyir. Hazırda işğaldan azad olunmuş torpaqlarımız yenidən qurulur. Əminik ki, Mehriban Əliyeva İlham Əliyevin ən yaxın silahdaşı olaraq öz fəaliyyəti ilə respublikamızın yüksəlişinə, o cümlədən Qarabağın dirçəlişinə özünün layiqli töhfələrini verəcək.

***Rəşad CƏFƏRLİ,***
***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# Mehriban xanımın mənəvi övladları Vətən savaşının da qəhrəmanları oldu

## Birinci xanımın şəfqəti, qayğısı ilə yeni həyat qazanan, ailə quran, ev sahibi olan İbrahim Abzatov Vətən müharibəsində böyük şücaətlərə imza atdı









**Bayaqdan bəri beşikdə mışıl-mışıl yatan və gördüyü hansısa şirin röyanın təsirindən gülümsəyən körpə qızına baxırdı. Səsini çıxarmağa, tərpənməyə, bu xoşbəxt anı pozmağa qorxur, tamaşa etdiyi mənzərəni, qızını, onun sevimli cizgilərini gözlərinə, ürəyinə bir daha silinməyəcək şəkildə həkk etməyə çalışırdı.**

*Və birdən ona illər uzunu kimi görünən bu qısa anın ağır məngənəsindən ayrılaraq körpəyə tərəf əyildi, "bəlkə də sənə verdiyim sözü tuta bilmədim, bağışla məni, qızım..." deyə titrək səslə pıçıldayıb sürətli addımlarla qapıya yönəldi...*

*"İlahi, mənim yaşadığım acı taleyi qızımadamı yazmısan? Körpə yaşda odamı valideyn həsrətinin ağır yükünü çiyinlərində daşıyacaq? Hər açılan qapının arxasında gözləri elə hey kimisə axtaracaq, şəkillərləmi ovudacaq ata özləmini?"*

*Səhərin alaqaranlığında yatmış şəhərin sükuta qərq olmuş küçələri ilə beynini qamçılayan və dayanmadan amansızcasına təkrarlanan bu fikirlərlə döyüşə-döyüşə dəli xəzan küləyinin ahənginə qoşulub, verdiyi qəti qərarın arxasınca tərəddüdsüz irəliləyirdi...*

*Və ailəsindən, qızından addım-addım uzaqlaşdıqca yolboyu indiyə qədər yaşadığı nisgilli ömür yolu gözlərinin önündə vərəqlənirdi 1 saylı uşaq evində böyüyən və Vətən müharibəsinə könüllü yollanan İbrahim Abzatovun...*

### Biz də atalı-analı uşaqlar kimi döyüşə birinci yollanmalıyıq...

*...İbrahim dil açandan Vətənə "ana" demişdi. Elə buna görə idi ki, "mənə analığı da, atalığı da bu Vətən edib, indi onun harayına yetmək vaxtıdır" söyləmiş, qızı körpə Əminənin də onun kimi valideynsiz qala biləcəyi ehtimalını belə gözlərinin önünə alıb, heç düşünmədən Vətən müharibəsinə, ön səngərə yollanmış, "bu torpağa, bu xalqa, bu dövlətə borcumu ödəməyin zamanıdır" düşünmüşdü...*

Hərbi komissarlıqda kimsəsiz olduğu üçün qismən səfərbərlik dövründə müharibəyə getməyə biləcəyini ona dedikdə isə bu fikirlə razılaşmamış, israrla döyüşə yollanmaq istəyini bildirmişdi. Demişdi ki, biz - uşaq evində böyüyənlər digər valideynli uşaqlardan heç nə ilə fərqlənmirik: "Həyatımızın bütün dönəmində dövlətin himayəsində olmuşuq. Vətənimizə layiqli vətəndaş kimi yetişmək üçün bizə hər cür şərait yaradılıb. Ən ümdəsi isə daim Mehriban xanım Əliyevanın qayğısını duymuşuq, onu "mənəvi ana"mız bilib kimsəsizliyimizi heç zaman hiss etməmişik... Buna görə də biz uşaq evinin sakinləri də digər atalı-analı uşaqlar kimi döyüşə birinci yollanmalıyıq..."

### Mehriban xanımın "mən sizin ananızam" sözü bizi yaşadır, ruh verir, həyata bağlayırdı...

*1989-cu ilin yanvarında Bakıda dünyaya göz açan İbrahimin qismətinə cəmi 10 ay ana qayğısı görmək düşmüşdü. Nitq qüsurlu olan anası tək olduğu və heç yerdə işləmədiyi üçün oğlunu Bakıda yerləşən körpələr evinə qoymağa məcbur olmuşdu. Beləliklə, 3 yaşına qədər orada qaldıqdan sonra uşaq evinə təhvil verilən körpə İbrahim həyat yolunda tənha addımlamağa, uşaq evinin digər körpə sakinləri kimi gözləri yolda, qulaqları səsdə, ürəyinin dərinliyində kimsəsizliyin soyuq ürpərtisi, gələcəklə bağlı əndişələrlə böyüməyə başlamışdı.*

*Amma tale bəxtlərinə kimsəsizliyi yazsa da, bu körpələri ümidsiz, köməksiz də qoymamışdı. Məramı Azərbaycandakı bütün uşaqları xoşbəxt görmək olan Mehriban xanım Əliyeva idi uşaq evinin bütün sakinlərinin hamisi...*

Onlar tək, kimsəsiz deyildilər. Əlamətdar günlərdə sevinclərini bölüşən, nailiyyətlərinə qiymət verən, xoş günlərində qol götürüb oynayan, gələcək həyatda uğurlara səsləyən, onlara dəstək olan insan vardı...

Elə İbrahimin də kimsəsiz uşaq dünyasının rəngarəng olmasının, özünü arxalı-dayaqlı hiss etməsinin səbəbkarı Birinci xanım idi.

- Mehriban xanımın bizim uşaq evinə ilk dəfə gəldiyi vaxtdan xeyli zaman ötüb, amma o gün indiki kimi yadımdadı. Mehriban xanım gəlişi ilə valideyn həsrətimizə son qoydu, kimsəsizliyimizi unutdurdu. Elə bil nağıl dünyasına düşmüşdük, o qədər sovqat, oyuncaq gətirmişdi ki...

Təəssüratlarımız çox zəngin idi. Hətta günlərlə, həftələrlə, aylarla danışırdıq ki, cənab Prezidentin xanımı məhz bizim görüşümüzə gəlib. Və bu gəliş bir dəfə yox, davamlı oldu. Elə olurdu ki, ildə 3-4 dəfə bizə baş çəkirdi. Birlikdə oturub çay içir, söhbət edir, bir valideyn kimi bizimlə maraqlanırdı. Bəzən hətta unudurduq ki, valideynimiz yoxdur... Sanki biz Mehriban xanımın övladlarıydıq.





O özü bizə deyirdi ki, mən sizin ananızam. Biləsiniz ki, bu söz idi bizi yaşadan, bizə ruh verən, həyata bağlayan...

Mehriban xanım bizə ana qayğısı göstərdi, öz övladları kimi qəbul etdi. Bu günə qədər də özümü tək, atılmış hiss etməmişəm...

Birinci xanım uşaq evinə qonaq gələndə onu müxtəlif rəqs və mahnılarla qarşılayırdıq. Bir dəfə bal rəqsi oynayırdım. Daha sonra isə keçib xalçaçılıq otağında xalça toxumağa başladım. Rəssamlıq əl qabiliyyətim olduğu üçün çəkdiyim rəsmləri sərbəst şəkildə ilmələrə köçürə bilirəm. Mehriban xanım məni orada da gördükdə müdiriyyətimizdən soruşmuşdu ki, "bu, bayaq rəqs edən oğlandır?" "Hə" cavabı alandan sonra isə demişdi ki, "bu oğlanın gələcəyi parlaqdır. Həqiqətən istedadlı bir insan olacaq..."

Çox sevinmiş, qürurlanmışdım ki, Mehriban xanım məhz mənim haqqımda belə gözəl ifadə işlədib...

### Həyatımızda ən böyük dəstəkçi Mehriban xanım olub

İbrahim deyir ki, həyatının bütün mərhələlərində daim Mehriban xanım Əliyevanın, Heydər Əliyev Fondunun dəstəyini görüb. Nizami rayonunda Heydər Əliyev Fondunun təşəbbüsü ilə valideyn himayəsindən məhrum olan gənclər üçün inşa edilmiş yaşayış binasında mənzillə təmin olunub, hazırda Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyində işləyir.

Xüsusi bir nüansı qeyd edək ki, İbrahimin sevib-seçdiyi, könül verdiyi Yasəmən də onunla bərabər uşaq evində böyüyüb. Kiçik yaşlarından atasını itirdiyi və ailələrinin maddi vəziyyəti çətin olduğu üçün Yasəmənin anası məcbur olub onu 6 yaşından 1 saylı uşaq evinə, dövlətin himayəsinə verib.

Yasəmən söyləyir ki, əvvəllər onu uşaq evinə qoyduğu üçün ürəyində anasını qınasa da, sonradan o dövrdə yaşadıqları həyatın reallığını dəyərləndirib və anlayıb ki, bəlkə də onun üçün beləsi daha məsləhətli olub: "Yaxşı ki anam bu gücü özündə tapıb, məni uşaq evinə, dövlətin qayğısına verib. O çətinliklərlə açıq cəmiyyətdə böyüsəydik, həyatımız daha ağır olardı".

İbrahim kimi Yasəmən də daim vurğulayır ki, həyatının ən böyük dəstəkçisi Mehriban xanım olub. Hansı çətinliyi olubsa, başını çevirəndə hər zaman arxasında onu görüb. Mehriban xanım işlərinin çox olmasına, zamanının darlığına baxmayaraq, dəstəyini heç zaman əskik etməyib. Ona dayaq olub, təhsil almağa təşviq edib: "Hətta ali təhsil almasaydım belə uşaq evində bizə öyrədilən peşələrlə həyatımı normal şəkildə qura bilərdim. Məsələn, yaxşı aşpaz, toxucu, saç ustası ola bilərdim".

Taleyindən söhbət açdığımız bu iki kimsəsiz gəncin xoşbəxt yuva qurmasında da Mehriban xanım Əliyeva köməyini əsirgəməyib. Uşaq evinin sakinləri İbrahim və Yasəmənin toyunun bütün xərcləri Heydər Əliyev Fondu tərəfindən ödənilib, toyda Mehriban xanım gəncləri bir daha sevindirərək onlara avtomobil hədiyyə edib...



Gənc Abzatovlar deyir ki, uşaq evində gördükləri qayğı, sevgi oranı tərk etdikdən sonra da bitməyib, əksinə, ikiqat artıb. Heydər Əliyev Fondundan mütəmadi olaraq hər biri ilə maraqlanır, işlərində hansısa çətinliklərin olub-olmamasını soruşurlar.

Onlar isə göstərilən bütün bu dəstəyə, köməyə, mənəvi dayağa görə hər zaman özlərini xalqımız, dövlətimiz qarşısında borclu hiss edib, minnətdarlıqlarını bildirmək üçün gücləri çatan qədər nə isə etməyə çalışıblar...

### İki seçimi vardı: ya ana vətəni, ya da övladı

*Elə Vətən müharibəsinin başlamasını bunun üçün ən gözəl fürsət kimi dəyərləndirən İbrahim qəlbindəki "ya ana vətənin, ya da övladın" seçimindən heç tərəddüdsüz birinciyə üstünlük vermişdi... Sonradan həyat yoldaşının bu qərarını öyrənən Yasəmən də mətinliklə ona dəstək olmuş, "gözün arxada qalmasın" söyləmişdi...*

- Sentyabrın 29-da qismən səfərbərlik elan olunduqdan sonra evdən xəbərsiz hərbi komissarlığa yollandım. Dedim ki, top komandiri olmuşam, rütbəm var, çavuşam, Vətənim uğrunda döyüşə getmək istəyirəm. Müharibəyə yollanmaq üçün dəfələrlə müraciət etdim. Orada bir zabit uşaq evində böyüdüyümü və tək oğul olduğumu bilirdi. Dedi ki, hələlik qismən səfərbərlik olduğu üçün sən getməyə bilərsən.

Amma sentyabrın 29-dan oktyabrın 4-dək hər gün komissarlığa gedib soruşurdum ki, məni nə zaman ön cəbhəyə göndərəcəksiniz? Nəhayət, oktyabrın 5-i zəng gəldi ki, artıq istəyiniz qəbul olub, yaxınlaşın hərbi komissarlığa, döyüşə yollanırsınız. Ertəsi gün səhər saat 5-də hazırlaşıb yola düşdüm.

Əvvəlcə Gəncəyə getdik və orada bölmələrə ayrıldıq. Mən Kəlbəcər-Murov istiqamətində "N" saylı hərbi hissəyə düşdüm. Toğanaya gedib, oradan da Murovun Ömər aşırımı deyilən yerində döyüşlərə qatıldıq. Artilleriyaçı, top komandiri idim və 8 nəfər də əsgər heyətim vardı. Verilən döyüş tapşırığını layiqincə yerinə yetirmək üçün cidcəhdlə çalışır, düşməni dəqiq atəşlə məhv etməyə can atır və bunu bacarırdıq da. Düşmənin külünü göyə sovururduq.

Onlar da bizi artilleriya atəşinə tuturdular. Elə vaxtlar olurdu ki, üzərimizə mərmi yağışı yağırdı. Sağımızda, solumuzda, önümüzdə, arxamızda dəhşətli partlayışlar olurdu...

Amma tam mübaliğəsiz deyirəm ki, bütün bunlar bizi nəinki qorxudurdu, əksinə, ikiqat qəzəblə onları məhv etməyə sövq edirdi. Ermənilər xeyli itki verirdi. Onlar ordumuzdan, döyüşçülərimizdən, atdığımız mərmilərdən qorxurdular, səngərlərində tir-tir titrəyirdilər. Bunun isə bir səbəbi var idi, ermənilərin gözündə bu yerlər sadəcə yanmış torpaq idi, biz isə yanmış olsa belə hər qarışı üçün ölməyə hazır olduğumuz doğma ana torpaq uğrunda vuruşurduq.

Orada yaxın olduğum döyüş yoldaşlarım var idi, Vüqar, Vüsal, Türkel, Emin, Elçin... Biz özümüzə "5 üstəgəl" deyirdik, yəni 5 çavuş, bir əsgər. Hər dəfə döyüşə yollananda böyük əhvali-ruhiyyə ilə gedir, yolboyu "Uzaq sahillərdə" filmindəki "Partizanlar" mahnısını oxuyurduq...

"Bizim günəş, bizim dağlar, bizim dəniz, qurtararıq əsirlikdən sizi biz. Partizanlar!.."

Sanki bu mahnı bizə əlavə güc verirdi...

Bunlarla yanaşı, ölümün də hər an yaxınlığımızda dolaşdığını bilirdik. Döyüşçü yoldaşlarım mənə deyirdilər ki, "İbrahim, sən soyuqqanlısan, şəhid olsaq, ailəmizə ilk sən xəbər verərsən..."

Amma kim bilir, bəlkə elə mən özüm onlardan əvvəl şəhid olacaqdım...

Bilirsiniz, müharibə tamam başqa dünyadır və burada düşməni məhv etməkdən, torpaqlarımızı azadlığa qovuşdurmaqdan doğan qələbə sevincini, çiyin-çiyinə vuruşduğun döyüşçü yoldaşlarının gözünün qarşısında şəhid, qazi olmasından doğan hüzn, kədər hissi ilə bir yerdə yaşayırsan. Və hər an özünün də şəhid, qazi ola biləcəyini bilirsən, amma bundan qorxmursan. Çünki alın yazısı deyilən bir şey də var. Kimin alnına bu vətən uğrunda şəhid olmaq yazılmışdısa, o, bu zirvəyə ucaldı. Görünür, şəhidlik mənim qismətim deyilmiş...

### Qızıma söz vermişdim ki, mən dünyanın ən yaxşı atası olacağam...

*Noyabrın 10-da müharibənin bitməsi ilə bağlı müqavilə imzalanandan sonra İbrahimgilə bildirirlər ki, könüllü minaaxtaranlar lazımdır. O, bu vəzifənin çox təhlükəli olduğunu bilə-bilə "Vətənin mənə ehtiyacı var" deyib irəli çıxanlardan biri olur.*

- Bizə 10 gün kurs keçdilər və noyabrın 26-dan etibarən Kəlbəcər ərazisini minalardan təmizləməyə başladıq. Düşmənin murdar ayağını torpağımızdan qazıyıb atdığımız kimi, indi də vətənimizin bağrına sancdıqları namərd tələlərini, minalarını təmizləyib atırdıq.

Dekabrın 2-də Ali Baş Komandanın imzaladığı əmrə əsasən, həmin ayın 15-də tərxis olunaraq evə qayıtdım.

Evə gələndə əvvəlcə qızım məni tanımadı, sonra isə saatlarla qucağımdan düşmürdü, qorxurdu ki, yenə gedərəm...

Onu da deyim ki, müharibəyə yollananda bilirdim ki, gedib dönməmək də var, amma beynimdə, ürəyimdə heç bir tərəddüd yox idi. Sadəcə qızımla vidalaşanda kövrəlmişdim. O, yatmışdı, heç oyandırmağa da qıymadım. Üzündən öpüb yavaşca dedim ki, "bəlkə də sənə verdiyim sözü tuta bilmədim, bağışla məni, qızım..."

Özüm valideynsiz böyüdüyüm üçün belə həyatın necə ağrı-acılı olduğunu bilirdim. Elə buna görə də Əminə dünyaya gələndə ona bir söz vermişdim: "Mən dünyanın ən yaxşı atası olacağam"...

Mən onu atalı-analı böyütmək, xoşbəxt görmək istəyirdim. Allahıma şükür olsun ki, geri döndüm, öz arzularıma, Əminəyə verdiyim o sözü tutmaq üçün qayıtdım...

### Uşaqlar atasız-anasız böyüyə bilər, amma Vətənsiz yox!

- Dövlətim məni böyüdüb, yedirib, içirib, əziyyətimi çəkib. Yəni uşaq evində keçirdiyim 19 il ərzində daim qayğı ilə əhatə olunmuşam. İndi isə mənə çəkilən bu əziyyətin hədər getmədiyini sübut etməyin vaxtı idi. Bilirdim ki, ölümə gedirəm, qızım da mənim kimi valideynsiz qala bilər. Amma onu da bilirdim ki, uşaqlar atasız-anasız böyüyə bilər, amma Vətənsiz yox! Həm də axı biz - kimsəsiz uşaqların birinci anası Vətəndir.

Elə buna görə də düşünmədən könüllü müharibəyə yola düşdüm, gözüm arxada qalmadı. Əmin idim ki, şəhid olsam belə ailəm, qızım köməksiz, dayaqsız qalmayacaq, daim dövlətimizin himayəsində, Mehriban xanımın diqqətində olacaq. Bax bu güvəndən, bu etimaddan güc alaraq mən də Vətən qarşısında borcumu yerinə yetirməyə tələsdim, düşməndən qisas almağa yollandım. Və bu uğurda bir damla da mənim köməyim oldusa, deməli, dünyanın ən xoşbəxt insanıyam...

*Bəli, nə artıq sözə, nə də əlavə şərhə ehtiyac var...*

*Bircə onu deyə bilərik ki, sən dünyanın ən yaxşı atası, ana Vətənin ən yaxşı övladlarından birisən, İbrahim...*

*Və o da bəlli bir həqiqətdir ki, bu torpağı özünə ana bilən, onun uğrunda canından, qanından, ailəsindən, övladından vaz keçməyə sənin kimi könüllü övladları olan Vətən bölünməz, min illər durduqca var olar...*

*Mehriban xanımın mənəvi övladları Vətən savaşının da qəhrəmanları oldu...*

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***



# Azərbaycana həsr edilən şərəfli missiya

## Mehriban Əliyevanın Birinci vitse-prezident kimi 4 illik nümunəvi fəaliyyəti dünyada uğurlu model kimi qəbul edilir

**Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva çoxşaxəli fəaliyyəti ilə təkcə ölkəmizdə deyil, onun hüdudlarından kənarda da böyük rəğbət və nüfuz qazanıb. Bunun səbəbi heç də tutduğu yüksək vəzifəsi və mövqeyi ilə bağlı deyil. Bu, xalqına, millətinə, dövlətinə bağlı olan müdrik Azərbaycan qadınının əzmkarlığı və humanistliyinin təzahürüdür.**

Mehriban xanım Əliyeva Ümummilli Lider Heydər Əliyevin unudulmaz xatirəsinə böyük ehtiramının ifadəsi olaraq Ulu Öndərin adını daşıyan fondun prezidenti kimi müqayisəyəgəlməz fəallıq və təşəbbüskarlıq nümayiş etdirir. Mehriban xanım Əliyevanın təəssübkeşliyi, Vətənə, xalqa bağlılığı, daim qurub yaratmaq həvəsi ilə yaşadığı, gördüyü işdən mənəvi zövq aldığı rəhbərlik etdiyi Heydər Əliyev Fondunun reallaşdırdığı layihələrdə daha qabarıq şəkildə nəzərə çarpır. Ümumiyyətlə, xeyirxahlıq və humanizm Heydər Əliyev Fondunun istər ölkə daxilində, istərsə də xaricdə həyata keçirdiyi layihələrin əsas qayəsini təşkil edir.

Mehriban Əliyevanın Birinci vitse-prezident təyin olunmasından dörd il keçir. Bu müddətdə Birinci vitse-prezident dövlət başçısının və ona ümid bəsləyən insanların etimadını layiqincə doğruldub. O, əsas diqqətini sosial məsələlərin, əhalinin aztəminatlı təbəqələrinin problemlərinin həlli üzərində cəmləşdirib. Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu dövlətin təhsillə bağlı strategiyasının həyata keçirilməsində yaxından iştirak edir. Fondun bu sahədə gördüyü işlər sırasında "Yeniləşən Azərbaycana yeni məktəb" proqramının müstəsna əhəmiyyəti var. 2003-cü ildən indiyədək ölkədə 3 mindən çox məktəb tikilib və ya yenidən qurulub, geniş bazaya malik təhsil infrastrukturu yaradılıb. Beləliklə, ölkədə təhsilə qayğı, onun maddi-texniki bazasının möhkəmləndirilməsi işi ümummilli səviyyəyə qaldırılıb.

Birinci vitse-prezident Mehriban Əliyevanın 2016-cı il Aprel döyüşləri zamanı Azərbaycan Ordusunun yaralanmış bir qrup əsgər və zabitləri ilə görüşü, döyüşlərdə yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi barədə tapşırıq verməsi indi də məhəbbət hissi ilə xatırlanır. Bu bir daha göstərir ki, onun Vətənə xidmət fəlsəfəsinin təməlində, fəaliyyətinin əsasında mənsub olduğu xalqa, millətə sevgi dayanır.

Vətən savaşında Birinci vitse-prezident Mehriban Əliyevanın "Bu gün mən şəhidlərimizin ailələri ilə birlikdə kədərlənir, Vətən naminə canından keçməyə hazır olan oğullar tərbiyə etmiş valideynlərin qarşısında baş əyirəm. Şəhidlərimizin qanı nahaq yerə tökülmədi - biz tarixi ədaləti bərpa etdik, müqəddəs Qələbə qazandıq. Bu Qələbə xalqımızın tarixinə əbədi həkk olundu!" sözləri qalib xalqın qürurunu daha da möhkəmləndirdi, qazi və şəhid ailələrinin ürəyinə su səpdi. Bəli, biz cənab İlham Əliyev kimi müdrik sərkərdənin, Ali Baş Komandanın rəhbərliyi ilə Qarabağı işğaldan azad etdik, bölgədəki erməni faşizmini məhv etdik.

Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olunmasını şərtləndirən amillər sırasında böyük idarəçilik təcrübəsi və xalqının sevgisini qazanması ilə yanaşı, həm də ölkə Prezidenti İlham Əliyevin ən etibarlı silahdaşı, ən bacarıqlı yardımçısı, ən böyük mənəvi dəstəkçisi olmasıdır.

Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti Azərbaycan xalqının və dövlətinin mənafeyinə xidmət edir. Azərbaycanın Birinci vitse-prezidenti ayrı-ayrı sahələrdə qarşıya qoyulmuş məqsədlərin gerçəkləşdirilməsinə, milli maraqlardan irəli gələn strateji əhəmiyyətli vəzifələrin reallaşdırılmasına xidmət edən səmərəli fəaliyyəti ilə xalqımızın dərin rəğbətini və sevgisini qazanıb. Azərbaycan qadını ölkənin birinci xanımı Mehriban Əliyevanın şəxsində özünə həmişə etibarlı dayaq, əqidə və ideya dostu tapıb.

Onun nəinki ölkəmizdəki, hətta bütün dünyadakı siyasi və ictimai fəallığı Azərbaycan qadınına örnəkdir. Bir sözlə, Mehriban xanım Əliyevanın Birinci vitse-prezident kimi dördillik fəaliyyəti təkcə Azərbaycan üçün deyil, dünya miqyasında model olaraq qəbul və təqdir edilir. Bütün bu uğurların mərkəzində isə xalqın sevgisi, inamı dayanır.

***Səbuhi ABBASOV,***
***Azərbaycan-Slavyan Gəncləri Assosiasiyasının sədri, internet-media eksperti***

# Sən ayrı olmadın eldən-obadan...



*Birinci Xanım, Birinci vitse-prezident*
*Mehriban Əliyevaya*

Çaxdı şimşək kimi, doğdu gün kimi,
Ali Baş Komandan yardı cəbhəni.
Onun dayağıydın
sən bir dağ kimi,
görürdü cəbhə də, səngər də səni...

Şəhid anasını qucaqlayanda,
susdun,
kəlağayı çəkib başına.
Səni doğma bilib o ağlayanda,
qarışdı göz yaşın o göz yaşına...

Sən ayrı olmadın eldən-obadan,
qəlbin sudan duru, Aydan arıydı.
Məscidə gedəndə əlində "Quran",
dilində, -
Tanrının dualarıydı...

Sən ellər anası, əsgər anası,
gəlini - mötəbər bir ailənin.
Həyatın amalı, ömrün mənası,
Tale kitabında
yazıldı sənin.

Bir arzu, bir istək yaşatdı bizi,
sevindi xalqımız, məmləkətimiz.
Muğamdan doğuldun,
İlham pərisi,
"İstiqlal marşı"nı çaldı tarımız.

Kimsəsiz görəndə kimsəsi oldun,
Ümid işığıydı o tanış səsin.
Sən ana,
sən bacı əvəzi oldun,
min qəlbi qızdırdı isti nəfəsin.

Sevinmək - necə də sənə yaraşır,
xeyirxah işlərmi düşür yadına?!
A qızım,
millət də mehribanlaşır,
Mehriban dedikcə sənin adına.

Şərqdə - Şərq ürəkli bir inci oldun,
Avropada isə
Sülhün Elçisi.

Ledilər yanında Birinci oldun,
rəsmi görüşlərdə -
yenə Birinci!

Çəkdiyin qayğılar sona yetmədi,
gündüzlər fikirli, gecələr oyaq.
44 gün gözünə yuxu getmədi,
Şuşada qalxınca,
Üçrəngli bayraq.

Qədim Xudafərin körpüsü, salam!
yüz il yuxudaydı bu daş, bu divar.
Keçdi Mehribanla -
üstündən İlham,
Şəkil də çəkdirdi səndən yadigar.

Çıxdıq o hüzndən, o intizardan,
deyin Mir Cəlala qalxsın məzardan,
xeyir-dua versin qız nəvəsinə,
millətin
bir Qadın Abidəsinə!

***Nəriman HƏSƏNZADƏ,***
***Xalq şairi***





























## 1988-ci il fevralın 22-də Qarabağ müharibəsi başladı

# Azərbaycana böyük zəfər yaşadan Qalib Sərkərdə

## 44 günlük savaş 2 əsrlik münaqişəyə və 32 illik müharibəyə son qoydu









Əvvəli 1-ci səh.

1958-ci ildə isə bütün ermənilərin katalikosu II Vazgen Bakıya səfər edərək Dağlıq Qarabağın Ermənistana verilməsini, Bakıda erməni ruhani seminariyasının açılmasını, Bakıdakı erməni kilsəsindən hər səhər zəng vurulmasını təklif etmiş, lakin rədd cavabı almışdı.

Ötən əsrin 60-cı illərinin ortalarında Ermənistan SSR-də növbəti dəfə anti-Azərbaycan hərəkatı başladı. Qondarma "erməni soyqırımı"nın 50 illiyi, cəllad Andronikin 100 illiyi Ermənistanda geniş qeyd edildi və bu, öz doğma torpaqlarında yaşayan azərbaycanlıların daha da sıxışdırılmasına, Dağlıq Qarabağ Muxtar Vilayətində erməni millətçiliyinin açıq surətdə dərin kök salmasına yeni təkan verdi.

Bütün bu məsələlər hələ Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinə rəhbərlik etdiyi dövrdən Heydər Əliyevin diqqət mərkəzində idi. Ona görə Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbərliyə başladıqdan sonra Dağlıq Qarabağla bağlı xüsusi siyasət yürütdü. 1967-ci ildə DQMV ərazisində üç azərbaycanlının avtomobilin içində yandırılması nəticəsində başlayan milli qarşıdurma elementlərini büruzə verən separatizm qığılcımlarının nəticəsini əvvəlcədən görən ölkə rəhbəri qətiyyətli addımlar atdı. Vilayət rəhbəri, şovinist V.Şahnazaryan başqası ilə əvəzləndi, hüquq mühafizə orqanlarında ciddi təmizləmə aparıldı. 1973-cü ilin avqustunda Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsi "erməni millətçiləri" adlı əməliyyat keçirərək Daşnaksütyun təşkilatı ilə bağlı olan bir qrup şəxsi həbs etdi.

Ermənilər 1977-ci ildə SSRİ Konstitusiyası və 1978-ci ildə Azərbaycan SSR Konstitusiyası qəbul edilərkən də Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ilə bağlı iddialar qaldıraraq Moskvaya, SSRİ-nin mərkəzi orqanlarına kütləvi ərizələrlə müraciət etmişdilər. O dövrdə Krımda istirahətdə olan Sovet İttifaqı KP MK-nın baş katibi L.Brejnevlə görüşən Heydər Əliyev erməni şovinistlərinin Dağlıq Qarabağla bağlı əsassız iddialarını puça çıxardı.

Heydər Əliyev ermənilərin bütün məkrli planlarının qarşısını qətiyyətlə aldı. Lakin M.Qorbaçovun SSRİ-yə rəhbərliyindən sonra azərbaycanlılara qarşı erməni ekspansiyasının növbəti mərhələsi başladı. Heydər Əliyevin Sov.İKP MK Siyasi Bürosunun və şəxsən baş katib M.Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz olaraq tutduğu vəzifələrdən istefasından sonra, 1987-ci ilin sonlarından Yerevanda Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi tələbləri ilə kütləvi aksiyalar keçirilməyə başlanıldı. 1987-ci ilin noyabr ayında Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri A.Aqanbekyan Fransanın "Humanite" qəzetinə verdiyi müsahibəsində DQMV-nin Ermənistana birləşdirilməsinin iqtisadi baxımdan düzgünlüyünü sübut etməyə çalışmışdı. Bu müsahibə separatizm meyillərinin aşkar büruzə verilməsi üçün siqnal rolunu oynadı.







### Azərbaycan rəhbərliyinin laqeydliyi separatizmə rəvac verdi

Həmin ərəfədə artıq DQMV ərazisində separatçı "Krunk" təşkilatı yaradılmış və onun üzvləri 1988-ci il yanvar ayının əvvəllərində yardım üçün Moskvaya getmişdilər. Separatçılıq dalğasının başlaması üçün ideoloji-təbliğat işi böyük vüsət alırdı. Artıq 1988-ci ilin yanvar ayınadək Qarabağ münaqişəsinin yeni mərhələsinin startı üçün bütün hazırlıq işləri yekunlaşmışdı. Heydər Əliyevin ittifaq rəhbərliyindən uzaqlaşdırılması ilə mərkəzdə ermənilərin xeyrinə dəyişən balans problemin həllində Moskvanın birbaşa olaraq ermənipərəst mövqe tutacağını şərtləndirmişdi.

Fevral ayından Xankəndidə Ermənistandan xalq deputatları qismində vilayətə gələn emissarların təşkilatçılığı ilə mitinqlər başladı. İlk dəfə olaraq bu mitinqlərdə "saqqallılar" adlanan xüsusi hərbi dəstənin üzvləri də göründü. Rəsmi Bakının isə tərəddüd göstərməsi vəziyyətin daha da gərginləşməsinə şərait yaratdı. Elə bu ərəfədə İrəvandan "miatsum" - birləşmək iddiasını hüquqiləşdirmək barədə təlimat gəldi və təşəbbüs artıq vilayətin qanunverici orqanının əlinə keçdi. Fevralın 20-də çağırılan vilayətin Xalq Deputatları Sovetinin fövqəladə iclasında gündəliyə yalnız bir məsələ - DQMV-nin Ermənistana birləşdirilməsi ilə bağlı təklifin müzakirəsi salındı. Kvorum olmadan keçirilən iclasda Ermənistan SSR Ali Sovetinin deputatları, əsasən isə vilayət yazıçılar ittifaqının sədri V.Akopyanın təzyiqi ilə DQMV-nin Azərbaycan SSR-in tabeliyindən çıxaraq Ermənistan SSR-in tərkibinə daxil olması barədə qərar qəbul edildi. Bu, Azərbaycanın ərazi bütövlüyünə təhlükə və SSRİ Konstitusiyasına zidd olmaqla, həm də ittifaq miqyasında separatizm meyillərinin aydın təcəssümü idi.

1988-ci ildə erməni separatçılarının qısa müddət ərzində qazandığı uğurların əsas səbəbi Moskvadan aldıqları genişyönümlü dəstək olsa da, rəsmi Bakının nümayiş etdirdiyi susqunluq və laqeyd münasibət də məlum proseslərin nəzarətdən çıxmasını şərtləndirdi. Prosesin baş verdiyi ilk günlərdə vilayətin erməni əhalisində böyük qorxu hissi var idi. Onlar hələ də Azərbaycana qarşı birbaşa çıxış etməkdən çəkinirdilər. Hətta Ermənistandan gəlmiş saqqallılar onları zorla, döyə-döyə mitinqə gətirəndə də oranı yarımçıq tərk edirdilər. Əgər Azərbaycan rəhbərliyi vəziyyətə müdaxilə etsəydi və öz doğma torpaqlarında yaşayan azərbaycanlıları düşmənin müqavimətinə qarşı səfərbər edə bilsəydi, separatçılığın qarşısını elə fevralın birinci həftəsində almaq olardı.

### Qarabağlılar erməni məkrinə qarşı səfərbər oldular

Azərbaycan rəhbərliyi sussa da, Qarabağın azərbaycanlı əhalisi bələd olduğu erməni məkrini dayandırmaq üçün səfərbər olundu. Hadisələrin ən qızğın vaxtında - fevral ayının 22-də Ağdamın minlərlə sakini Əsgəran üzərinə yürüşə çıxdı. Ancaq bu yürüşün qarşısı Bakıdan göndərilmiş emissarlar vasitəsilə alındı, hətta yürüş iştirakçıları təqib də edildi. İndiyədək 6 mindən çox övladını vətən yolunda şəhid vermiş Ağdam məhz həmin gün Qarabağ münaqişəsinin ilk şəhidlərini - Əli ilə Bəxtiyarı torpaq və millət uğrunda fəda etdi.

Fevralın 22-də qadağalara baxmayaraq Bakıda da ilk ümumxalq mitinqi keçirildi. Xalq Moskvadan ədalətli olmasını, separatçılığa son qoyulmasını istəyirdi. Ölkə rəhbərliyindən tələb olunurdu ki, Qarabağda baş verən hadisələr xalqdan gizlədilməsin, hakimiyyət problemin ciddiliyini qəbul edib tədbir görsün, Qarabağda insanları silah-sursatla təmin etsin. Əli ilə Bəxtiyarın dəfn günü bütün Azərbaycanın ürəyi Ağdamda döyünürdü. Ətraf və uzaq rayonlardan Ağdamın dərdinə şərik olmağa gələnlərin sayı minlərlə idi.

Bütün bunlardan sonra DQMV ətrafında siyasi vəziyyət olduqca gərginləşdi. 1988-ci ilin may ayında eyni gündə Azərbaycan və Ermənistan kommunist partiyalarının qurultayları keçirildi. Bakıdakı və Yerevandakı qurultaylarda müvafiq olaraq Siyasi Büronun üzvləri və Mərkəzi Komitənin katibləri olan Yeqor Liqaçovla Aleksandr Yakovlev iştirak etdilər. Y.Liqaçov Bakıda bəyan etdi ki, Moskva Azərbaycanın ərazi bütövlüyünə hörmətlə yanaşdığından Qarabağın müstəqilliyinə heç vaxt razılaşmayacaq. A.Yakovlev isə Yerevanda bildirdi ki, SSRİ rəhbərliyi xalqların öz müqəddəratını təyinetmə hüququna hörmətlə yanaşır. Eyni gündə qarşı duran tərəflərə belə "tərəfkeşlik" etməklə M.Qorbaçov və erməni lobbisinin digər qulları nəticədə münaqişəni hərbi müstəviyə keçirdilər. 1988-ci ilin sonlarından isə Ermənistandakı azərbaycanlıların kütləvi deportasiyası başladı.

1989-cu ilin yanvarında SSRİ Ali Sovetinin Rəyasət Heyəti "Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində xüsusi idarə formasının tətbiq edilməsi haqqında" fərman verdi. Fərmana əsasən Dağlıq Qarabağın Azərbaycan tərkibində muxtar vilayət statusu saxlanılmaqla, burada Moskvaya tabe olan xüsusi idarə forması yaradıldı. A.Volskinin rəhbərlik etdiyi Xüsusi İdarə Komitəsi vilayətin Azərbaycanın yurisdiksiyasından çıxarılması üçün bütün vasitələrdən istifadə etdi. Bu şəxs DQMV-nin tam iqtisadi müstəqilliyini reallaşdırmaq üçün vilayət ərazisindəki bütün müəssisələrin artıq Azərbaycanda deyil, Ermənistanda yerləşən müəssisələrlə iqtisadi əlaqələr qurmasını təmin edən sərəncamlar verdi və bunu qısa müddət ərzində həyata keçirdi. Bu antiazərbaycançı fəaliyyətin reallaşmasında onun fəal "köməkçisi" isə Azərbaycanın rəhbəri Ə.Vəzirov idi.

1991-ci ilə qədər Dağlıq Qarabağda və eləcə də Ermənistanla həmsərhəd rayonlarda azərbaycanlılar yaşayan kəndləri işğal edən, qırğınlar, soyqırımlar törədən ermənilər SSRİ-nin dağılmasından sonra işğal planını yeni fazaya keçirdilər. Müstəqilliyimizin ilk illərində Azərbaycanda hakimiyyətdə olan siyasi qrupların səbatsızlığı və xəyanətləri nəticəsində Dağlıq Qarabağ və ətraf rayonlarımız işğal edildi.

### İlham ƏLİYEV: "Bizim Qələbəmiz tarixi Qələbədir"

Dağlıq Qarabağ bütün dünyada rəsmən Azərbaycanın ərazisi kimi tanınsa da, 30 ilə yaxın müddətdə erməni təəssübkeşliyinin və ikili standartların nəticəsi olaraq beynəlxalq ictimaiyyət, xüsusən Qərb dünyası ermənilərin işğalçılıq siyasətinə, Azərbaycan ərazilərinin işğal altında qalmasına göz yumdu. Azərbaycanın isə Ermənistanın işğal siyasətinə və danışıqlar prosesini imitasiya etməsinə qarşı səbri tükənməz deyildi.

Ötən il sentyabrın 27-də Ermənistanın Azərbaycana qarşı törətdiyi növbəti hərbi təxribat tariximizə Vətən müharibəsi kimi düşən savaşa yol açdı. Şanlı ordumuz elə həmin gün başlatdığı əks-hücum əməliyyatları ilə düşməni ilk andan işğal olunmuş ərazilərimizdən qovub çıxardı. Savaşın ilk günündən bütün dünya Azərbaycanın gücünü, ordumuzun döyüş əzmini gördü. 44 gün davam edən müharibədə 30 ilə yaxın işğal altında olan əzəli torpaqlarımız azad edildi. Hər bir kəndin, qəsəbənin, şəhərin azad olunması xalqımız tərəfindən el bayramı kimi böyük sevinclə qarşılandı.

Noyabrın 10-da imzalanan bəyanatla Azərbaycanın qələbəsi və Ermənistanın məğlubiyyəti bütün dünyaya bəyan olundu. Şuşanın işğal olunduğu və eyni gündə azad edildiyi - noyabr ayının 8-i tariximizə Qələbə Günü kimi həkk olundu. Bu Qələbə Azərbaycanın son əsrlərdəki ən böyük zəfəri oldu. Şah İsmayılın, Nadir şahın qurduğu imperiyaların süqutundan sonra Azərbaycan ilk dəfə olaraq bu miqyasda tarixi torpaqlarını işğaldan azad etdi.

Amma hər bir zəfər, hər bir uğur məqsədyönlü və düşünülmüş fəaliyyətə, müdrik və uzaqgörən siyasətə əsaslanır. Buna müvəffəq olanlar isə öz xalqının taleyi ilə yaşayan dahi şəxsiyyətlər, liderlərdir. Xalqımızın böyük oğlu, Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi və Prezident İlham Əliyevin son 17 ildə layiqincə davam etdirdiyi siyasi kurs torpaqlarımızın işğaldan azad edilməsinin zamanını yetişdirdi. Bu zamanın əsas tələbləri isə Azərbaycanın güclənməsi, ordumuzun döyüş qabiliyyətini artırması idi. Beləliklə, müdrik rəhbər, düzgün zaman, güclü dövlət və qüdrətli ordu formulu, o cümlədən milli həmrəyliyimiz torpaqlarımızın azad edilməsini şərtləndirən əsas amillər oldu.

İndi biz Dağlıq Qarabağ probleminin başlandığı tarixdə - fevralın 22-də bu barədə kədər hissi ilə deyil, qələbə ruhu ilə söz açırıq. Həm də artıq "Dağlıq Qarabağ münaqişəsi" deyilən anlayış yoxdur. Azərbaycana böyük zəfər yaşadan Qalib Sərkərdə İlham Əliyev ölkəmizin ərazi bütövlüyünü bərpa etməklə bu anlayışı da aradan qaldırdı. İlham Əliyevin bir neçə gün əvvəl Laçın rayonundan bəyan etdiyi kimi, bizim Qələbəmiz tarixi Qələbədir və biz tarixi ədaləti bərpa etdik.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Strateji tərəfdaşlığın real təzahürü

## Ağdamda fəaliyyət göstərən Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzi üçtərəfli əməkdaşlığın daha da güclənməsi üçün yeni imkanlar açır

**44 günlük Vətən müharibəsində qazandığımız qələbə regionda yeni geosiyasi reallıq yaradıb - Azərbaycanın razılığı olmadan Qarabağla bağlı heç bir qərar qəbul edilə bilməz.**

Torpaqlarımızın düşmən tapdağından təmizlənməsindən sonra Qarabağda strateji yollar, yüksəkliklər, kommunikasiya xətləri tamamilə Azərbaycan Silahlı Qüvvələrinin nəzarətinə keçib. Bütün bunlar Prezident İlham Əliyevin siyasi iradəsinin, prinsipial siyasətinin məntiqi nəticəsidir.








### Birgə Monitorinq Mərkəzi - sülh və əməkdaşlıq...

Üç aydan artıqdır ki, müharibə başa çatıb. Yanvarın 30-dan isə Ağdamda Türkiyə-Rusiya Monitorinq Mərkəzi fəaliyyətə başlayıb. Birgə Monitorinq Mərkəzi Azərbaycan və Rusiya prezidentləri, Ermənistanın baş naziri tərəfindən imzalanmış 10 noyabr 2020-ci il tarixli Bəyanatın 5-ci bəndinə əsasən yaradılıb. Mərkəz münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyini artırmaq məqsədi daşıyır.

Belə ki, Qarabağda hərbi əməliyyatların başa çatması hələ bölgədə və regionda sülh, əmin-amanlığın bərqərar olacağına zəmanət vermədiyi üçün bu Monitorinq Mərkəzinin yaradılmasına ehtiyac duyulurdu. 20 gündən artıqdır ki, fəaliyyət göstərən mərkəz regionda vəziyyətin normallaşması istiqamətində həyata keçirilən fəaliyyətə çox yaxşı nümunədir.

Prezident İlham Əliyev hələ ötən il noyabrın 10-da xalqa müraciətində bildirmişdi ki, qardaş Türkiyə Respublikası rəsmi qaydada münaqişənin gələcək həlli və atəşkəsə nəzarət etmək işində rol oynayacaq və belə də oldu. Dövlət başçısı bunu regional əməkdaşlığın təzahürü, həmçinin Türkiyə ilə Rusiya arasında çox məqbul əməkdaşlığın rəmzi kimi dəyərləndirmişdi. Bu gün Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin fəaliyyəti region üçün sülh və əməkdaşlıq perspektivi baxımından böyük önəm kəsb edir.

Azərbaycan bu mərkəzin effektiv fəaliyyəti üçün lazım olan bütün texniki və infrastruktur şəraiti yaradıb və bu ilk növbədə bölgədə Türkiyə-Rusiya və Azərbaycan arasında əməkdaşlığın daha da güclənməsinə xidmət edir.

### Atəşkəsə nəzarət pilotsuz uçuş aparatları vasitəsilə həyata keçirilir

Artıq Monitorinq Mərkəzi sayəsində bütün hərəkətlər qeydə alınır və bölgədə atəşkəsə nəzarət pilotsuz uçuş aparatları vasitəsilə həyata keçirilir. Rusiyanın sülhməramlı kontingenti izləmə üçün "Orlan-10" və "Forpost" dronlarından istifadə edir. Monitorinq Mərkəzinin komanda məntəqəsində texnika və şəxsi heyətin hərəkətləri müşahidə olunur.

Monitorinq Mərkəzinin ümumi sahəsi 4 hektara yaxındır. Ərazidə 65 ədəd modul tipli xidməti, inzibati və yaşayış otaqları var. Bütün otaqlar zəruri avadanlıqlar, su, elektrik və istiliklə təmin olunub. Burada hər iki tərəfin birgə istifadəsi üçün ümumi monitorinq mərkəzi, brifinq zalı, 100 nəfərlik yeməkxana, tibb məntəqəsi, camaşırxana, bərbər, dərzi, mağaza var.

Ərazidə su stansiyası, transformator, generator, avtomobil dayanacağı, açıq havada iki idman şəhərciyi, eləcə də iki örtülü idman zalı, ərzaq və soyuducu anbarları yerləşir.

Bütün əraziyə perimetr boyu hasar çəkilib, 4 ədəd müşahidə nəzarət qülləsi quraşdırılıb, sutkalıq mühafizə təşkil olunub. Şəxsi heyətin istirahətinin təşkili üçün zəruri avadanlıqla tam təmin edilmiş otaqlar da hazırlanıb. Mərkəzin mühafizəsi Azərbaycan Ordusunun hərbi qulluqçuları tərəfindən həyata keçirilir.

### Qələbənin yaratdığı reallıq...

Müzəffər Azərbaycan Ordusu cəbhədə rəşadətli qələbə qazandığı kimi, siyasi müstəvidə və diplomatik danışıqlarda da ardıcıl uğurların əldə olunması İlham Əliyevin qətiyyətinin göstəricisidir. İlham Əliyev 44 günlük Vətən müharibəsi ilə həm dünyanın aparıcı dövlətlərinə, həm də nüfuzlu beynəlxalq təşkilatlara sübut etdi ki, münaqişənin hərbi yolla həlli variantı mümkündür və Azərbaycan tarixi qələbəni məhz döyüş meydanında qazandı.

Noyabrın 10-da imzalanan bəyanatın şərtlərinə əməl etmək isə Ermənistanın dövlət səviyyəsində üzərinə götürdüyü öhdəlikdir. Bu öhdəlikdən boyun qaçırmaq, yaxud əldə olunan razılaşmanı bu və ya digər formada pozmaq cəhdi yolverilməzdir. Ümumiyyətlə, mənfi çağırışların və onun yaratdığı risklərin məsuliyyətini Ermənistan dövləti daşıyır. Yeni fəaliyyətə başlayan Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin funksiyası sadəcə bölgədəki prosesləri müşahidə etməklə yekunlaşmır. Əldə olunan informasiyalarda əksini tapan risklərin dərhal aradan qaldırılması mərkəzin fəaliyyətinin əsasını təşkil edir. Xüsusilə bölgədə mənfi hal yaradan fəaliyyətlər, terror cəhdləri, qanunsuz silahlı şəxslərin hərəkəti yolverilməzdir. Bu cür xoşagəlməz hadisələrin baş verməməsi üçün konkret addımlar atılacaq.

Bu gün İlham Əliyevin prinsipial siyasətinin nəticəsində regionda yeni geosiyasi konfiqurasiya formalaşıb. Qarabağ müharibəsində qalib gələn və bölgədə nüfuzlu güc olan Azərbaycan Rusiyanın yaxın tərəfdaşıdır. Ən yüksək səviyyəyə çatmış Azərbaycan-Türkiyə tərəfdaşlığı isə Cənubi Qafqazda sabitlik, təhlükəsizlik və davamlı inkişaf üçün böyük önəm kəsb edir. Ona görə prosesdə Rusiya və Türkiyənin birgə iştirakı olduqca pozitiv amildir və regionda daha geniş əməkdaşlıq planlarının gerçəkləşdirilməsi üçün yeni imkanlar açır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Özbəkistan portalında Azərbaycanın Vətən müharibəsində qazandığı Qələbədən bəhs edən analitik məqalə yerləşdirilib




Özbəkistanın "fikr.uz" portalında Rusiya tarixçisi, professor Oleq Kuznetsovun Vətən müharibəsi ilə bağlı "Azərbaycanın hərb və sülhü: Prezident İlham Əliyev - Azərbaycanın Ermənistanla müharibəsində qələbənin baş ideoloqu və təşkilatçısı" adlı analitik məqaləsi yerləşdirilib.

AZƏRTAC xəbər verir ki, yazıda 1990-cı illərin əvvəllərində Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğal edilməsi, 2020-ci ildə Azərbaycanın hərbi yolla torpaqlarını azad etməsi haqqında ətraflı məlumat verilir.

Vurğulanır ki, 28 il Azərbaycan siyasi, diplomatik, humanitar yollarla münaqişənin tənzimlənməsinə çalışıb, bununla belə heç bir nəticə əldə edilməyib. Münaqişənin tənzimlənməsi ilə bağlı yaradılan ATƏT-in Minsk qrupu bu müddətdə həm Azərbaycan, həm də Ermənistan tərəfi ilə çoxsaylı görüşlər keçirsə də, konkret olaraq heç bir iş görməyib.

Ötən il sentyabrın 27-də Ermənistanın təxribatları ilə başlayan və 44 gün davam edən Vətən müharibəsi Azərbaycanın öz torpaqlarını qaytarması ilə başa çatıb. Məqalədə münaqişənin tarixi haqqında ətraflı söhbət açılır, 2003-cü ilə qədər Ulu Öndər Heydər Əliyevin, son 17 ildə isə Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistanın rəhbərləri ilə çoxsaylı görüşlər keçirdiyi diqqətə çatdırılır.

# Müzəffər Ordumuz ölkəmizin ərazi bütövlüyünü təmin etdi

Qarabağ müharibəsinin başlanmasından 33 il ötür. Dağlıq Qarabağda kompakt yaşadıqları ərazini, eləcə də azərbaycanlılara məxsus digər kənd və qəsəbələri özününküləşdirmək iddiası ilə erməni silahlı birləşmələri və erməni terror qruplaşmaları yerli müsəlmanların həyatı bahasına başa gələn qətliamlar, qırğınlar, müsibətlər törətdilər. 1980-ci ilin sonlarından 1994-cü ilin mayına kimi Ermənistan Respublikası tərəfindən dəstəklənən bu münaqişələr daha da ciddiləşərək Azərbaycan və Ermənistan arasında müharibəyə çevrildi.



Bu müharibə getdikcə Dağlıq Qarabağın bütün kənd, qəsəbə və şəhərlərini, eləcə də Mehridən tutmuş Qazax rayonuna kimi ölkəmizin Ermənistanla sərhəd bölgələrinə yayıldı. Ötən illər ərzində Azərbaycan bütün hallarda problemi dinc və danışıqlar yolu ilə həll etməyə çalışdı. Lakin separatçı hərəkatın liderləri və onları dəstəkləyənlər nə Azərbaycan tərəfinin, nə də beynəlxalq təşkilatların qərar və qətnamələri ilə razılaşırdılar. Yerli parlament özünü Ermənistanla birləşdirilməyin lehinə səs versə də, Dağlıq Qarabağın azərbaycanlı əhalisi referendumu boykot etdi. Ermənistan ilə birləşmək istəyən separatçı qüvvələr müharibəni 1988-ci ildə yenidən gündəmə gətirdilər. Dağlıq Qarabağ Muxtar Vilayəti 20 fevral 1988-ci ildə Ermənistan ilə birləşmək qərarı verdikdən sonra vəziyyət daha da mürəkkəbləşdi. Nəhayət, sovetlər İttifaqının dağılması ərəfəsində həyata keçirilən bu proses yerli azərbaycanlılar ilə ermənilər arasında münaqişəyə, sonra isə etnik təmizləməyə səbəb oldu. Azərbaycan Sovetlər birliyindən ayrılaraq öz müstəqilliyini elan etdikdən sonra Qarabağ ermənilərinin əksəriyyəti Azərbaycandan ayrılmaq qərarına gələrək qondarma Dağlıq Qarabağ Respublikasının müstəqilliyini elan etdilər.

Bundan sonra tərəflər arasında genişmiqyaslı döyüşlər 1992-ci ilin qışında başladı. Bu zaman Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) kimi bir neçə təşkilat tərəflər arasındakı münaqişəni aradan qaldırmaq istəsə də, ikili standartlar üzündən cəhdlər uğursuz alındı. 1993-cü ilin yazında Ermənistan qüvvələrinin anklavın tərkibində olmayan torpaqları işğal etməsi, regiondakı digər ölkələrin müharibəyə qatılması üçün təhdid yaratmışdır. Ermənilər Qarabağın əksər hissəsini, demək olar ki, tam nəzarətlərinə keçirib, əlavə olaraq anklavın tərkibində olmayan Azərbaycan torpaqlarının 9-10 faizinə nəzarət edirlər. Münaqişə nəticəsində Azərbaycandan 230 min erməni, Ermənistan və Qarabağdan isə 800 mindən çox azərbaycanlı məcburi köçkün olmuşdur. 1991-1994-cü illərdə Qarabağda və dövlət sərhədində baş vermiş döyüş əməliyyatlarında 11 min 557 Azərbaycan hərbçisi şəhid olmuşdur. Ən çoxsaylı itkilər 1992-1994-cü illərdə davam edən hərbi əməliyyatlar zamanı baş vermişdir. Erməni qüvvələrinin əsas itkiləri Azərbaycan Ordusunun 1992-ci ilin yayında həyata keçirdiyi uğurlu hücum əməliyyatları zamanı qeydə alınmışdır. Azərbaycan Ordusunun itkiləri isə əsasən Ağdam döyüşlərində, habelə 1994-cü ilin qış-yaz aylarında Kəlbəcəri geri almaq üçün təşkil edilmiş hücum əməliyyatlarında olmuşdur. Birinci Qarabağ müharibəsi nəticəsində öz tarixi torpaqlarının 20 faizini itirən Azərbaycan əsasən 1994-cü ildə imzalanmış Bişkek protokolundan sonra Ermənistan Respublikası ilə BMT Təhlükəsizlik Şurasının işğalçı qüvvələrin qeyd-şərtsiz Azərbaycan torpaqlarından çıxarılmasını nəzərdə tutan qətnamələrinin icra olunması üçün müxtəlif beynəlxalq qurumlar çərçivəsində uzunmüddətli diplomatik danışıqlar aparıldı.

1994-cü ilin mayında Rusiyanın dəstəyi ilə atəşkəs əldə olundu. Daha sonra münaqişənin ATƏT-in prinsipləri əsasında sülh yolu ilə danışıqlar vasitəsilə həlli üçün ATƏT-in Minsk qrupu yaradıldı. Lakin böyük ümidlərlə yaradılmış ATƏT-in Minsk qrupu ötən illər ərzində qarşıya qoyulan məqsədlər baxımından heç bir irəliləyişə nail olmadı. Əksinə, Ermənistan silahlı birləşmələri, terror qruplaşmaları işğal altında saxladıqları Azərbaycan torpaqlarında səngərlər, istehkamlar, hərbi bazalar yaratdılar.

Beynəlxalq təşkilatların sülh platformaları ilə yanaşı, Azərbaycan region ölkələrinin də münaqişənin həlli istiqamətindəki təşəbbüslərində yaxından iştirak edirdi. Lakin probleminin həllində heç bir nəticə olmurdu.

2016-cı ildən sonra Madrid prinsipləri ayrı-ayrı heyətlər əsasında davam edən formal sülh prosesləri danışıqları, 2018-ci ildə Ermənistan inqilabı nəticəsində hakimiyyətə gəlmiş Nikol Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" kimi populist bəyanatları, habelə Azərbaycanın işğal olunmuş ərazilərinə ardıcıl qanunsuz səfərləri kimi təxribatçı xarakter daşıyan hərəkətləri ilə dayandırıldı.

Təxribatçı əməllərin davamı qismində, 2019-cu ilin mart ayında Ermənistanın müdafiə naziri David Tonoyan ABŞ-da rəsmi səfərdə olarkən, "yeni torpaqlar üçün yeni müharibə" çağırışı etdi. Tonoyanın bəyanatı təmas xəttində bir sıra hərbi təxribatlarla müşaiyət olundu. Ermənistan Silahlı Qüvvələrinin bölmələri 2020-ci ilin iyul ayında Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində əlverişli mövqeləri ələ keçirmək məqsədilə artilleriya atəşindən istifadə edərək hücuma keçməyə cəhd göstərsə də, buna müvəffəq ola bilmədi. İyulun 23-də isə Ermənistan Silahlı Qüvvələri Rusiya ilə ortaq hava hücumundan müdafiə sistemi təlimlərinə başladığını elan etdi. Bunun ardınca ölkəmizdə Azərbaycan Silahlı Qüvvələri və Türkiyə Silahlı Qüvvələrinin birgə iştirakı ilə sentyabr ayının əvvəlinə qədər davam edən bir sıra hərbi təlimlər keçirildi. Avqust ayında, təmas xəttinin Goranboy rayonu istiqamətində Ermənistan Silahlı Qüvvələrinin diversiya-kəşfiyyat qrupu təxribat törətməyə cəhd göstərdi, lakin görülən tədbirlər nəticəsində diversiya qrupu itki verərək geri çəkildi və qrupun komandiri baş leytenant Qurgin Alberyan əsir götürüldü.

Birinci Qarabağ müharibəsi başlandığı vaxtdan hərbi təxribatlarla yanaşı, Ermənistan tərəfindən beynəlxalq hüquqi prinsiplərə zidd olaraq Azərbaycanın işğal altındakı ərazilərinə çox sayda YPG, PKK terrorçularının, o cümlədən Beyrut limanında baş verən partlayışlardan sonra minlərlə Livan ermənilərinin köçürülməsi münaqişəni daha da alovlandırdı. Vəziyyətin gərginliyi 2020-ci ilin avqust ayının sonlarında Ermənistanın baş nazirinin həyat yoldaşı Anna Akopyanın Azərbaycanın işğal altındakı ərazilərində qeyri-leqal olaraq təşkil olunmuş hərbi təlimdə iştirakını ictimailəşdirməsi ilə pik həddə çatdı.

25 sentyabr 2020-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında videoformatda çıxışında Ermənistanın təxribatları nəticəsində azərbaycanlı hərbçilərin və 76 yaşlı mülki vətəndaşın həlak olması, habelə mülki infrastruktura vurulan ciddi ziyan qeyd olunmuşdur. O cümlədən Azərbaycan Prezidenti iyulun 17-dən etibarən sentyabr ayına qədər hərbi yük təyyarələri ilə Ermənistana min tondan artıq hərbi avadanlığın daşındığını bildirmişdir.

Birinci Qarabağ müharibəsindən ötən 33 ildən sonra Azərbaycan Respublikasının Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ötən il sentyabrın 27-də saat 6 radələrində Ermənistan Silahlı Qüvvələrinin atəşkəs rejimini kobud şəkildə pozması ilə bağlı məlumat yaymışdır. Həmin gün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqa müraciət edərək müharibənin başlandığını bəyan etdi. Həmin gün Azərbaycan Silahlı Qüvvələri erməni təxribatlarının qarşısını almaq üçün əks-həmlə əməliyyatlarına başlamış və respublika ərazisində hərbi vəziyyət elan olunmuşdur.

Ötən il sentyabrın sonlarından başlayan 44 günlük müharibə nəticəsində Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin uzaqgörən siyasəti və qətiyyəti sayəsində Müzəffər Ordumuz işğalçı Ermənistan qoşunlarının və terror dəstələrinin darmadağın edilməsinə və Azərbaycanın ərazi suverenliyinin tamamilə bərpa olunmasına nail olmuşdur.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Onlar bizə əmanətdir!

"YAŞAT" Fondunun Vətən müharibəsindən sonra dünyaya gələn şəhid övladları üçün layihəsi davam edir.











Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, daha iki şəhidimizin yeni doğulan övladlarının - şəhidimiz Elşad Məmmədovun övladı Elşadın, şəhidimiz Emin Ağazadənin övladı Emiliyanın zəruri xərcləri fond tərəfindən qarşılanıb. Bu məqsədlə 1000 AZN analara təqdim olunub və dünyaya yeni göz açan körpələrin adına 5000 AZN-lik hesab açılacaq. Həmin hesaba vəsait fonda edilən ianələr hesabına toplanmış məbləğdən köçürülür. Həmin məbləğin üzərinə mütəmadi olaraq faiz toplanılacaq və həmin şəhid övladı 16 yaşına çatdıqdan sonra toplanan məbləği özü hesabından çıxara biləcək.

Qeyd edək ki, bankla ana arasında bağlanmış müqaviləyə əsasən bəzi zəruri hallarda ana həmin vəsaiti daha tez çıxara biləcək. Həmçinin ana həmin məbləği istənilən valyutaya da dəyişə bilər.

Allah şəhidlərimizə rəhmət etsin!

Xatırladaq ki, "YAŞAT" Fonduna müraciət etmək və fondun fəaliyyəti ilə tanış olmaq üçün yashat.gov.az portalı istifadədədir.

Fondun hesabatlılığı ilə tanış olmaq üçün keçid: https://yashat.gov.az/report/tableau

Həmçinin fondun 8110 "Çağrı Mərkəzi" fəaliyyət göstərir.

# Azərbaycan Ordusunun tabor komandirinin layiq görüldüyü NATO-nun "Ləyaqətli xidmət" medalı şəhidin ailəsinə təqdim edilib

Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində bir vaxtlar bu xüsusi təyinatlı hərbi təhsil müəssisəsinin "Zabit ixtisas kursu"nu bitirmiş Azərbaycan Ordusunun şəhid zabiti mayor Rəhim Qədir oğlu Hüseynovun anım mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, mərasimdə Müdafiə Nazirliyinin rəsmiləri, şəhidin ailə üzvləri, xidmət etdiyi hərbi hissənin, təhsil aldığı hərbi məktəblərin, eləcə də ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni ifa olunub.

Sonra "Qələbəyə gedən yollar" adlı ədəbi-musiqili kompozisiya təqdim edilib.

Layihə müəllifi Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani şəhid mayor Rəhim Hüseynovun hər bir gənc üçün örnək olan qısa, ancaq şərəfli ömür və döyüş yolu barədə ətraflı məlumat verib.

Nəzərə çatdırılıb ki, Rəhim Hüseynov 1994-cü il iyulun 1-də Zərdab rayonunun Gəlmə kəndində anadan olub. Cəmşid Naxçıvanski adına Hərbi Liseyi, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib. Motoatıcı taqım komandirliyindən tabor komandiri vəzifəsinədək yüksəlib.

Çexiya, Almaniya, Macarıstan, Amerika Birləşmiş Ştatları, Türkiyə, Bolqarıstan, Gürcüstan, Bosniya və Herseqovina və Rumıniyada beynəlxalq əhəmiyyətli kurslarda iştirak edib.

İngilis, rus, erməni dillərini mükəmməl bilən, Azərbaycan zabitinin ən yüksək mənəvi və iradi keyfiyyətlərini özündə birləşdirən igid zabitimiz xidmət müddəti ərzində NATO təlimləri və kursları çərçivəsində keçirilən beynəlxalq tədbirlərdə Azərbaycan Silahlı Qüvvələrini layiqincə təmsil edərək Azərbaycan bayrağını həmişə şərəflə daşıyıb.

Qeyd edilib ki, 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin təxribatlarına qarşı başlanan Vətən müharibəsi zamanı mayor Rəhim Hüseynov komandiri olduğu Sülhməramlı qüvvələr taborunun şəxsi heyəti ilə birlikdə işğal altında olan ərazilərin azad edilməsi uğrunda döyüşlərdə şəxsi qəhrəmanlıq və şücaət nümunələri göstərib. Cəbrayıl, Füzuli və Qubadlı rayonları uğrunda hərbi əməliyyatlarda düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırıqlarını uğurla yerinə yetirib.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Əfqanıstanda sülhməramlı missiyaya görə" medalları ilə təltif olunan igid tabor komandiri 2020-ci il oktyabrın 20-də Qubadlının azad olunması uğrunda döyüşlərdə qəhrəmancasına həlak olub və ən yüksək məqama - şəhidlik zirvəsinə ucalıb.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev igid zabitimizin xidmətlərini yüksək qiymətləndirərək ölümündən sonra onu Azərbaycanın ərazi bütövlüyünün bərpasında xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunələrinə, o cümlədən hərbi qulluq vəzifəsini yerinə yetirən zaman igidliyin və mərdliyin nümayiş etdirilməsinə görə "Qarabağ" ordeni, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılaraq hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edib.

Anım mərasimində qeyd edilib ki, Azərbaycan Ordusunun Sülhməramlı Qüvvələr taborunun sabiq komandiri mayor Hüseynov Rəhim Qədir oğlu 2020-ci ilin yekunları üzrə NATO-nun "Ləyaqətli xidmət" medalına layiq görülüb.

Diqqətə çatdırılıb ki, Əfqanıstanda həyata keçirilən "Qətiyyətli Dəstək" qeyri-döyüş missiyasında mayor R.Hüseynov 2020-ci il yanvarın 21-dən 2020-ci il avqustun 12-dək Azərbaycanın Sülhməramlı Kontingentinin, eyni zamanda, Hamid Karzai beynəlxalq hava limanında "NKIA" Qüvvə Mühafizəsi Qrupu Taborunun komandir müavini və komandiri vəzifələrini icra edib.

Əfqanıstandakı "Qətiyyətli Dəstək" missiyasının və ABŞ Qüvvələrinin Komandiri (ABŞ Quru Qoşunlarının generalı) Austin Skott Miller igid həmyerlimizin təltif olunması ilə bağlı təqdimatında onun ləyaqətli xidmətinin təfsilatını bu cür dəyərləndirib: "Mayor Hüseynov NKIA-nın təhlükəsizliyini yüksəltmək və koronavirus epidemiyası dövründə müvafiq tədbirləri həyata keçirmək üçün müxtəlif millətlərdən olan çoxsaylı qüvvələrdən ibarət FPG taboruna rəhbərlik etdiyi zaman fərqlənib. O, şəxsi heyət arasında güclü ünsiyyət qabiliyyəti və peşəkar hərbi intizamı vasitəsilə üstün liderlik bacarığını nümayiş etdirib, olduqca gözəl işçi münasibət yaradıb. Bununla o, düşmənin nəzərəçarpan təhdidləri, eləcə də koronavirus epidemiyasının gətirdiyi özünəməxsus çətinlikləri əhatə edən son dərəcə ağır dövrdə NKIA-nın Qüvvə Mühafizəsi Qrupunun vəziyyətdən xəbərdarlıq səviyyəsinin yüksəkdə saxlanılmasına zəmin yaradıb.

Qarşılıqlı uyarlılıq çərçivəsində təhlükəsizlik məsələləri üzrə boşluqlara yol vermədən bazanın tələbatlarına uyğun olaraq beş millətdən (Albaniya, Azərbaycan, Portuqaliya, Polşa, Türkiyə) ibarət olan "ABBEY", "Şərq" və "Şimal" giriş qapılarının və Çevik Cavab Qüvvələrinin idarə olunmasında böyük səy göstərib. Onun liderliyi və təşkilatçılığı ilə bu giriş qapıları vaxt itkisinə yol vermədən təcili tibbi müdaxilə üçün on nəfərdən çox ağır yaralı koalisiya heyətinin NKIA-nın "Role-2" hospitalına ötürülməsini müvəffəqiyyətlə həyata keçirib.

Mayor Hüseynov baş verə biləcək mülki iğtişaşlara, cavab və giriş qapılarının fəaliyyətinə dair taktika, texnika, prosedurların hazırlanması və tətbiqinə rəhbərlik edib. Onun liderliyi və fəaliyyətləri bütün giriş qapılarında xidmət edən heyətin bu meyarlar üzrə hərtərəfli təlimini və bu xüsusda Çevik Cavab Qüvvəsinin düzgün strategiya və tətbiq olunmasını təmin edib. Mayor Hüseynovun rəhbərliyi və göstərişləri altında epidemiya dövründə tələb olunan 250-dən çox yerli nümayəndənin tibbi və təhlükəsizlik yoxlanılması NKIA tərəfindən müvəffəqiyyətlə həyata keçirilib. Bu fəaliyyətlər NKIA-nın əməliyyatlar üçün tələb olunan fəaliyyətinin yüksək səviyyədə saxlanılması və əməliyyat teatrının əsas "Enmə/Yükboşaltma Aerodromu"nun daimi fəaliyyətinin təmini üçün zəruri idi. Nəhayət, onun komandanlıq, inkişaf, təşkilatçılıq və kritik düşünmə üzrə unikal istedadı müxtəlif məsələlərin çoxsaylı həllinə gətirib çıxarıb.

Mayor Hüseynovun nümayiş etdirdiyi işçi keyfiyyətlər NATO əməliyyatlarının yüksək ənənələrini qoruyur və o, NATO-nun "Ləyaqətli xidmət" medalına (əməliyyat üzrə) layiq görülür".

NATO-nun Baş katibi Yens Stoltenberqin imzaladığı sənəddə göstərilir ki, mayor Rəhim Hüseynov NATO-da təyin olunduğu vəzifəsinin icrası ərzində müstəsna xidmətinə görə NATO-nun "Ləyaqətli xidmət" medalı ilə təltif olunub. O, özünə böyük şərəf gətirən və Alyans tərəfindən təmsil olunan hər kəsin ehtiram və minnətdarlığını qazandıran mükəmməl liderliyini nümayiş etdirməklə Alyansın ən gözəl ənənələrini qoruyub saxlayıb.

Tədbirdə qeyd olunub ki, həmin medal və sertifikat artıq Azərbaycandadır və NATO tərəfi Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə məktub ünvanlayaraq, həmin təltifin qəhrəman tabor komandirinin ailəsinə təntənəli şəkildə təqdim olunmasını xahiş edir.

Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev tədbir iştirakçılarını nazirliyin rəhbərliyi adından salamlayaraq mayor Rəhim Hüseynovla Vətən müharibəsi cəbhələrində dəfələrlə qarşılaşdığı anları yada salıb. Onu qorxmaz, cəsur bir döyüşçü, yüksək əxlaqi və mənəvi keyfiyyətlərə malik intellektual səviyyəli zabit, tabeliyində olan şəxsi heyətin qayğıları ilə yaşayan, hər bir əsgər və zabitin sevgisini qazanan komandir kimi xarakterizə edib.

Şəhidin valideynlərinə Vətənə belə bir məğrur oğul tərbiyə etdikləri üçün dərin minnətdarlığını bildirən, ailəsinə bundan sonra firavan həyat arzulayan nazir müavini NATO-nun ən nüfuzlu medalını mayor Rəhim Hüseynovun böyük oğlu Hikmətə təqdim edib.

Şəhid övladının "Bu yüksək mükafatı alarkən şəhid atamın əvəzindən "Azərbaycan Respublikasına xidmət edirəm!" deyirəm. Qoy, düşmənlərimiz birdəfəlik bilsinlər ki, Vətən uğrunda şəhid olan Rəhim Hüseynov kimi oğullar ölməyiblər. Onların yurdunda yeni-yeni igidlər yetişir. Biz üç qardaş atamızın yolunu davam etdirəcəyik. Biz Azərbaycan Ordusunun gələcəyiyik. Atamın müqəddəs ruhu qarşısında and içirik!" sözləri tədbir iştirakçılarına duyğulu anlar yaşadıb.

Şəhidin atası oğlunun, eləcə də bütün şəhidlərin xatirəsinin əziz tutulduğu, adlarının əbədiləşdirildiyi, ailələrinin daim diqqətdə saxlanıldığı üçün Azərbaycan Prezidenti İlham Əliyevə, Müdafiə Nazirliyinin rəhbərliyinə və tədbirin təşkilatçılarına ailələri adından minnətdarlıq edib.

Şəhidin anası Həqiqət xanım oğlu ilə fəxr etdiyini, həyat yoldaşı Günel xanım Rəhimin yadigarlarını, üç oğul övladını şəhid atalarının adına layiq vətənpərvər oğul kimi tərbiyə edəcəyini deyib.

Milli Məclisin deputatı Jalə Əliyeva 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun xalqımıza bəxş etdiyi zəfərin tarixi bir Zəfər olduğunu vurğulayıb. Xalqımızın Azadlıq meydanında keçirilən Zəfər paradının təəssüratları ilə hələ də yaşadığını, qalib bir ölkənin vətəndaşları olmaqdan böyük qürur duyduğunu dilə gətirib. O əmin olduğunu bildirib ki, mayor Rəhim Hüseynov kimi oğulların qanları, canları bahasına işğaldan azad edilən tarixi torpaqlarımızda böyük quruculuq işləri geniş vüsət alacaq, viran edilmiş kəndlərimiz, şəhərlərimiz yenə də xalqımızın birliyi, həmrəyliyi sayəsində yenidən qurulacaq, qaçqınlar, köçkünlər doğma yurd yerlərinə dönəcək, Şuşada keçiriləcək "Vaqif poeziya günləri", "Xarı bülbül" festivalı yenə də əziz qonaqlarını Azərbaycanın mədəniyyət paytaxtına toplayacaq. Yeni salınacaq parklara, küçələrə, xiyabanlara uğrunda qanları tökülən igidlərin adları veriləcək, zirvələrdə xilaskar Azərbaycan əsgərinin möhtəşəm abidəsi ucaldılacaq.

Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin rəisi, Vətən müharibəsi iştirakçısı general-mayor Mübariz Rzayev, hərbi hissə komandiri polkovnik Ədalət Hacıyev, silahdaşları adından mayor Fərhad Ömərov və başqaları çıxış edərək şəhid tabor komandiri haqqında xatirələrini bölüşüb və bu kimi tədbirlərin şəhidlərin xatirəsinə hörmət və ehtiram əlaməti olmaqla yanaşı, həm də gələcək Vətən müdafiəçilərinin vətənpərvərlik tərbiyəsində mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıblar.

Anım mərasimi respublikanın Xalq artisti Samir Cəfərov və Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı heyətinin iştirak etdikləri "Vətən müharibəsinin Zəfər bayraqlarına düzlən!" adlı ədəbi-musiqili kompozisiya ilə başa çatıb.





# Vətən deyəndə...





● Qaliblər

**Qarabağın 30 ilə yaxın işğalına son qoymaq üçün hərtərəfli hazırlıq özünü 44 günlük Vətən müharibəsində bir daha təsdiqlədi: Ermənistan 10 noyabr 2020-ci ildə üçtərəfli imzalanan kapitulyasiya aktına imza atmağa məcbur oldu. Bu təslim aktına imza atan təcavüzkar və işğalçı Ermənistan bir daha yəqin etdi ki, müharibəyə hazırlıq heç də Şuşada "Yallı" getmək, yaxud bir-birinin ardınca qarşı tərəfin heysiyyəti ilə oynayan hərəkətlər göstərib, bayağı bəyanatlar vermək deyil.**



## Səmada tarix yazan Qarabağ sevdalı beş şahinimiz

### Onlar Lənkəran rayonunun Boladı kəndindən Vətən müharibəsinə ailəliklə qatılan Həşimovlardır

Qələbə, ilk növbədə, ölkənin hərtərəfli inkişafından, formalaşan hərbi vətənpərvərlikdən, ordu-xalq-hakimiyyət birliyindən keçir: 10 noyabr Bəyannaməsi və 10 dekabr 2020-ci il tarixli Zəfər paradı kimi.

İkinci Qarabağ savaşında müzəffər ordumuzun düşmən üzərindəki qələbəsi havada və yerdə döyüşən Azərbaycan oğullarının Vətən sevdasından başlamışdı. Belə oğullarımız şəhid, qazi olmağı şərəf bildilər. Bu şərəfli tarixi yazanların arasında bir ailədən döyüşlərə getmiş 5 səma qartalının - şahinlərimizin də qəhrəmanlığı oldu. Gəlin onları yaxından tanıyaq.

Səma qartallarının ailəsini yaxından tanıyan, Lənkəran rayonunun Boladı I Kənd Klubunun müdiri Şahnaz Rzayeva şahinlərimizin döyüşlərdəki şücaətini belə dilə gətirdi: "Boladı kəndinin Vətən müharibəsində səmadan erməni işğalçılarına ağır bombalar yağdıran, çoxlu sayda canlı qüvvə və hərbi obyektlərini darmadağın edən Boladı kəndinin bu qəhrəman oğullarının hünəri xüsusi qeyd olunmalıdır. Qələbəmizin gerçəkləşməsində igidlikləri ilə Vətənə xidmət edən belə şahinlərimizi xalqımız yaxından tanımalıdır. Onlar - bir ailənin beş ali təhsilli hərbi pilotu, açıq, aydın səmamızın və aylı gecələrimizin parlaq ulduzularıdırlar. Haqqında söhbət açdığımız şahinlərimiz - iki əmi və üç qardaşın hər biri mayor rütbəlidir: Fikrət, Araz, Qabil, Alim və qardaşı Taleh. Döyüşlərdə göstərdikləri şücaətlərinə görə, Azərbaycan Prezidenti tərəfindən "Qarabağ" ordeni və digər medallarla təltif edilmişlər.

Şahinlərin əmisi oğlu Zaur Qafarzadə bildirdi ki, 44 günlük Vətən müharibəsinə ailəliklə qatılan Həşimovlar bu gün xalqımızın igid, cəsur, qorxmaz oğulları kimi tanınırlar: "...Boladı kəndindən olan bu ailənin beş üzvünün qələbədə payı az olmayıb. Birinci Qarabağ savaşında iştirak edən Fikrət və Araz Həşimov qardaşlarına Vətən müharibəsində qardaşı oğlanları Qalib, Alim və Taleh Həşimovlar da qoşulub. Onların dördü hərbi təyyarəçidir, biri isə Hərbi Hava Qüvvələrinin hava hücumundan müdafiə sistemində xidmət edib".

Ailə üzvlərini ön cəbhəyə yola salan, bu gün isə onların qəhrəmanlıq dastanlarına qulaq asan Mirəsgər Həşimov deyir ki, iki qardaşı, üç oğlu Milli Ordumuzun zabitləridir, hər biri mayor rütbəsindədir: "...Qardaşlarım Araz və Fikrət Perm Hərbi Aviasiya Məktəbini bitiriblər. Oğlanlarım da əmilərinə baxıb təyyarəçilik peşəsini seçiblər. Qardaşlarım yük təyyarəsi sürüblər, müharibədə ordunun təminatında iştirak ediblər. Oğlanlarım Qalib və Taleh qırıcı təyyarə pilotlarıdır. Alim isə Hava Hücumundan Müdafiə sistemində xidmət edir. Ölkəyə düşmən tərəfindən atılan raketlərin zərərsizləşdirilməsində də onun böyük rolu olub..."

Hər üç qardaş Heydər Əliyev adına Hərbi Təyyarəçilik Akademiyasını fərqlənmə diplomu ilə bitirib. Akademiyada öyrəndikləri və qazandıqları təcrübələri onlara döyüşdə böyük uğur qazandırıb. Taleh Həşimov "Azərbaycan bayrağı" ordeni, Suqovuşan, Kəlbəcər və Cəbrayılın azadlığı uğrunda medalları ilə təltif olunub. Araz Həşimov da xidmətlərinə görə Ali Baş Komandan tərəfindən "Vətən uğrunda" medalına layiq görülüb.

Bu ailənin doğması olan Gülnar Əliyeva "beş qəhrəman" haqqında söz açarkən deyir ki, onların döyüşdə qazandıqları nailiyyətlərdə, həm də Vətənə olan sonsuz sevgilərinin payı var. Qalib əsgərləri Boladı kənd əhalisi böyük təntənə ilə qarşılayıb: "Mən də bu qalibiyyətə çox sevinirdim. Bunu sözlə ifadə etmək çətindir. Taleh "Azərbaycan bayrağı" ordeninə layiq görülmüşdü. Amansız və təcavüzkar düşmənin məhv edilməsində böyük rolu olub. Dövlətimizin başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev onun da qəhrəmanlığını qiymətləndirib. Bir neçə günlük məzuniyyət vermişdilər ona, kəndə gəlmişdi. Kənd cəsur döyüşçünün ziyarətinə axışırdı. Zarafatla deyirdi ki, "müharibə bundan rahat idi..." Ümumiyyətlə, Həşimovları rayon, kənd elə təntənə ilə qarşıladı ki, bundan qürur keçirməmək mümkün deyildi.

Kəndimizin döyüşkən igidləri yalnız bu beş qəhrəman deyil ki. Boladı Birinci və İkinci Qarabağ savaşlarında öz oğullarını şəhid kimi də qarşıladı. Vətən müharibəsində də kəndimizin vətənpərvərləri ön cəbhəyə könüllü getdilər. Zəfərlə dönənlərimizlə yanaşı, doğmalarının yanına qazi və şəhid olub qayıdanlarımız da var. Bu dəfə kəndimiz 3 şəhid verdi. Allah onların hər birinə rəhmət eləsin. Mirəsgər əmi fəxr edir ki, onun oğullarının, qardaşlarının da şəhidlərin qanının yerdə qalmamasında rolu oldu".

Bəli, bu o qardaşlardır ki, 10 dekabr 2020-ci ildə Bakıda Azadlıq meydanında təntənəli şəkildə keçirilən Zəfər paradında paytaxtın səmasında idarə etdikləri təyyarələrlə üçrəngli bayrağımızın rəmzini cızdılar. Göylərin şahinləri yerdə - Azadlıq meydanından nizamla keçən Silahlı Qüvvələrin bütün növlərinin döyüşlərini, xüsusən tribunada əl-ələ verərək paradı qəbul edən, alqışlayan, "Bir millət-iki dövlət"in Prezidentləri İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanı salamlamaqla deyirdilər: "Qarabağ Azərbaycandır!"

*Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"*

● Zəfərin qəhrəmanları

## Qalib kimi geri döndülər

**Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin əmri ilə işğal altındakı yurd yerlərimizi cəmi 44 gündə düşməndən təmizləyən ordumuz Vətən müharibəsindəki tarixi Qələbəsi ilə təkcə torpaqlarımızı azad etmədi, bizi də həyatımızdakı 30 illik natamamlıq kompleksindən qurtardı.**



*Nizami HÜSEYNLİ*



*Ziya ZAİDOV*

İllərlə ürəyimizdə gəzdirdiyimiz ağır yükdən xilas olduq. Həyatımızda yeni arzu və ümidlərə, xoş başlanğıclara, böyük milli hədəflərə doğru dəyişiklik oldu. Ömrümüzdəki boşluq qələbə ruhu ilə, nigaran yurdlarımıza qovuşmağın vüsalı ilə doldu. Ordumuzun zəfər əldə etdiyi İkinci Qarabağ müharibəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi sistemindən də müxtəlif vəzifələrdə çalışan 84 əməkdaş şərəfli döyüş yolu keçdi. Dövlət başçısının sərəncamına uyğun olaraq səfərbərlik çərçivəsində onlar Silahlı Qüvvələrimizin sıralarına qoşularaq ərazilərimizin erməni faşizminin 30 ilə yaxın davam edən işğalından azad edilməsində şücaətlər göstərdilər. Torpaqlarımızın azad edilməsi naminə haqq savaşımızı ləyaqətlə başa vuraraq geri dönən Vətən övladları çalışdıqları kollektivlər tərəfindən qaliblər kimi qarşılandılar.

Nizami Ələmdar oğlu Hüseynli 2006-cı ildə Sumqayıt Dövlət Universitetini bitirib, bundan sonra zabit kimi iki il orduda xidmət edib. 2009-cu ildən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi sistemində işləyir və hazırda Məşğulluq siyasəti və demoqrafik inkişaf məsələləri şöbəsində baş məsləhətçi vəzifəsində çalışır. Ehtiyatda olan zabit - baş leytenant kimi müharibənin ilk günlərindən döyüşlərə yollanıb. N.Hüseynli dövlət başçısının sərəncamları ilə "İgidliyə görə", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medallarına layiq görülüb.

Söhbət əsnasında baş leytenant Nizami Hüseynli bildirdi ki, 30 ilə yaxın erməni faşizminin əsarətində olan torpaqlarımızın işğaldan azad edilməsi xalqımızın ən böyük arzusu idi: "Qüdrətli Ordumuz cəmi 44 gün ərzində bu arzunu reallaşdırdı. Yurd yerlərimiz düşməndən azad edildi. Bundan böyük fərəh doğuran heç nə ola bilməz. Sevinirəm ki, bu qələbə naminə döyüşənlərdən biri də mən oldum. Ümumilikdə, hər bir Azərbaycan zabiti, əsgəri bu müharibədə misilsiz igidliklər göstərdilər, əsrlərboyu dillərdə əzbər olacaq bir dastana imza atdılar. Ordumuzun sarsıdıcı zərbələrindən məhv olmuş Ermənistan hələ uzun müddət özünə gələ bilməyəcək!

Azərbaycanımız müdrik Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə möhtəşəm zəfəri təmin edərək şanlı tarix yazdı".

Vətən müharibəsi başlayandan sonra ölkəmizin ərazilərinin təcavüzkar Ermənistan işğalından azad edilməsi istiqamətində aparılan hərbi əməliyyatlarda fəal iştirak edərək, özünü savadlı, bacarıqlı, cəsur bir zabit kimi doğruldanlardan biri də baş leytenant Ziya Səadət oğlu Zaidovdur. 1975-ci ildə doğulan Ziya 1997-ci ildə Bakı Dövlət Universitetini bitirib. 2017-ci ildən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi sistemində işləyir. Döyüşlərdə şücaətlərinə görə ölkə Prezidenti onu müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edib.

O, ölkə rəhbərinə dərin minnətdarlığını bildirdi: "Möhtərəm Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevə təşəkkür edirəm ki, məni bu medallara layiq görüb. Bu, böyük şərəf deməkdir. Bizim bu müharibədə zəfərimizin əsasında Azərbaycan Prezidenti İlham Əliyevin müdrikliyi, qətiyyəti, uzaqgörən sərkərdə bacarığı, ordumuzu daim irəliyə aparması dayanır. Bu gün bütün dünya Azərbaycan Ordusunun nə qədər güclü olduğunu gördü, bu nailiyyət məhz Ali Baş Komandanımızın uğurlu siyasətinin nəticəsidir. Müharibədə xalqımız dəmir yumruq kimi öz rəhbərinin ətrafında birləşdi. Bu dəmir yumruq Qələbəni təmin etdi".

*"Azərbaycan"*

● Ölümsüzlüyə qovuşanlar

## Sonuncu zəngə cavab verməyən komandir

**...Dünyaya göz açdığı kənd 28 il idi ki, təcavüzkar Ermənistanın tapdağı altında qalmışdı. Digər ərazilərimizdən fərqli olaraq, bu kəndin bəxti onda gətirmişdi ki, camaat qocalı-qarılı, böyüklü-kiçikli 113 gün dağlara çəkilərək erməni vandallarının doğma ocaqlarını söndürməyə, tar-mar etməyə imkan verməmişdi.**



Bütün bu olmuşlar 4 mart 1980-ci ildə Kəlbəcər rayonunun Başlıbel kəndində anadan olmuş Cəfərov Zaur Hüseyn oğlunun yaddaşına yazılmışdı. Atası Hüseyn Cəfərov əvvəllər Kəlbəcərdəki Televiziya Stansiyasında, sonralar isə rabitə qovşağında, əmisi Əli isə uzun illər Bakı Metropolitenində baş mühəndis vəzifəsində işləmişdi, Əməkdar mühəndis idi.

1993-cü ilin aprelində Ermənistanın Kəlbəcəri işğal etməsi nəticəsində ailə əvvəlcə Qax rayonuna, sonra isə işlə əlaqədar Bakıya köçməyə məcbur olub. Ona görə də Zaur orta təhsilini 1997-ci ildə Bakı şəhəri Qaradağ rayonunun Qızıldaş qəsəbəsindəki şəhid Azər Namazov adına məktəbdə başa vurub. Qardaşı Niyaməddin müəllim deyir ki, babalarımız Cəfərov Həsənlə Həsənov Həsən 1941-1945-ci illər müharibəsinin veteranları, bibimiz oğlu Yalçın isə Birinci Qarabağ savaşında şəhid olub: "Hələ 13 yaşında ikən ata yurdumuz, ana Vətənimiz Kəlbəcərin ermənilər tərəfindən işğal edilməsi, qaçqınlıq-köçkünlük, qohumlarımızdan 9-nun bu yolda şəhid olması gənc Zaurun yaddaşına ağrılı-acılı məqamlar kimi həkk olunmuşdu. Bundan başqa, 49 başlıbellimizin mühasirəyə salınaraq Tuneldə girov götürülmələri, 113 gün kaha və mağaralarda ac-susuz qalıb doğma kəndi qoruyarkən 18 nəferimizin son nəfəsədək döyüşsələr də, düşmən tərəfindən amansızcasına qətlə yetirilmələri onu rahat buraxmırdı...."

Şəksiz ki, o, bütün bu amansızlıqları yaddaşına yazmaqla hərbçi olmağa qəti qərar verib. Vaxtı və zamanı gələndə düşməndən qisas almasını isə unutmurdu. Orta məktəbi müvəffəqiyyətlə başa vuran Zaur buna görə də sənədlərini Heydər Əliyev adına Ali Hərbi Məktəbə verib və istəyinə nail olub.

2000-ci ildə NATO ölkələrinin - qardaş Türkiyə, Macarıstan və Rumıniyada keçirilən təlim və kurslara qatılan Zaur Cəfərov burada bilik, təcrübə və vərdişlərə yiyələnərək, əsl hərbçi kimi yetişib. Ali Hərbi Məktəbi bitirərək Dövlət Attestasiya Komissiyyasının 2001-ci ildə qəbul etdiyi qərarla Raket Artilleriya Qoşunlarının döyüş fəaliyyətinin idarə edilməsi, operativ taktiki raket, yerüstü artilleriya və sahil raket artilleriya silahlarının bakalavr dərəcəsini alan Zaur Cəfərov getdikcə bu sahədə mütəxəssis kimi tanınmağa başlayıb.

O, 2014-cü ildə Silahlı Qüvvələrin Hərbi Akademiyasının magistratura pilləsinə daxil olub. Təhsilini bitirdikdən sonra polkovnik-leytenant rütbəsi alıb. Diviziya komandirliyindən artilleriya rəisliyinə, daha sonra hərbi hissə komandirinin müavini və qərargah rəisi vəzifəsindək yüksəlib. Polkovnik-leytenant 2016-cı ilin "Aprel döyüşləri"ndə və 2020-ci ildə Ermənistanın Azərbaycan sərhədinin Tovuz rayonu istiqamətində təcavüzü zamanı öz əsgərləri ilə birlikdə ön cəbhədə olub və amansız düşmənə qarşı barışmaz mövqeyini ortaya qoyub.

Komandir Zaur Cəfərov 27 sentyabr 2020-ci il tarixdən başlayan Vətən müharibəsində də öz briqadası ilə döyüşlərin şiddətli yerində olub. O, həmin günü 28 il gözləmişdi. Düşmənin döyüş mövqelərində qoyub qaçdığı ağır hərbi texnikanı qənimət kimi götürərək özü idarə edirdi. Komandir və döyüş dostları general Polad Həşimovla İlqar Mirzəyevin və bibisi oğlu Yalçın Mustafayevin, eləcə də istər Başlıbelin mühasirədə qaldığı günlərdə, istərsə də Xocalıda əsir götürülən qız-gəlinlərin qisasını almaq üçün özünü hər an ölümün üstünə atırdı. Lakin o, təcrübəsiz deyildi. Buna görə də hər dəfə düşmənə ağır itkilər verərək, qənimətlə geri dönürdü. Onun idarə etdiyi briqada düşmənin 4 tankını vurub, 3-nü qənimət kimi ələ keçirib. Xeyli sayda "Ural", "KamAZ", QAZ-33", "UAZ" və digər markalı avtomobil, "D-30", "D-44" və digər topları qənimət götürərək düşmənə tərəf çevirib.

...Şəhadətindən üç gün öncə qardaşı Binazənə zəng edib deyir ki, "oğlum Həsəni gətirin, nədənsə, görmək istəyirəm". Oğlu Həsən və bir neçə qohumu onun yanına gediblər. Zaur Cəfərov qohumlardan daha bir xahiş edib. İlqar Mirzəyevin, Polad Həşimovun, eləcə də bibisi oğlu Yalçın kimi neçə-neçə cəngavər qəhrəmanlarımızın qisasını aldığını və dəfələrlə ağır şəraitdən sağ-salamat çıxdıqları üçün qurban kəsmələrini istəyib.

...Ölümündən bir neçə saat öncə yazdığı statuslarına görə, qohum-əqraba nigaran qalaraq ona zəng edib, cavab almadıqları üçün mesaj yazıblar. Amma nə zənglərə, nə də mesajlara cavab gəlib...

2020-ci il oktyabrın 9-dan 10-na keçən gecə Ağdərə, Suqovuşan istiqamətində gedən şiddətli döyüşlər zamanı öz minik maşını ilə mövqeləri təyin etmək və düşməndə olan tank mərmisi atan, modifikasiya edilmiş topları qənimət kimi götürmək üçün gecə saatlarında yola çıxıb və maşını minaya düşüb. Düşmən üzərinə gedən cəsur igidimiz də beləcə şəhid olub... İkinci Fəxri xiyabanda dəfn edilib.

Ölümündən sonra Azərbaycan Prezidentinin fərmanları ilə təltif olunan şəhidlərimizin sırasında polkovnik-leytenant Zaur Cəfərovun da adı var. O, "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medallarına layiq görülüb.

Şəhid komandirimizin Vətənə göstərdiyi xidmətlərə görə təltifləri yalnız bunlardan ibarət deyil. O, hələ hərbi xidmət illərində "Azərbaycan Ordusunun 100 illiyi" (1918-2018), "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi" (1991-2001), Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 və 95 illiyi yubiley medallarını, "Qüsursuz xidmətə görə" medalının isə hər üç dərəcəsini alıb.

*M.NƏRİMANOĞLU, "Azərbaycan"*

● Tarix yazan oğullar

## Cəsur leytenant

### "Cəbraylın azad olunmasına görə" medalı ilə təltif olunmuş zabitimiz

**Onunla Bakıda, Müdafiə Nazirliyinin C.Məmmədquluzadə küçəsində yerləşən hərbi hospitalının dəhlizində tanış oldum. - Qardaşoğlu, növbətçi həkimi görmək istəyirik, hansı otaqda olar?**
**- Həkim buradadı, amma məşğuldu - sarğı otağındadı.**
**Yanımdakı qohum dözməyib övladından xəbər bilmək üçün növbətçi həkimin kabinetinə doğru getdi. Yaranmış şəraitlə əlaqədar yaralı əsgərlə həmsöhbət olduq.**



Əsgərov Sabir Eldar oğlu Sumqayıtda böyüyüb boya-başa çatıb. Evin sonbeşiyi olub, özündən böyük iki qardaşı var. 2007-ci ildə Sumqayıt şəhər 26 nömrəli məktəbi bitirib. Elə həmin il Naxçıvan Dövlət Universitetinin Hüquq fakültəsinə qəbul olunub və 2011-ci ildə universiteti əla qiymətlərlə başa vurub. 2011-ci ildə Milli Ordu sıralarında Ağcabədidə "N" saylı hərbi hissədə xidmətdə olub. 2011-ci ilin noyabr ayında Müdafiə Nazirliyinin Təlim-Tədris Mərkəzində xüsusi kursları bitirdikdən sonra ədliyyə leytenantı rütbəsi alıb xidmətini Naxçıvan Muxtar Respublikasının "N" saylı hərbi hissəsində həmin hissənin hüquqşünası vəzifəsində davam etdirib. Ailəlidir, bir oğlu, bir qızı var.

2020-ci il iyulun 12-də başlayan Tovuz hadisələri bütün Azərbaycan xalqının, o cümlədən də gənclərimizin hiddətinə səbəb olmuşdu. Ermənistan silahlı birləşmələri qəfildən Azərbaycan kəndlərinə hücum edən zaman Sabir Əsgərov ailəsinin belə xəbəri olmadan könüllü cəbhəyə getməyi, ermənilərlə üzbəüz döyüşməyi xahiş edərək qeydiyyatdan keçmişdi. Lakin... Ötən il sentyabrın sonlarında erməni işğalçılarının ərazimizə növbəti hücumu zamanı sanki Sabirin əlinə böyük şans düşmüşdü. O, dərhal Səfərbərlik və Hərbi xidmətə çağırış üzrə Dövlət Xidmətinin Sumqayıt şəhər bölməsinə gedərək rəsmi qaydada ərizə yazıb cəbhəyə yollanmasını xahiş etmişdi. Oradan da birbaşa evlərinə gedib atası Eldardan və anası Validə xanımdan xeyir-dua istəmişdir. Ata da, ana da "qəfil xahiş"ə, qəfil xeyir-duaya bir tərəfdən təəccüblənsələr də, övladlarının bu vətənpərvərliyindən qürur hissi keçirmişdilər.

Sentyabrın 27-də başlayan Vətən müharibəsinə Füzuli rayonundan başlayan leytenant Sabir Əsgərov bir neçə kəndin erməni işğalçılarından azad edilməsinin iştirakçısı olur. Bölgə erməni silahlıları və terrorçu silahlı qruplaşmalardan təmizləndikdən sonra o, Cəbrayıl istiqamətində gedən döyüşlərə qatılır. Cəbrayılda müəyyən yüksəkliklərin ələ keçirilməsində şiddətli döyüşlərin iştirakçısı olur. Növbəti əks-hücum zamanı bir neçə qəlpə yarası alır, sol ayağının baldır nahiyəsinin bir parçasını qəlpə sümüyə kimi sıyırıb aparır. Yanındakılar onu yaralı olduğu üçün dəfələrlə arxaya - həkim yanına aparmağa cəhd etsələr də, leytenant Əsgərov təklifə etiraz edir. Yoldaşları məcbur olub Sabirin qıçını həm diz nahiyəsindən bir az aşağıdan, həm də topuqdan bir az yuxarıdan xüsusi kəndirlə - jqutla (qanaxmanın qarşısını almaq üçün) möhkəm bağlayırlar. Leytenant bu vəziyyətdə düşmənin nəfəsini kəsənə kimi gah gülləsi qurtaran döyüş yoldaşlarının avtomatının darağını doldurur, gah mərmi partlayışı nəticəsində huşunu itirmiş əsgərlərimizə yardım göstərir, gah da düşmən gülləsinə tuş gəlmiş səngər yoldaşının pulemyotunun arxasına keçib düşməndən qisas almağa çalışır. Beləliklə, axşamdan səhərə qədər səngər yoldaşlarına yardımçı olur, səhər hərbçilərimizə əlavə kömək gəldikdən sonra dağlıq hissə olduğundan bir neçə nəfərin köməyi ilə zabit Sabir Əsgərovu çox çətinliklə səngərdən arxaya gətirə bilirlər. İlkin tibbi yardım aldıqdan sonra Beyləqan Rayon Mərkəzi Xəstəxanasının travmatologiya şöbəsinə çatdırırlar. Bir neçə gün burada müalicə aldıqdan sonra, o, israrla döyüşçü yoldaşlarının yanına qayıtmaq istəyini bildirsə də, həkimlər onu Bakıya Müdafiə Nazirliyinin Hərbi Hospitalına yola salırlar.

İndi müalicəsi istənilən nəticəni verməkdədir, hətta bir neçə gündür ki, həkimlər ona asta-asta gəzməyi məsləhət görüblər. Çox təəssüflənirdi ki, valideynlərindən xeyir-dua alıb cəbhəyə yollananda demişdi: "Torpaqlarımızın erməni işğalından azad edilməsində son nəfəsimə kimi döyüşəcəyəm, Şuşaya Azərbaycan bayrağını mən sancacağam... Bu, həm də anamın arzusu idi". Gözucu əlindəki qoltuq ağacına və sarğılı qılçasına işarə edərək dedi: "Təəssüf ki, belə oldu". Təsadüfi görüşdə ona sağlıqlar diləyib ayrılanda mobil telefon nömrələrimizi bir-birimizə xatırlatdıq.

Yeni ildə Sabirin qəfil zəngi məni çox sevindirdi. Bildirdi ki, müalicəsi yaxşı gedir, heç bir narahatçılığı yoxdur, sonra gülə-gülə dedi:

- Cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin sərəncamı ilə mən və döyüşçü yoldaşlarım "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif olunmuşuq. Sevinc sevincə, təbrik təbrikə qarışdı. Sonda bütün bunlara görə Ali Baş Komandana özünün, ailələrinin və döyüşçü yoldaşlarının təşəkkürünü bildirdi.

*Rəhman SALMANLI, "Azərbaycan"*

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Qarabağda aparılan bərpa-quruculuq işləri yaxın məqsədə və uzaq perspektivə hesablanıb



Prezident İlham Əliyevin birinci xanım Mehriban Əliyeva və qızı Leyla Əliyeva ilə birlikdə fevralın 14-də Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarına növbəti səfəri bütün Qarabağda yüksək texnologiyalara start verilməsi baxımından böyük maraq doğurur və xüsusi əhəmiyyət kəsb edir. Bu bir daha göstərir ki, dövlət başçısı işğal edilmiş ərazilərin bərpası və yenidən qurulması ilə bağlı bütün ideya və planlarını sürətlə reallaşdırmaq gücünə qadirdir.

İlham Əliyev qətiyyəti və yenilməz sərkərdə əzmi ilə müzəffər ordumuzun gücünə və xalq-iqtidar birliyinə söykənərək düşməni ildırım sürətilə necə məğlub etdisə, o cür yenilməz ruhla da işğaldan azad edilmiş ərazilərdə sistemli quruculuq işlərinin və yüksək texnologiyaların tətbiqinə başlayıb. İndi az qala bütün dünya həmin ərazilərdə bərpa-quruculuq işlərinin birinci mərhələsinin necə geniş və əhatəli şəkildə vüsət almasına şahidlik edir.

Səfər boyu dövlət başçısının işğaldan azad edilmiş müxtəlif yaşayış məntəqələrindən keçərkən səsləndirdiyi fikirlər əslində Azərbaycan xalqına, bütün dünya ictimaiyyətinə və sözsüz ki, həm də məğlubiyyəti ilə barışmağa acizlik çəkən işğalçı Ermənistana mesajlar idi. Bunlar o demək idi ki, Azərbaycanda ordu daha da güclənəcək, bərpa və quruculuq işləri yüksək texnologiyalar üzərində qurulacaq, işğal edilmiş ərazilərdə şəhərlər və kəndlər mütərəqqi "ağıllı" layihələr əsasında salınacaq.

Prezidentin Füzuli rayonunda Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini qoyması, Zəngilan rayonunun Üçüncü Ağalı kəndində və digər rayonların bir neçə kəndində icra olunacaq "ağıllı kənd" layihələrinə start verildiyini bildirməsi, Laçın rayonunun Güləbird kəndində qısa müddət ərzində işə salınan su elektrik stansiyasının açılışında iştirak etməsi bir daha göstərir ki, Azərbaycan üçün azad edilmiş ərazilərin dirçəldilməsi də tarixi bir missiyadır.

Qarabağda həyata keçirilən bərpa işlərinin necə uzaq perspektivlərə səmtləndiyini, islahatların ən müasir dünya təcrübəsi və yeni texnologoyalar üzərində qurulduğunu aydın görmək üçün onlara ötəri nəzər salmaq kifayətdir. Prezident İlham Əliyev Güləbird kəndində çıxış edərkən də elə həmin məsələlərə toxunmuşdur: "Biz təklif etmişdik ki, bölgəmizin uzunmüddətli inkişafı, sabitliyin təmin edilməsi və müharibə risklərinin sıfıra endirilməsi üçün bölgədə nəqliyyat layihələrinin xüsusi rolu vardır və burada iştirak edən bütün ölkələr ancaq xeyir götürəcək, fayda götürəcək. Azərbaycan Naxçıvanla, Türkiyə ilə birləşir. Eyni zamanda Rusiyadan Ermənistana dəmir yolu xətti açıla bilər. Bu xətt yalnız Azərbaycan ərazisindən keçə bilər. Həmçinin Rusiya ilə İran arasında Naxçıvan ərazisi ilə dəmir yolu bağlantısı olacaq. İran ilə Ermənistan arasında dəmir yolu bağlantısı olacaq. Türkiyə ilə Rusiya arasında dəmir yolu bağlantısı olacaq. Yəni, bütün bölgə ölkələri bundan ancaq xeyir görəcəklər".

Füzulidə aeroportun tikintisinın sürətlə davam etməsi, Şuşaya yeni avtomobil yolunun çəkilməsi, Naxçıvana səmt götürən dəmir yolunun təməlinin qoyulması Qarabağda müasir tələblərə cavab verən yol infrastrukturunun yaradılmasından xəbər verir. Bununla Azərbaycan həm də quruculuq ənənələrinə, sülhə və əmin-amanlığa sadiqliyini nümayiş etdirir. Özü də qonşu Ermənistanda siyasi qüvvələrin qarşıdurmasının sərtləşdiyi bu zamanda.

Azərbaycan Prezidenti bu səfərdə də diqqəti bir daha erməni vandalizminə yönəltdi: "Qubadlı rayonunun Muradxanlı kəndi, ermənilər burada yaşayıblar, buranı da dağıdıblar. Artıq bərpa işləri gedir. Bu da Həkəri kəndidir. Baxın, nə gündədir, ermənilər bu it damında yaşayıblar. Dağıdılmış bu evlər erməni faşizminin törətdiyi əməllərdir. Bütün dünya görsün bunları".

Yeri gəlmişkən, ermənilərin faktiki olaraq nasizm ideyaları ilə kütləvi surətdə iliyinədək yoluxması bu xalqın milli faciəsinə çevrilmişdir. Halbuki erməni xalqı gələcəyini Azərbaycanın yaratdığı şəraitdən faydalanıb qurmaqla dağıdıcı faşist ideologiyasından birdəfəlik yaxasını qurtara bilər. Təbii ki, istəsə. Hələliksə Koçaryanın yeni müharibə çağırışları, Sarkisyanın ondan geri qalmamağa çalışması Ermənistanı bütün Qafqaz üçün ciddi təhlükə mənbəyinə çevirir.

Odur ki, bu gün Azərbaycanın regionda sülhün və təhlükəsizliyin təminatçısı olduğunu dünya ictimaiyyəti etiraf etməli, dəstəkləməli və müzəffər ordumuzun diz çökdürdüyü erməni faşizminin dirçəlməsinə imkan verməməlidir. Bunacan isə Azərbaycan özü həmin missiyasını yerinə yetirməkdə qərarlıdır: "Bu, eyni zamanda, ona görə önəmlidir ki, bu gün də Ermənistanda revanşist qüvvələr baş qaldırmağa çalışır. Azərbaycanı növbəti təxribatlarla, növbəti müharibə ilə hədələməyə çalışırlar. Onlar anlamalıdırlar ki, biz hər şeyə diqqət yetiririk, hər şeyə nəzarət edirik və heç vaxt imkan verə bilmərik ki, erməni faşizmi bir daha başını qaldırsın. Biz erməni faşizmini məhv etmişik. Düşməni öz doğma torpaqlarımızdan qovmuşuq. Onları torpaqlarımızdan rədd etmişik. Ermənistan ordusunu, demək olar ki, məhv etmişik. Ermənistan ordusu yoxdur, dağılıb. Həm texnika dağılıb, həm canlı qüvvə dağılıb". Bu, İlham Əliyevin qətiyyətidir. O qətiyyətinin ki, erməni millətçi liderlərinin, əlləri qana bulaşmış cinayətkar hərbi birləşmələrin quldur rəhbərlərinin atacağı hansısa bir addımının cəzasız qalmayacağından xəbər verir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## BƏT ekspertləri ilə birgə videokonfrans keçirilib

İstehsalat təlimi, təkmilləşdirilmiş texniki peşə təhsili və təlimi ilə bağlı şagirdlik üzrə normativ bazanın qabaqcıl beynəlxalq təcrübəyə uyğun təkmilləşdirilməsi məsələlərinə dair Beynəlxalq Əmək Təşkilatının (BƏT) ekspertləri ilə birgə videokonfrans keçirilib.

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev işçi qüvvəsinin bilik və bacarıqlarının, əmək bazarında rəqabətqabiliyyətinin artırılması sahəsində ölkədə aparılan işləri diqqətə çatdırıb. Bu sahədə, həmçinin gənclərin əmək bazarına keçidinin asanlaşdırılmasında istehsalat təlimlərinin, peşə təhsili üzrə şagirdlik sisteminin, müəyyən təcrübə keçmənin, iş təcrübəsi proqramları üzrə təlimlərin təşkili praktikasının önəmini qeyd edib.

Nazir müavini BƏT-in müvafiq konvensiya və tövsiyələrində də bu məsələnin əksini tapdığını, işçi qüvvəsinin daim əmək bazarının tələblərinə daha çox uyğunlaşması və iqtisadiyyatın inkişafına uyğun təkmilləşməsi ilə bağlı dünyada müxtəlif təcrübələr olduğunu diqqətə çatdırıb. A.Əliyev BƏT ekspertləri ilə videokonfrans formatında təşkil olunan bu görüşün də işçi qüvvəsinin inkişafına xidmət edən istehsalat təlimləri və şagirdlik üzrə milli təcrübənin qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşdırılması mövzusuna həsr olunduğunu bildirib.

Görüşdə BƏT-in Azərbaycandakı milli əlaqələndiricisi Yaşar Həmzəyevin, BƏT-in beynəlxalq əmək standartları və əmək hüququ üzrə baş mütəxəssisi Leo Sibelin, BƏT-in səriştələrin inkişafı sistemləri üzrə baş məsləhətçisi Aşvani Aqarvalın, BƏT-in "MDB-də Gənclərin Məşğulluğu üçün Tərəfdaşlıq" layihəsinin rəhbəri Ramiro Pizaronun fikirləri dinlənilib. İstehsalat təlimi, təkmilləşdirilmiş texniki peşə təhsili və təlimi sahəsində dünya təcrübələrinə dair təqdimatlar edilib. Bu sahədə normativ bazanın qabaqcıl beynəlxalq təcrübəyə uyğun təkmilləşdirilməsi üçün əməkdaşlıq müstəvisində görüləcək işlər müəyyən edilib.

## Vətən müharibəsi zamanı mülki əhaliyə dəymiş ziyanın aradan qaldırılması davam edir

Məlum oilduğu kimi, İkinci Qarabağ müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərini ağır artilleriyadan atəşə tutması nəticəsində mülki əhaliyə, dövlət əmlakına, infrastruktur obyektlərinə, o cümlədən sahibkarlıq subyektlərinə dəymiş ziyanın siyahıya alınması üçün yaradılmış müvafiq komissiya xeyli vaxtdır ki, fəaliyyətə başlamışdır.



Komissiya digər bölgələrdə olduğu kimi, Goranboy rayonunun cəbhəyanı ərazilərində yerləşən Aşağı Ağcakənd, Meşəli, Qaraçinar, Yenikənd, Zeyvə, Hacallı, Səfikürd, Şahməmmədli, Qarasüleymanlı, Qızılhacılı, Tapqaraqoyunlu və Tap yaşayış məntəqələrində də vətəndaşların şəxsi əmlaklarına və evlərinə dəymiş ziyanın müəyyənləşdirilməsi istiqamətində xeyli iş aparmışdır.

Artıq Goranboy rayonu üzrə 471 obyektə baxış keçirilmiş, bundan 371 nəfərə ziyan dəyməsi müəyyən edilərək aktlar tərtib olunmuşdur. Aktlar əsasında komisssiya tərəfindən qiymətləndirmə aparılmış, Kapital Bankın Goranboy rayon filialında həmin şəxslərin adlarına açılmış hesab nömrələrinə müəyyən olunan məbləğdə vəsait köçürülmüşdür. O cümlədən ciddi ziyan dəymiş 5 fərdi yaşayış evinin tikintisi nəzərdə tutulmuşdur. Artıq Zeyvə kənd sakini Qədimov Hikmət Cəlal oğlunun fərdi yaşayış evinin tikintisinə başlanılmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Abşeronun yol infrastrukturu yenidən qurulur

Yarımsəhra sayılsa da, Abşeron yarımadasının özəllikləri çoxdur. Mavi Xəzərin sahili, digər ərazilərdən seçilən havası, əncili, üzümü, zeytunu, zəfəranı ilə məşhurlaşan bitki aləmi və nəhayət, nefti, qazı yarımadanı qədimdən cəlbedici etmişdir. İndi bu ərazini məşhurlaşdıran həm də eyniadlı rayonunun abadlığıdır.

Abşeron rayonunun inkişafı daim Prezident İlham Əliyevin xüsusi diqqət mərkəzindədir. Uzağa getməyək, dövlət başçısının ötən ilin əvvəlində imzaladığı ilk sərəncamlardan biri Abşeron rayonu ilə bağlı olub. Belə ki, Prezidentin 9 yanvar 2020-ci il tarixli "Abşeron rayonunun ərazisində avtomobil yollarının əsaslı təmiri ilə bağlı əlavə tədbirlər haqqında" sərəncamına əsasən rayonun Saray, Ceyranbatan, Mehdiabad, Qobu qəsəbələrinin və Masazır kəndinin ərazilərində ümumi uzunluğu 29,2 kilometr olan avtomobil yollarının əsaslı təmiri üçün dövlət büdcəsindən 19,7 milyon manat ayrılmışdır.

Sərəncamda Masazır kəndində 6, Qobu qəsəbəsində 5, Ceyranbatan və Saray qəsəbələrində 3 və Mehdiabad qəsəbəsində 4 küçənin təmiri nəzərdə tutulur. Məqsəd vətəndaşların gediş-gəlişində payızqış mövsümündə yaranan problemlərin aradan qaldırılmasıdır.

Ümumilikdə bu kənd və qəsəbələrdə 23 küçə və yolda təmir işlərinin həyata keçirilməsi nəzərdə tutulur ki, onların da bir qismində işlər artıq başa çatıb. Məsələn, Masazır kəndində təmiri nəzərdə tutulan 7 küçədən 2-də işlər tamamlanıb. Bu, Şıxəli Qurbanov və Akim Abbasov küçələridir. Qaçaq Nəbi, Hacı Zeynalabdin Tağıyev, Faiq Həsənov, Nazim Əsədov və İlyas Bayramov küçələrinin isə bu ilin sonunadək təmir olunması planlaşdırılır. Bunlardan əlavə, Mehdiabad qəsəbəsində Qara Qarayev, Cəfər Cabbarlı, Əhməd Cavad və Çingiz Mustafayev küçələri yenidən qurulur. Artıq qəsəbənin Qara Qarayev küçəsində asfaltlama işi başa çatıb. Bu küçə Abşeron rayonunda kənd və qəsəbələri birləşdirən yol olduğu üçün onun abadlaşdırılması böyük əhəmiyyət daşıyır.



Hazırda Xırdalan şəhərinin uzun küçələrindən olan M.Ə.Rəsulzadə küçəsində də təmir işləri aparılır. Layihə çərçivəsində vətəndaşların küçənin kənarı ilə rahat və təhlükəsiz hərəkətini təmin etmək üçün səkilər yenidən qurulub, köhnə səki daşları yeniləri ilə əvəzlənib. Ümumilikdə küçə boyu 1400 paqonmetr yeni səki daşları düzülüb.

Layihənin sonuncu mərhələsində kanalizasiya quyularının qapaqları yenilənəcək, yol kənarlarına yeni yağış barmaqlıqları yerləşdiriləcək, hərəkətin normal təşkili üçün yol nişanları və məlumatverici lövhələr quraşdırılacaq, bir sözlə, müasir yol infrastrukturu yaradılacaq. Onu da qeyd edək ki, işlərin vaxtında yekunlaşdırılması üçün əraziyə lazımi sayda canlı qüvvə və texnika cəlb edilib.

Şəhərin Əvəz Şəfiyev küçəsi də əsaslı şəkildə yenidən qurulur. Artıq küçənin köhnə asfalt-beton örtüyünün üst qatı frezlənərək kənara daşınıb. Hazırda ərazidə asfaltlanma işləri aparılır. Eyni zamanda şəhərin daha iki küçəsində asfaltlanma işlərinə başlanılıb.

Amma bunlar da hələ hamısı deyil. Paralel olaraq Saray qəsəbəsinin 7 küçəsi yenidən qurulur. Asfaltlanma işləri qəsəbənin 7 küçəsini əhatə edir.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## Yanvarda Azərbaycan Ukrayna ilə 145 milyon dollarlıq ticarət edib

### Belarusla isə ticarət dövriyyəsinin dəyəri 8 milyon dollardan çox olub

Ukrayna Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, yanvar ayında Azərbaycan və Ukrayna arasında ticarət dövriyyəsinin dəyəri 145 milyon dollara yaxın olub.

Ötən ay Azərbaycan bu ölkəyə 115,6 milyon dollarlıq məhsul ixrac edib. Ölkəmizin Ukraynadan idxal etdiyi məhsulun dəyəri isə 29 milyon dollar olub.

Qeyd edək ki, 2020-ci ildə Azərbaycan və Ukrayna arasında ticarət dövriyyəsinin dəyəri 771,5 milyon dollar olub, bu da pandemiya ilə əlaqədar olaraq 2019-cu illə müqayisədə 36,5 milyon dollar azdır.

Xatırladaq ki, Ukrayna postsovet məkanında Azərbaycanla ticarət dövriyyəsinə görə Rusiyadan sonra ikincidir.

Cari ilin yanvarında Azərbaycan ilə Belarus arasında ticarət dövriyyəsinin dəyəri isə 8,2 milyon dollara yaxın olub. Bu barədə AZƏRTAC-a Belarus Dövlət Statistika Komitəsindən məlumat verilib.

Yanvarda Belarusdan Azərbaycana ixracın dəyəri 7,7 milyon dollar, ölkəmizdən Belarusa isə 487 min dollar təşkil edib.

Qeyd edək ki, 2020-ci ildə Azərbaycan ilə Belarus arasında ticarət dövriyyəsi 313 milyon dolları ötüb ki, bu da 2019-cu illə müqayisədə 86 milyon dollar çoxdur.

## "Xocalıya ədalət!" kampaniyası çərçivəsində Yevlaxda 613 ağac əkilib

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə keçirilən "Xocalıya ədalət!" beynəlxalq maarifləndirmə kampaniyası çərçivəsində Yevlax şəhərində ağacəkmə aksiyası təşkil olunub.

AZƏRTAC xəbər verir ki, aksiya zamanı Xocalı soyqırımı qurbanlarının xatirəsini əbədiləşdirmək məqsədilə Yevlax şəhərinin Heydər Əliyev və Nizami prospektlərində, Dədə Qorqud parkında 613 ədəd şam, göyrüş, akasiya, tuya və digər növ ağac əkilib. Şəhər ictimaiyyətinin və rayonda məskunlaşan Xocalı sakinlərinin iştirakı ilə keçirilən aksiya pandemiya dövrünün qaydalarına uyğun təşkil olunub. Əkilən ağaclar suvarılıb, aqrotexniki qulluq göstərilib.

## Fermerlər üçün təlim keçirilib

Kənd Təsərrüfatı Nazirliyi, Aqrar Elm və İnnovasiya Mərkəzinin təlim planına uyğun olaraq, Tərtər Regional Aqrar Elm və İnnovasiya Mərkəzi tərəfindən Tərtər rayonunun Qaraqoyunlu kəndində tarla şəraitində təlim keçirilib.

Pandemiya şəraiti ilə əlaqədar 10 nəfərə qədər fermer və Tərtər Dövlət Aqrar İnkişaf Mərkəzinin nümayəndəsinin iştirak etdiyi təlimdə ara məsafəsi qorunub, tibbi maskalardan istifadə edilib. AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Tərtər Regional Aqrar Elm və İnnovasiya Mərkəzinin mütəxəssisləri "Sahənin bitki qalıqlarından təmizlənməsi, dondurma şumunun aparılması. Arata torpağın hazırlanması, alaq otlarına qarşı mübarizə tədbirləri, dondurma şumunun altına mineral gübrələrin verilməsi və səpinin aparılması" mövzusunda fermerlərlə söhbətlər aparıblar.

## Dünyada ərzaq məhsullarının qiymətləri niyə bahalaşır

Kənd təsərrüfatı məhsullarına tələbatın ildən-ilə sürətlə artması XXI əsrin dünyada yaratdığı yeni vəziyyətdir. Bunun iki əsas səbəbi var. Birincisi, planetimizdə əhalinin sürətlə artmasıdır. İkincisi, insanların alıcılıq qabiliyyətinin yüksəlməsi sayəsində daha çox ərzaqdan istifadə edilməsidir.

Belə vəziyyət qiymətləri bazarın qızıl qanunu olan tələb və təklifə uyğun şəkildə müəyyənləşdirir. Hazırda dünyada əsas məhsulların qiymətlərinin ardıcıl olaraq yüksəlməsi müşahidə edilir. Qiymətlərin sürətlə artması gələcəkdə alıcılıq qabiliyyəti aşağı olan insanların ərzaq məhsullarına əlçatanlığı üçün çətinliklər yaradacaq.

Məlumdur ki, insanların ən çox istifadə etdiyi ərzaq məhsulu taxıldır. Bu səbəbdən taxılın qiyməti ildən-ilə artmaqda davam edir. Hazırda bir sıra əsas taxıl ixracatçısı olan ölkələr onun satışını dayandırıb. Məqsəd taxılın qiymətinin dünya bazarında daha da bahalaşmasını gözləmək, sonra bu imkandan istifadə edərək məhsulu satışa çıxararaq daha çox qazanc götürməkdir. Belə tendensiya təbii ki, dünyada taxıl məhsullarının qiymətinin daha da bahalaşmasına səbəb olacaq.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) hesabatına görə, taxılın qiymət indeksi 2020-ci ilin iyul ayından etibarən 1,9 faiz artaraq 2019-cu ilin avqust ayındakı dəyərindən orta hesabla 7 faiz yüksəlib. Burada dənli bitkilər və taxıl məhsulları ilk sırada yer alıb. Darı məhsulunun qiymətləri Çinin böyük idxal tələbi səbəbindən 8,6 faiz bahalaşıb və 2020-ci ilə nisbətən 33,4 faiz artım müşahidə edilib. Ayova (Iowa) ştatındakı son məhsul azlığının tədarükə təsir etməsi qarğıdalının da qiymətlərinin 2,2 faiz artmasına səbəb olub. Düyünün qiymətlərində də mövsümi və Afrikada bu məhsula olan tələbin artması səbəbindən yüksəlmə müşahidə edilib.

FAO-nun yeni proqnozuna əsasən, 2020-2021-ci illər üçün dünyada taxıl istehlakı illik 2 faiz artımla 2 milyard 764 milyon ton səviyyəsindədir. Qlobal taxıl ehtiyatlarının cari mövsüm 1,7 faiz artaraq 895,5 milyon tona çatması gözlənilir. Bu o deməkdir ki, düyü və taxıl məhsulları tədarükü ilə canlanan dünya taxıl ticarəti 2019-2020-ci illərdəki səviyyəsindən 1,6 faiz çox - 441,4 milyon ton səviyyəsində olacaq.

FAO bu sahədə gedən prosesləri diqqətlə izləyir. Təşkilatın keçən ilin avqust ayındakı ərzaq qiymətləri indeksi orta hesabla 96,1 bənd təşkil edib ki, bu da iyul ayına nisbətən 2 faiz çoxdur. Fevral ayı ilə müqayisədə bu rəqəm ən yüksək göstəricidir. FAO bildirir ki, taxıl qiymətləri indeksi iyul ayı ilə müqayisədə 1,9, illik müqayisədə 7 faiz artıb. Qarğıdalı və sorqo qiymətləri indeksi də kəskin artıb, düyü isə qeyd etdiyimiz kimi, mövsümi qıtlıq, həmçinin Afrikada artan tələbatın fonunda bahalaşıb. Sorqonun qiymətini aylıq müqayisədə 8,6, illik müqayisədə 33,4 faiz artmasının səbəbi isə Çinin idxala artan tələbatı ilə bağlı olub.



Şəkər məhsulları da dünyada ən çox istifadə edilən ərzaq növüdür. Qiymət bahalaşması bu məhsulda da özünü göstərir. Belə ki, FAO şəkər qiymətləri indeksi üzrə əvvəlki aya nisbətən bu məhsulun qiymətinin 6,7 faiz artdığını müəyyən edib. Bu tendensiya bitki yağlarında da müşahidə edilir. 2019-2020-ci illərdə başda palma yağı olmaqla soya, günəbaxan və kolza yağlarının qiyməti tələbatın artması üzündən 5,9 faiz yüksəlib.

FAO-nun məlumatlarına görə, ötən ilin iyul ayında süd və süd məhsullarının qiymətləri dəyişməz olaraq qalıb. Lakin Okeaniyada geniş mövsümi ixrac imkanları gözləntiləri fonunda pendir və süd tozunun qiymətləri aşağı düşüb. Ancaq avqust ayında isti havanın təsiri nəticəsində süd istehsalının azalması nəticəsində Avropadan ixracatın azalması ilə yağın qiymətləri bahalaşıb.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Biz birlikdə güclüyük!

# Hələ pandemiya təhlükəsindən sovuşmamışıq

Bir ildən artıqdır ki, "dünyanın baş ağrısı"na çevrilmiş koronavirus pandemiyası nəinki insanların həyatının rahatlığını əlindən alıb, həm də cəmiyyətin inkişafına, iqtisadiyyatın iflic olmasınadək problemlər yaratmaqdadır. İnsanlar adi həyatdan uzaq düşdükləri kimi, çoxmilyonlu şəhərlərin də küçə-bazarları da uzun müddət qapalı qalıb. Nəhayət, pandemiyanın qarşısının alınması uğrunda aparılan mübarizə özünün əsas həlledici dövrünə yetişib: vaksinasiya prosesi bir ölkədən digərinə yol açdı.





Dünyada (COVID-19) koronavirusunun qarşısını almaq məqsədilə hazırlanan müxtəlif vaksinlər üzrə tədbirlər davam edərkən Azərbaycanın seçimi Çinin paytaxtı Pekindəki "Sinovac" şirkətinin "CoronaVac" peyvəndi oldu. Şirkət koronavirus vaksini ilə yanaşı, hepatit A və B, H5N1 quş qripi, H1N1 donuz qripi və mövsümi qrip viruslarına qarşı peyvəndlər də hazırlayır.

Xatırladaq ki, artıq ölkəmizdə istifadə olunan "CoronaVac" vaksininin ilk partiyası qardaş Türkiyəyə ötən ilin sonlarında çatdırılıb. Azərbaycana isə 2021-ci il yanvar ayının ortalarında gətirilməklə, tətbiqinə həmin ayın 18-dən başlanıb.

### Kollektiv peyvəndlənməyə başlanıb

Yanvar ayının 18-dən başlayan vaksinasiya prosesi könüllülük prinsipi əsasında aparıldığı üçün ölkə əhalisinin, demək olar ki, hələlik böyük əksəriyyətinin peyvənddən istifadə etdiyini söyləmək tezdir. Nazirlər Kabineti yanında Operativ Qərargahın, Səhiyyə Nazirliyinin, eləcə də TƏBİB-in birgə təşkil etdiyi sonuncu mətbuat konfranslarında verdikləri operativ məlumatlar da göstərir ki, artıq pandemiyanın qarşısının alınması özünün həlledici mərhələsinə çatıb. Lakin buna baxmayaraq, hələ demək olmaz ki, təhlükədən tamamilə sovuşmuşuq. Doğrudur, gündəlik verilən məlumatlardan görünür ki, yaradılmış şərait pandemiyanın ömrünü qısaltmaqdadır. Buna görə də tətbiq edilən ciddi rejim, qadağalar yumşaldılmış, məhdudlaşdırılan bəzi hərəkətlər, eləcə də ticarət və məişət xidmətləri obyektləri öz fəaliyyətlərini qismən də olsa bərpa etmişdir.

Vaksinasiya prosesinin sürətləndirilməsi də mühüm dövrdür ki, burada da operativlik əsas şərtlərdən hesab edilir. Buna görə paytaxt Bakıda prosesi bir qədər də sürətləndirmək məqsədilə ötən il koronavirus xəstələrinin müalicəsi üçün təcili tikilmiş modul tipli xəstəxanalar da bu prosesə cəlb edilmişdir.

Fərdi qaydada, yaşayış yeri üzrə aparılan vaksinasiya ilə yanaşı, artıq ölkə vətəndaşları kollektiv halda da bu vacib prosesdə fəal iştirak edir. Bu günlərdə Kliniki Tibbi Mərkəzin modul tipli xəstəxanasının xidmətindən istifadə edən kollektivlərin sayı getdikcə artmaqdadır. Bir ildən artıqdır ki, koronavirusa qarşı mübarizəni diqqət mərkəzində saxlayan, əsas təbliğat formasından maksimum istifadə edən rəsmi dövlət qəzeti olan "Azərbaycan"ın da əməkdaşları Kliniki Tibbi Mərkəzin modul tipli xəstəxanasına müraciət etdi. Xəstəxananın məsul əməkdaşı, həkim-infeksionist Maisə Heybətova bizimlə söhbətində bildirdi ki, xəstələrimiz sağaldıqdan və ailələrinə qovuşduqdan sonra burada da vaksinasiyaya başlanılıb: "İki gün öncə Nazirlər Kabinetinin 32 əməkdaşı peyvənd olundu. Bu gün "Azərbaycan" qəzetinin əməkdaşları ilə yanaşı, Respublika Prokurorluğunun, "SOCAR"ın, eləcə də "Azərsu" ASC-nin kollektivləri xəstəxanamıza müraciət ediblər.

Digər dövlət orqanlarının əməkdaşlarının da bu xəstəxanada vaksinasiyadan keçəcəyini qeyd edən həkim onu da bildirdi ki, Azərbaycana gətirilən və artıq bir aya yaxındır ki, tətbiq edilən Çinin "Sinovac" şirkətinin istehsal etdiyi "CoronoVAC" vaksini tam təhlükəsizdir.

### Ağrısız-acısız, hiss olunmayan iynə

Bakı şəhəri, C.Məmmədquluzadə, 102 a ünvanında yerləşən, bir ilə yaxın müddətdə koronavirusa yoluxmuş xəstələrin müalicəsində xüsusi rol oynayan modul tiplu xəstəxananın həyətində sıralanmış avtobuslardan da görünür ki, artıq əhali peyvəndlənmənin əhəmiyyətini dərk edir və könüllü şəkildə prosesə qoşulur.

İki korpusdan və yardımçı texniki binalardan ibarət modul tipli xəstəxanada vaksinasiya prosesini izləyirik. Tibbi personal təcrübəlidir. Hər kəs öz işinin sahibidir.

Əvvəlcə gözləmə otağına daxil olursan, sonra qeydiyyat aparılır. Şəxsiyyət vəsiqəsi mütləq lazımdır. Peyvənd olunmağa gələnlərin arasında hər hansı xəstəliklə bağlı şikayəti olan varsa, həkim müayinəsindən keçir, yaxud yaşadığı ərazi üzrə poliklinikalara göndərilir. İstəyənlərin arterial təzyiqi və hərarəti ölçülür, digər xəstəlikləri soruşulub-öyrənilir. Sonra peyvənd olunmağa gələnlər qeydiyyat otağına yaxınlaşaraq şəxsiyyət vəsiqəsini təqdim edirlər. Lazımi qeydiyyat aparıldıqdan sonra qan təzyiqi, epileptik və allergik xəstəlikləri yoxdursa, inyeksiya üçün ayrılan kabinetə keçərək peyvənd olunurlar. İynənin vurulub-vurulmamasını hiss etməyən pasiyent, hətta həkimdən soruşur: "Peyvənd olundummu? Axı, heç nə hiss etmədim".

Peyvəndin ikinci dozasının da olunma tarixi barədə məlumat verilir. "COVID-19 vaksinasiyası üzrə məlumat forması" doldurulur. Peyvənd olunduqdan sonra bir neçə dəqiqə həkim müşahidəsində saxlanılırsan. Gün ərzində peyvənd olunanların heç birində əks-təsirlər və heç bir narahatlıq müşahidə edilmir. Həmin müddətdə peyvəndin əlavə əks-təsiri və allergik reaksiyası olmadıqda xəstəxananı tərk etməyə icazə verilir.

Həkim-infeksionist Maisə Heybətova deyir ki, yanvar ayının 18-dən ölkəmizdə COVID-19-a qarşı peyvəndləmə başlayıb: "...Öncə Azərbaycan Prezidenti cənab İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya kollektivimizə göstərilən diqqət üçün, əslində,



xalqımızın sağlamlığı qayğısına qaldıqlarına görə dərin təşəkkürümüzü bildiririk. Dövlətimiz insanların sağlamlığını daim diqqət mərkəzində saxlayır. Bu da bizim üçün çox böyük məsuliyyət deməkdir. Çalışırıq ki, peşəmizlə xalqımıza xidməti tələb olunan səviyyədə göstərək. Xəstəxanamızda peyvəndləmə prosesi başlayandan buradakı tibbi personal yorulmadan çalışır. Çünki üzərimizə düşən işin vacibliyini və məsuliyyətini dərk edirik. Bir il bundan öncə vaksinin hazırlanması və tapılması üçün dünya səhiyyəsi çətin dilemma qarşısında qalmışdı. Bu gün, şükürlər olsun ki, vaksinasiya prosesində iştirak edirik. Dünənə qədər xalqımızı bu bəladan qorumaq üçün müxtəlif vasitələrdən istifadə edilirdi. Bu gün isə artıq insanlarımızın pandemiyadan xilası naminə mühüm prosesin iştirakçısıyıq. Unutmayaq ki, ağxalatlı xilasedicilərimizdən də ötən müddət ərzində az itirmədik".

Burada tibbi personalın - Xatirə Əliyeva, Faiq Süleymanov, Leyla Xəlilova, Təranə və Bənövşə Abdullayevalar, Şükufə Kazımova, Lətifə Hüseynova, Gülnarə Məmmədova... kimi həkim, tibb bacısı, epidemioloq, qeydiyyatçı, hətta təsərrüfat başçısı var ki, hər birinin xidməti peyvənd olunmağa gələnlərin diqqətindən yayınmır.

### "SinoVAC" peyvəndinin üstün cəhətləri...

Həkim onu da qeyd edir ki, multiplatformalı yanaşmanı nəzərə alaraq Avropa İttifaqı və Dünya Səhiyyə Təşkilatı ilə kommunikasiya, peyvəndlərin logistikası istiqamətində həyata keçirilən əməkdaşlıq da mühüm əhəmiyyətə malikdir. Peyvəndlər pandemiyaya qarşı mübarizənin ön cəbhəsində çalışanlara və xəstəliyin ağır nəticələrinin qorxusu altında yaşamağa məcbur olan yüksək risk qruplarında olan insanlara ümid və qoruma vəd edir: "Bu səxavətli dəstək sayəsində ÜST peyvəndlərin ən çox ehtiyacı olanlara qısa zamanda və daha effektli şəkildə çatdırılmasını təmin etmək üçün Azərbaycanla əməkdaşlığını gücləndirmək istəyindədir.

Ölkəmiz ötən birillik mübarizədə daha çevik siyasət aparmış, pandemiyanın qlobal xarakterliliyinin qarşısının alınmasında nümunəvi tədbirləri ilə diqqət mərkəzində olmuşdur. Onu da deyək ki, peyvəndlənməyə iki cür yanaşma var: canlı, zəiflədilmiş vaksinlərdə xəstəliyə səbəb olmadan çoxala bilən zəifləmiş virus formasından, inaktiv peyvəndlərdə isə, genetik materialları məhv edildiyinə görə, çoxalmayan, lakin immunitetin reaksiyasına səbəb ola bilən viruslardan istifadə olunur. Hər iki növ peyvənddə köklü texnologiyalardan istifadə olunsa da, canlı peyvəndlər immun sistemi zəif olanlarda xəstəliyə səbəb ola bilir. Bundan başqa, onlar, adətən, xüsusi soyuq yerlərdə saxlanmağı tələb edir. İnaktiv vaksinlər bəzən soyuq mühit tələb etsələr də, onları immun sistemi zəifləmiş insanlara vurmaq olar".

İnfeksionist-həkimin bildirdiyinə görə, "Sinovac" şirkətinin "CoronaVAC" vaksini inaktiv peyvənddir. O, xəstəliyə ciddi əks-təsirə səbəb olmadan, bədənin immun sistemini virusa məruz qoymaq üçün öldürülmüş virus hissəciklərindən istifadə edərək işləyir. Şirkət vaksinin hazırlanmasında Çin, Böyük Britaniya, İtaliya, İspaniya və İsveçrədən olan COVID-19 xəstələrindən nümunələr götürüb.

"SinoVAC" peyvəndinin əsas üstün cəhətlərindən biri standart soyuducuda 2-8 dərəcədə saxlanıla bilinməsidir. Maraqlıdır, "SinoVAC" vaksini nə qədər təsirlidir?

"The Lancet" elmi jurnalı yazır ki, hazırda "CoronaVAC" peyvəndinin ancaq birinci və ikinci mərhələsi üzrə məlumatlar var. Birinci və ikinci mərhələdə iştirak edən, ümumilikdə 750-yə yaxın insanda aparılan peyvənd təcili istifadə üçün əlverişli olub.

Azərbaycan, Türkiyə, Braziliya, Çili və bəzi ölkələr "SinoVAC" peyvəndini seçib.

"Sinovac" şirkəti yeni inşa edilmiş zavodunda ildə 300 milyon doza vaksin istehsal edə biləcəyini bildirib. Vaksinlər iki dozada vurulduğu üçün bu, ildə sadəcə, 150 milyon insanın bu peyvəndlə təmin edilə biləcəyi deməkdir.

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***





# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

***qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərmətbuatyayımı" ASC | (012) 440-46-94, (012) 441-19-91 |
| "Azərpoçt" ASC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Kaspi" MMC | (012) 432-39-55, (012) 510-82-24 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


# Beynəlxalq aləm



## Bayden Rusiyanı Avropa və NATO-nu zəiflətməyə çalışmaqda ittiham edir

Rusiya Qərb ölkələrinin birliyini pozmağa çalışır, çünki bu, onun məqsədlərinə çatmasını asanlaşdırır. Bu bəyanatla ABŞ Prezidenti Co Bayden çıxış etmişdir.

Bayden Münhen Təhlükəsizlik Konfransında onlayn rejimdə çıxış edərkən demişdir: "Hamı bilir ki, Rusiya Avropa layihəsini (Avropa İttifaqı-red.) və NATO müttəfiqliyimizi zəiflətməyə çalışır ... Çünki Moskvanın ayrı-ayrı ölkələri qorxutması vahid trans-Atlantik birliyi ilə danışıqlar aparmaqdan daha asandır".

ABŞ Prezidenti vurğulamışdır ki, Ukraynanın suverenliyini və ərazi bütövlüyünü qorumaq Avropa və ABŞ üçün həyati əhəmiyyət kəsb edir. O həmçinin Moskvanı ABŞ və Avropa ölkələrinə kiberhücumlarda iştirak etməkdə günahlandırmışdır. Bayden bu hərəkətlərə reaksiya verməyə çağırmışdır, çünki bu, "ümumi təhlükəsizliyin qorunması" üçün son dərəcə vacibdir.

## ABŞ Paris iqlim sazişinə qayıtdı



ABŞ rəsmən Paris iqlim sazişinə qayıtmışdır. Bu barədə "Röyter" agentliyi xəbər verir.

Qeyd olunur ki, Prezident Co Baydenin administrasiyası qarşıdakı 30 il ərzində atmosferə tullantıları kəskin şəkildə azaltmağı planlaşdırır. ABŞ-ın dövlət katibi Antoni Blinkenin dediyinə görə, Vaşinqton iqlim dəyişikliyi mövzusunu ən vacib danışıqlara daxil edəcək. O vurğulamışdır ki, bu, milli təhlükəsizlik, miqrasiya, beynəlxalq səhiyyə və iqtisadi diplomatiya məsələləri üçün həyati əhəmiyyətə malikdir.

Paris iqlim sazişi 2015-ci ilin dekabr ayında 190-dan çox ölkənin imzaladığı ilk qlobal iqlim müqaviləsidir. ABŞ-ın eks-prezidenti Donald Tramp ölkəsini sazişdən çıxarmış, lakin Bayden dövlət başçısı kimi səlahiyyətlərini icra etməyə başlayan kimi sələfinin bir sıra qərarlarını ləğv etmiş, o cümlədən ABŞ-ın Paris sazişinə qayıtması haqqında fərman imzalamışdır.

## Avropa İttifaqı COVAX fonduna töhfəsini ikiqat artıracaq



Avropa İttifaqı (Aİ) COVAX fonduna töhfəsini iki dəfə artıracaq - 500 milyon avrodan 1 milyard avroya qədər. Lakin bu təşəbbüs çərçivəsində üçüncü dünya ölkələrinə real peyvənd tədarükünün başlaması tarixi hələ məlum deyil. Bu barədə Avropa Komissiyasının sədri Ursula fon der Lyayen "Twitter"də yazmışdır.

Ursula fon der Lyayen qeyd etmişdir ki, "bütün dünya təhlükəsiz olmayınca, biz təhlükəsiz ola bilmərik". Onun dediyinə görə, dünyanın yoxsul ölkələrinə peyvənd tədarükü ilə bağlı əsas problem vaksin istehsalının yetərli olmamasıdır. Hazırda Aİ-nin özü də peyvənd çatışmazlığından əziyyət çəkir.

Bu arada məlum olmuşdur ki, G7 ölkələrinin liderləri yoxsul ölkələrdə əhalinin peyvəndlənməsi üçün maliyyə yardımını 7,5 milyard dollara çatdırmaq barədə sazişə gəlmişlər. Liderlər həmçinin peyvəndləmə preparatlarını yoxsul ölkələrlə bölüşəcəklərini bəyan etmişlər.

## Tarixdə ən böyük kokain partiyası Britaniyada müsadirə olundu



Britaniya hüquq mühafizə orqanları Kolumbiyadan gətirilmiş banan partiyasında 2,3 ton kokain aşkar etmişdir. Bu barədə "Sky News" telekanalı xəbər verir.

Narkotik maddə Portsmut beynəlxalq limanına çatan kimi müsadirə olunmuşdur. Narkotik qaçaqmalçılığı hadisəsində 21-56 yaşlı 10 nəfər həbs edilmişdir.

Cinayətkarlıqla Mübarizə Milli Agentliyi bildirmişdir ki, aşkarlanmış kokainin qiyməti 184 milyon funt sterlinqə çata bilər. Bu, tarix boyu müsadirə edilmiş ən böyük kokain partiyasıdır.

## PKK-nın başçılarından biri Almaniyada həbs cəzası aldı




Almaniyanın Koblents şəhər məhkəməsi PKK terrorçu təşkilatının " məsul bölgə nümayəndəsi" Ç.Gökmənə həbs cəzası vermişdir. Hökmə görə, o, ömrünün 3 il 5 ayını dəmir barmaqlıqlar arxasında keçirməli olacaq.

Məhkəmənin qərarında deyilir ki, Gökmən 2017-ci ildən Saarbrükken rayonunda, 2018-ci ilin aprelindən 2019-cu ilin iyun ayınadək Frankfurt və Hessendə terrorçu təşkilatın fəaliyyətinə görə məsuliyyət daşımışdır. O, mütəmadi olaraq Avropadakı PKK liderlərinə mühüm hadisələr haqqında məlumat çatdırırdı. Gökmən "ianə" toplanmasını da əlaqələndirirdi. O, 2018-ci ilin aprelindən 2019-cu ilin iyun ayının ortalarınadək PKK-ya 500 min avro pul köçürülməsini təmin etmişdir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

Ünvan



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5229
Sifariş 277
Qiyməti 40 qəpik